Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

VIII cild



Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

VIII cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, VIII cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Vətən”, “Araz”, “İlin ən yaxşı kitabı” və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun “Seçilmiş əsərləri”nin səkkizinci cildinə onun “Yurdum-yuvam” (1983), “Ətirli düymələr” (1986), “Aylı cığır” (1992), “Zamanın qatarı” (2005) və “Daha uşaq deyiləm” (2006) kitablarındakı uşaq şeirləri daxil edilmişdir.

$\copyright \frac{19475697}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# “Yurdum-yuvam” kitabından:

## GÜL AÇIB YURDUMUN DÜZLƏRİ, BAXIRAM, SEVİNİR GÖZLƏRİM

### AZƏRBAYCAN TORPAĞI

Bağlara bax, bağlara,
Meyvələri dəyibdir.
Gəlin dərək onları,
Budaqları əyibdir.

Dağlara bax, dağlara,
Qoynu sərvətlə dolu.
Zirvəyəcən ucaldıb
İgid oğullar yolu.

Tarlaya bax, tarlaya
Bərəkəti bol olsun!
Qoy bunkerlər boşalsın,
Elin anbarı dolsun!

Çaylara bax, çaylara,
Çox bulanıb, durulub.
Odun qənimi su da
İşıq olub, nur olub.

Meşəyə bax, meşəyə,
Ağacı var nə qədər.
Sayıb qurtarmaq olmaz,
Özünü yorma hədər

Ağaca bax, ağaca,
Nə qədər budağı var.
Budağa bax, budağa
Nə qədər yarpağı var.
Deyirəm nə yaxşı ki,
Bu vətən torpağı var:

Qoynunda hər şey bitir,
Hamının anasıdı.
O bizim ömrümüzün
Ən dərin mənasıdı.

Bu torpağa qarışıb
Koroğlular, Nəbilər.
Onun hərarətini
Qəlbi buzlar nə bilər?

Bu yer odla yoğrulub,
İşıqları sayrışar.
Neft qanı, qaz nəfəsi,
Kibrit çəksən, alışar.

Babalardan söz açır,
Bir tarixdi hər daşı.
Qoy bizim əlimizlə
Gülüstana çevrilsin
Vətənin hər qarışı!

**1978**

## VƏTƏNİ DƏ SEVİRSƏN

Bulaqları, çayları,
Fəsilləri, ayları,
Çiçəkləri, gülləri,
Dənizləri, gölləri,
Şəhərləri, kəndləri,
Bərələri, bəndləri,
Quşların nəğməsini,
Tarın incə səsini,
Ananın laylasını –
Qızım, sayım hansını?!
Ən adi yarpağı da,
Daşı da, torpağı da,
Sevirsənsə əgər sən,
Vətəni də sevirsən…

**1973**

## ORAQ

Taxil biçir biçinçi,
Hər sünbül bir çörəkdir.
Kombayn olan yerdə
Oraq nəyə gərəkdir?

Bir zaman çox iş görüb,
Əyri orağımız da.
Oraq şəkli var idi
Bir vaxt bayrağımızda.

Bizim oraq sevgimiz
İndi bir az kiçilib.
Əyri oraqla bir vaxt
Düz zəmilər biçilib.

İndi muzeyə düşüb
O, əyri orağımız.
Ay-ulduzla süslənib,
Üçrəngli bayrağımız.

**1975-2023**

## ƏBƏDİ MƏŞƏL

Uşaqlar, tez-tez gəlin
Siz Fəxri xiyabana.
Baxın, əbədi məşəl
Şəfəq saçır hər yana!

Kim qoşulsa el üçün,
Vətən üçün yürüşə.
Özü heykələ dönər,
Arzuları günəşə.

Xəyal gah Qarabağa,
Gah Zəngəzura uçur.
Bu məşəl günəş kimi
Hər tərəfə nur saçır…

**2023**

## MARALGÖL NƏĞMƏLƏRİ

Bu yol gedir Maralgölə,
Gedirəm ki, maral görəm.
Susayanda enib gələr
Su içməyə maral, gölə.

Qaya üstə gül olarmış,
Dağ başında göl olarmış!
Maralgölü görən kəsin
Ürəyi tel-tel olarmış.

Uşaqlar da, qocalar da
Dözər onun yoxuşuna.
Bir işıqdı, pərvanə tək
Ellər dolanar başına.

Cavanlaşdım, bu dağların
Çiçəyini dərən kimi.
Gözlərimin nuru artdı
Maralgölü görən kimi.

Böyük bacısı Göygöldən
Hündür imiş, aralıymış.
Doğrudan da, Maralgölüm
Bu göllərin maralıymış…

**1982**

***

Gül-çiçəkdən sərgi açıb,
Hər yamac, hər tala burda.
Ürəyimdən bir səs gəlir,
Bir daş olub qalam burda.

Gül var qızların saçında,
Tellər sanki çiçəkləyib.
Maralgöldən geri dönən
Əllər sanki çiçəkləyib…

Çiçəkləyib dilimiz də,
Çiçəkləyib qəlbimiz də.
Bir Maralgöl aparırıq
Hərəmiz öz qəlbimizdə.

**1982**

## TƏBİƏTİN İŞİNƏ BAX

Bu göllərin sahilində
Hər çiçək bir günəş idi.
Dövrəsində neçə göl var,
Göygöl – göllər günəşidi.

Bu Zəligöl, bu Güzgügöl,
Bu Maralgöl, bu Qaragöl. –
Heyrətimdən lal olmuşam,
Səpələnib dağlara göl.

Güllər ulduz tək sayrışır,
Sən bu dağın döşünə bax.
Ağsudan Göygöl yaradıb,
Təbiətin işinə bax!

**1982**

## GÖYGÖL

Göygölə bax, Göygölə,
Böyükdü, meydancadı.
Dağların qucağında
Elə bil meydançadı.

Təpə oturacaqda
Tamaşaçı ağaclar
Əyləşib seyr edirlər
O meydanı qış-bahar…

**1982**

## HACIKƏND LÖVHƏLƏRİ

Bir üzü çəməndi,
Bir üzü meşə.
Az qalır hər yanı
Bürüsün meşə.

Ağaclar yamyaşıl,
Otlar yamyaşıl.
Dağa qalxırsansa,
Gəl bizə qoşul!

Yamaclar rəngbərəng
Çiçəkdi, güldü.
Yel əsdi, yarpaqlar
Danışdı, güldü.

Otların içindən
Qantəpər seçək.
Yüz dərdə dərmandı
Burda hər çiçək.

**1982**

## HACIKƏND

Yaraşıq verir
Dərəyə, dağa
Burda çən, çisək.

Bu sakitliyi
Gəlib pozmağa
Utanır külək.

Ağ güllərə bax,
Səpilib düzə
Quzey qarı tək.

Güldən çiçəyə
Qonur gözlərim
Bir ac arı tək.

Meşə evləri
Alıb qoynuna
Balaları tək.

Adamlar gedir
Çiçək dalınca, –
Hər ev, bir pətək.

**1982**

## SOVQAT

Meşəsindən üç yarpaq,
Çəmənindən üç çiçək,
Maralgölündən üç daş
Gətirmişəm bu elin.
Biri Gülzarın,
Biri Gündüzün,
Biri Gurselin…

**1982**

## QANTƏPƏR

Qantəpərə bax doyunca,
Bu dağların çiçəyidi.
Maralgöldə iridi o,
Hacıkənddə kiçik idi.

Həm sarı, həm ətirlidi,
O, dərmandı neçə dərdə.
Maralgölün sahilində
Gözəlləşir qantəpər də.

***

Çaya atdım
Qantəpər,
İçdim, tapdı
Can təpər…

**1982**

## HACIKƏNDİN BULAQLARI

Turşsu məndən yuxarıda,
Gözəlbulaq aşağıda.
Bu çeşmələr heyran qoyub
Böyüyü də, uşağı da.

Bu dağların gülü solmaz,
Bulağının tayı olmaz.
Hər içəndə artır bir az
Gözlərimin işığı da.

**1982**

## TORPAQ

Torpağın qədrini bil,
Torpaq məhək daşıdır.
Səp qoynuna, söyləsin,
Nə pisdir, nə yaxşıdır.
O, safları bitirir,
Çürükləri itirir….

## XANBULANÇAYIN ÜRƏYİ

İşıqlar bu dəryada
Sayrışır ulduz kimi.
Burda bir bulaq itib,
Suyu sərin, buz kimi.

Belə böyük, ağır yük
Görməyib həyatında.
Çırpınır dəryaçanın
Dizlərinin altında.

Bir zaman dincəliblər
Bu çeşmənin başında.
Xanbulaq qocaların
Yaşayır yaddaşında.

Xanbulaq bir uşaqdır,
Sındırmayın könlünü.
Üfürür bir şar kimi
Xanbulançay gölünü.

Gözə görünməsə də,
Yenə də insanlara
Çox gərəkdi Xanbulaq.
Sanki Xanbulançayın
Sinəsində çırpınan
Bir ürəkdi Xanbulaq.

**1981**

## DAŞKƏND

Gecəsi səhər olub,
Acısı şəkər, qənddi.
Daşkənd daş şəhər olub,
Adı yenə Daşkənddi…

**1978**

## ÜMİD

Mən bir topa bulud idim,
Endim yerə, selə döndüm.
Boy-buxunlu palıd idim,
Yandırdılar, külə döndüm.

İstim isitdi hamını,
Tüstüm göydə bulud oldu.
Səpin külümü meşəyə,
Bəlkə yenə palıd oldum!

Bilirəm ki, min hikmət var
Bizim vətən torpağında.
Bəlkə yenidən közərdim
Çiçəklərin yanağında?!

**1977**

## BİR SUALIN ON CAVABI

Səsimlə bir qışqırıb
Belə sual verdim mən:
– Ən gözəl yer haradı
Bu dünyada görəsən?

Sualı eşidən tək
Sanki dil açdı, dindi.
Quş dedi ki, səmadı,
Tülkü söylədi: – Hindi.

Balıq dedi: – Dənizdi,
Arı dedi: – Güllükdü.
Dəvə dedi: – Qanqallıq,
Ulaq dedi: – Küllükdü.

Ağac dedi: –Torpaqdı,
Yarpaq dedi: – Budaqdı.
Quzu dedi: – Çəməndi,
İnsan dedi: – Vətəndi.

**1981**

## DİNCƏ QOYULMUŞ TORPAQ

Görürsən bu talanı,
Qoynu güldü, çiçəkdi.
Keçən il zəmi idi,
Bu ilsə biçənəkdi.

İşə davamsız olar
Həmişə yorğun bədən.
Hər il əkilsə əgər,
Torpaq düşər qüvvədən…

***

Bir vaxt başdan aşarmış
Onun dövləti, varı.
Diyar-diyar gəzərmiş
Zəfəranı,ənciri,
Üzümü, qızıl narı.

Açılıb ağ çiçəklər,
Saçlarına dən düşüb.
O qədər əkilib ki,
Bu torpaq gücdən düşüb.

Xam torpağa səsləyib
El bizi, Vətən bizi
Bataqlıqlar olubdur
Sarı buğda dənizi.

Hər zəmi bir kəhkəşan,
Hər sünbül çıraq olub.
Ayaq dəyməyən yerlər
Müqəddəs torpaq olub.

Həmişə əkilən yer
Bir az dincə qoyulsa
Yenə gələr özünə.
O qədər məhsul verər
İnanmazsan gözünə…

**1981**

## DAĞA ÇIXDIM

Dağa çıxdım, çiçəklər
Dilə gəldi, danışdı.
Lalələr elə bil ki,
Alovlandı, alışdı.

Gəlmişdim ki, eşidəm
Şəlalənin səsini.
O, dərəyə boşaltdı
Öz nəğmə şələsini.

Endim nəğmə dalınca
Uddu gədiklər məni.
Qəhqəhə gülləsinə
Tutdu kəkliklər məni…

**1974**

## MAŞIN

Gündüzlər gözübağlı
Gəzir şəhəri, kəndi.
Gecə açır onları
Bilmirəm ki, nədəndir.

Elə ki, qaranlığa
Büründü sağı, solu,
Gözlərini açmasa,
Sürücü görməz yolu.

**1976**

## MEŞƏ SAZ KİMİ KÖKLƏNİB

Ulas qayım, palıd mətin,
Könlün, gözün doyar çətin.
Meşə – ana təbiətin
Göz oxşayan varağıdı.

Qızıl don geyib hər budaq,
Himə bənddi sarı yarpaq,
Bir söz desən, ağlayacaq –
Meşənin kövrək çağıdı.

Ağacların dolub gözü
İlin bu qızıl fəslində.
Meşə saz kimi köklənib,
“Yanıq Kərəmi” üstündə…

## XOCAMSAXLI

Xocamsaxlı,
bir qaladır hər daşın,
Tufanları
almayıbdır eyninə.
Yollar sanki
kəndir idi, yapışıb
Yavaş-yavaş
endik sənin qoynuna.

Bulaqların
coşdurubdur təbini,
Dağlar, daşlar
başdan-başa şeir idi…

Dəlikdaşın
bəlkə Qaçaq Nəbinin
Boşa çıxan
gülləsinin yeridi?!

Qalaların
nişanədi qeyrətdən,
Ulu göldən
qalxıram çay yuxarı.
Öz yerimdə
quruyuram heyrətdən,
Necə darmış
Ağaçayın axarı?!

Dəli nərə
qayaları dindirib,
Uca dağlar
köks ötürüb dərindən.
Elə bil ki,
Babək qılınc endirib,
Qan yerinə
su fışqırıb yerindən…

**1981**

## FƏSİLLƏR

A daşdı, daşdı, daşdı,
Qar əridi, su daşdı.
Tumurcuqlandı meşə,
Baş qaldırdı bənövşə.

A yandı, yandı, yandı,
Çöllər nura boyandı.
Az qalır ki, od yağa,
Gərək köçək yaylağa.

A düşdü, düşdü, düşdü,
Yarpaqlar yerə düşdü.
Soldu çöllər, yamaclar,
Çılpaqlandı ağaclar.

A dondu, dondu, dondu,
Şaxta gəldi, su dondu.
Yağış dönüb oldu qar,
Düzlər geydi ağ paltar.

**1976**

## QATAR İLƏ GƏLƏN QIŞ

Dayanmışam vağzalda
Şimaldan qatar gəlir.
Vaqonların üstündə
Ay can, ay can, qar gəlir.

Uşaqların səs-küyü
Sevincdənmi yüksəlib?!
Qəribədir, bu il qış
Qatara minib gəlib…

## YOLBASAN

Sən təzə küçəyə
Düşmüsən, yolbasan.
Mən çatdım mənzilə,
Sən hələ yoldasan.
Dağ kimi ağırsan,
Sən qırın üstünə
çıxırsan.
Keçdiyin bu yollar,
Olacaq haphamar.
Gələcək maşınlar,
Siqnallar dinəcək.
Nahamar küçəmiz
Güzgüyə dönəcək.

**1975**

## BƏNÖVŞƏLƏR

Deyirlər ki, bənövşələr
Çəmən xalanın qızıdır.
Bənövşə var bənövşəyi,
Bənövşə var, qırmızıdır.

Göstərdi qan bənövşəsi
Böyük bacım Göycə mənə.
Damcı-damcı qan çilənib
Elə bil ki, göy çəmənə.

**1976**

## GÖYDƏLƏNLƏR ŞƏHƏRİ

Ay təyyarəçi əmi,
Uç, uç, sənə yaxşı yol!
Ancaq bizim şəhərdən
Keçəndə diqqətli ol!
Çox uca binalar var,
Birdən sənin təyyarən
Göydələnə toxunar…

**1974**

## HÖRÜMÇƏK TORU

Yuvasından ovunu
Yaxşı görür hörümçək.
Hana asıb özünə
“Xalça” hörür hörümçək.

Bu “xalça”nın üstündə
Gəzməyə gəlmə, gəlmə.
Tutub saxlayar səni,
Ay qarışqa, hər ilmə.

Elə bil ki, yorulmur
Hörümçəyin qolları.
Tordan tutub sallanır
Həmişə yerə sarı.

Kiçiksə də, gözləri
Ovu uzaqdan seçir.
Tor sanki paraşütdür,
Hörümçək təyyarəçi…

**1975**

## BALAMIN QAR PAYI

Qar yağanda düşür yada
Ömrümün ötən çağları.
Qar yağanda sevinərdi
Kəndimizin uşaqları.

Yaş artıb, bələd olsam da,
Mən dünyanın hər üzünə,
O zamandan həsrət idim
Dizə qədər qar üzünə.

Kiçik oğlum Gursel ilə
Evdən çıxdım mən bu səhər.
İnanmadım gözlərimə
Qar yağmışdı dizə qədər.

Gursel elə sevinir ki,
Öz sevincim yaddan çıxıb.
Qaçır o yana, bu yana,
Top düzəldir qarı yığıb.

Xəyalıma qanad verən
Onun hayı, harayıdı.
Mənim qarım çoxdan yağıb,
Bu, balamın qar payıdı.

**1982**

## CƏNUBDA QIŞ

Günüm, çıxma,
Günüm, çıxma!
Gözlərinə dönüm,
Çıxma!

Qar ələnir narın-narın,
Üzlər gülür, gözlər gülür.
Qaraqabaq adamın da
Sifətindən nur tökülür.

Biz həsrətik qış üzünə,
Həmişə bahar görmüşük.
Ay dolanıb, il dolanıb,
İlk dəfədi qar görmüşük.

Kirpiklərin süzülməsin,
Gözlərini qıyma, günüm!
Körpələrin üzündəki
Təbəssümə qıyma, günüm!

**1982**

## CANLI ÜTÜ

Suların üzərinə
Qırış salıbdır külək.
Suların üzərində
Üzür yaşılbaş ördək.

Çay elə bil parçadı,
Ördək sanki ütüdü.
Düşüb çayın üstünə
Çay aşağı şütüdü.

**1977**

## PAYIZIN GÖZ YAŞLARI

Soyuyubdur havalar,
Boş qalıbdır yuvalar.
Yarpaqlar soluxsuyub,
Ağaclar doluxsunub.
Dəyişib libasını
Gör neçə yaşıl budaq.
Ağlayacaq ağaclar,
Göz yaşı yarpaq-yarpaq
Ələnəcək torpağa,
Yarpağa bax, yarpağa.
Süpürəcək onları
Bir süpürgəçi xala.
Dolduraraq xarala
Toplayacaq bir yerə.
Sonra da od vuracaq,
Bir kənarda duracaq.
Ömrün ötən günləri
Düşəcəkdir yadına.
Qızınacaq ağaclar,
Qızınacaq budaqlar,
Qızınacaq böyüklər,
Qızınacaq uşaqlar
Göz yaşının oduna…

**1981**

## CEYRANBATAN GÖLÜNDƏ

Suların qucağında
Gör nə qədər quş üzür.
Elə bil çiçəkləyib
Ceyranbatanın üzü.

Qara-qara xala bax
Bu gölün sinəsində.
Çimərliyə gələrlər
İlin bu vədəsində?!

Üşümürlər görəsən
Onlar qarda, yağışda?!
Adamlar yayda çimir,
Quşlar payızda, qışda.

**1982**

## ATIM, GƏL

Atım gəl, ay atım, gəl!
Qolum, gəl, qanadım, gəl!
Yetir məni yaylağa
Yalmanına yatım gəl.

Atım gəl, ay atım, gəl!
Şeirim gəl, bayatım gəl!
Ötür məni yaylağa,
Muradıma çatım gəl!

Atım gəl, ay atım, gəl!
Dincliyimi atım gəl.
Gətir məni yaylağa,
Billur şehə batım gəl!

**1978**

## DALĞALARLA ÜZ-ÜZƏ

– Dəniz xala, həmişə
Səni doğma bilmişəm.
Yenə ləpə oğlunla
Oynamağa gəlmişəm.

Mən kiçiyəm, sən böyük,
Tayını tap, a dalğa.
Qayıt, kiçik qardaşın
Ləpəni ver qabağa.

– Ləpə qardaşım yatıb,
Gəl deyişək, gülüşək. –
Dalğa cumdu üstümə,
Dedi ki, gəl güləşək.

Alıb çiynimdən bir-bir
Aşırdım dalğaları.
Geri döndüm, dənizə
Tapşırdım dalğaları…

**1977**

## PALID AĞACI

Bir palıd ağacını
Hamar kəssən əgər sən,
Ağacın kötüyündə
Ulduz şəkli görərsən.

Axı bu palıd hara,
Axı bu ulduz hara?
Ulduz bağışlayırlar
Bizdə qəhrəmanlara.

Görərək palıdlarda
Əzəməti, dözümü,
Ona ulduz bəxş edib
Təbiətin özümü?!

**1969**

## GƏZƏN ÇİÇƏK

Pəncərədə bir dibçək,
İçində çoxlu çiçək.
Çiçəklərə su səpir
Balaca qız sevincək.

Çiçəkləri sevən qız
Çiçəkdən də göyçəkdi.
Anası söyləmişkən,
O da gəzən çiçəkdi…

# İŞİ İŞƏ BƏND ELƏ, GÖRƏN DESİN: BAX BELƏ!

## BAL ARISI

Qonur çiçəyə, gülə,
Bal yığır gilə-gilə.
Sancsa da adamları
İstəyirlər xətrini.
Zəhməti bal eləyir
Çiçəklərin ətrini.

**1975**

## OĞLUM GÜNDÜZƏ

Gəz elini, obanı,
Aranlı ol, dağlı ol.
Torpaq səni ucaldar,
Bu torpağa bağlı ol.

Qəlbini çıraq elə,
Nur ver obaya, elə.
Mənim oğlumsan hələ,
Böyü, xalqın oğlu ol!

**1981**

## BAĞBAN

Onun kəsdiyi, ağacın
Xəstə, quru budağıdır.
Qayçı bağbanın əlində
Sanki cərrah bıçağıdır.

**1981**

## TRAKTOR

İşim çoxdu, tələsim,
Çöllərə düşsün səsim.
Yanından keçsəm, dağ da
Əsəcək əsim-əsim.

Kotanımı çəkərəm,
Yerin bağrın sökərəm.
Bərəkətli torpağı
Şumlayaram, əkərəm.

Kotan yerə şum salar,
Atan yerə tum salar.
Səsimi eşidəndə
Yerin qəlbi yumşalar.

Mən işlədikcə, ay dost,
Elin varı bol olar.
Zəhmətlə qazanılan
Çörək şəkər, bal olar.

**1978**

# ARZU

Təmizkar bir qız kimi
Tanıyırıq Arzunu.
Gündə neçə yol silir
Şifonerin tozunu.

Silir döşəməni də,
Yuyur qabı-qacağı.
Deyir: – İşi tək görsə,
Anam yorular axı?!

**1975**

# ŞAXTAÇILAR

Elin sərvəti üçün
Hər əzaba dözdülər.
Nağıllardan gəliblər,
Sanki "kəlləgöz"dülər.

Yerin dərin qatında
Nə gəzir bu çil-çıraq?!
Papaqları üstündə
İşıqlı fonara bax.

Şaxtaçıların işi
Maraqlıdır doğrudan.
Qazıb yerin altını,
Sərvət tapırlar ordan.

**1977**

**EKSKAVATOR**

Çəyirtkə qolu kimi
Əyridir onun qolu.
Didir torpağı, daşı.
Əli elə böyükdür,
Bircə ovcuyla dolur
Özüboşaldan maşın.

**1976**

**BİÇİNÇİLƏR**

Otların arasından
Dəryaz şütüyüb keçir.
Qızmar günəş altında
Biçinçilər ot biçir.

Bir xala su daşıyır
Onlara sənək-sənək.
Yavaş-yavaş əriyir
Allı-güllü biçənək.

Dəryazlar xışıldadır
Otları külək kimi.
Şəfəqlərin altında
Parlayır şimşək kimi.

Yoncaların xoş ətri
Doldurubdur kövşəni.
Necə qəşəng ot çalır,
Görürsənmi Rövşəni?!

O, çox sevir zəhməti,
Gəl açdığı vərə bax.
Atasından öyrənib
Ot biçməyi bu qoçaq.

Dərisi tunc kimidir,
Bərkdir ovcunun içi.
Elə bil işlədikcə
Çoxalır onun gücü.

Otların arasından
Dəryaz şütüyüb keçir.
Qızmar günəş altında
Biçinçilər ot biçir.

**1975**

## TELEFON

Telefona bax,
Neçə gözü var.
Zınqıldayırsa,
Demək, sözü var.

Qulaqları var
Yekə, ipiri.
Biri danışır,
Dinləyir biri…

**1980**

# İŞIĞIN ÖZÜ – UŞAĞIN GÖZÜ

## XƏBƏR VERİN GÜNDÜZƏ

Dağlara gün şığıdı,
Bu ki gün işığıdı?!

Xəbər verin Gündüzə,
Yayılıbdır gün düzə.

Durub üzsün göllərdə,
Durub üzsün güllərdən.

Yol gözləyir düzlər də,
Şehə batsın düzlərdə.

**1976**

## GÜNÜM, ÇIX

Gözləyirəm yolunu,
Günüm, çıx, ay günüm, çıx!
Görüm sənsiz olmasın
Mənim bircə günüm, çıx!

Üstümüzə nur ələ,
Ömrümüzü nur elə.
Hava kimi gərəkdir
Nur obaya, nur elə.

**1978**

## GÜNƏŞ ANA

Aşıb dağın belindən
Günəş gedəndə "işə",
Çiçəklərin, güllərin
Kirpiyindən şeh düşər.

Necə gözəl görünür
Yarpaqları şehli gül.
Anasının dalınca
Ağlayıbdır elə bil.

Nə qədər gül-çiçək var
Yurdumun düzlərində.
Səhər tezdən onların
Şeh gülər gözlərində.

Günəş ana güllərin
Tumarlayar başını.
Sonra silər onların
Gözlərinin yaşını.

**1976**

## BİR OVUC ULDUZ

Bir şimşək kimi
Şığıdı gəmi.
Bizdən göylərə
Salam apardın,
Kosmonavt əmi.
İndi gəminiz
Deyil yaxında.

Doğrudanmı yer
Qarpızcan olur
Ordan baxanda?
Bir xahişim var,
Kosmonavt əmi.
Yerə salmazsan
Onu, eləmi?
Arzularımı
Yerinə yetir.
Yerə dönəndə
Mənə bir ovuc
Ulduz yığ gətir!

**1976**

## İŞIĞIN ADDIMLARI

Mingəçevirdən gələn
İşıq yolu hamardı.
Cərəyan sanki qandı,
Məftillərsə damardı.

İşıq elə qaçır ki,
Ona çatmaz küləklər.
Sanki addımlarıdır
Uca-uca dirəklər.

**1981**

## MONTYOR ƏMİ

İşıq dirəklərinə
Çıxır montyor əmi.
Gör necə də sürətlə
Qalxır montyor əmi?!

Gətirdiyi alətlər
Gərəyidir, gərəyi.
Ayağındakı caynaq
Qucaqlayıb dirəyi.

Hər yan nura qərq olur,
Gör nə qədər işıq var?!
Onun təbəssümüdür
Elə bil bu işıqlar.

**1976**

## AŞAĞIDA ÇİLÇIRAQ, YUXARIDA KƏHKƏŞAN

Bizə mənzil veriblər
Göydələndə keçən il.
Hər gün balkonumuzdan
Seyr edirəm gecəni.

Hər yan nura boyanıb,
Yox zülmətdən bir nişan.
Aşağıda çilçıraq,
Yuxarıda kəhkəşan.

Mənzilmiz yerləşir
Göyün yeddi qatında.
Ulduzlar sayrışırlar
Ayağımın altında.

**1980**

## KİBRİT ÇÖPÜ

Kibrit dənələrinə
Durub diqqətlə baxdım.
Kükürd çöpün başında
Elə bil ki, papaqdı.

Yox, belə papaq olmaz,
Palıdrəngi muncuqdu.
İçində od gizlənən
Sehrli tumurcuqdu.

Kibritin qarasına
Toxundumu yanağı,
Açılacaq, alova
Dönəcək hər yarpağı...

**1981**

## BİZİM KÜÇƏ

Küçəmizin işıqları
Görürsənmi yanır necə?
Qəribədir, gözlərini
Gecə açır bizim küçə.

Azaldıqca gediş-gəliş,
Lal sükuta batır küçə.
Dovşan kimi səhərəcən
Gözüaçıq yatır küçə.

**1975**

# DİL AÇANDA BALALAR, KƏLMƏLƏRİ BAL OLAR

## NƏNƏNİN İLK NƏVƏSİ

Yenə Şamama nənəm
Gəlib yadıma düşdü.
Altı oğul böyüdüb,
Nəvəsi hələ beşdi.

Qızı yoxdu nənəmin,
Böyük oğlu atamdı.
Sual verdi, bilmədim,
Mən nənədən utandım.

Müəllimədir nənəm,
Kəndimizdə dərs deyir.
Darıxmışam yamanca,
Könlüm onu istəyir.

Nə olsun ki, qızam mən,
Yüz oğlun əvəziym.
Mən nənəmin həm qızı,
Həm də ilk nəvəsiyəm.

**1982**

## GÜLZARLA SÖHBƏT

– Gülzar qəşəngdir,
– Gülzar qəşəngdir.
– Gülzar çiçəkdir,
– Gülzar çiçəkdir.
– Üzü yoladır,
– Üzü yoladır.
– Şirin baladır,
– Şirin baladır.
– Lalə kimidir
Onun yanağı.
– Lalə kimidir
Onun yanağı.
– Gülzar pis qızdır…
– Yaxşıyam axı!

**1975**

## SƏHƏR DƏRƏRSƏN

Yatmaz layla çalmasan,
Şeir sevəndir Vüsal.
–Yuxum gəlmir, ay nənə,
Tez ol mənə layla çal!

– Layla çaldım həmişə,
Karvan enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

– Doğrudan gül bitəcək
Yastığımda, nənəcan?
Söylə, bənövşələri
Dərəcəyəm mən haçan?

– Əgər yatsan, yuxunda
Çiçəkləri görərsən.
Onlar gecə bitəcək,
Səhər durub dərərsən.

**1975**

## MEHDİ BABA

Bir gün bağda nəvəsini
İmtahana çəkdi baba:
– Çiçəklərin üzündəki
Bu su nədir?
– Şehdi, baba!
– Yarpaqları xışıldadan
Nədir belə?
– Mehdi, baba!
Razı qaldı nəvəsinin
Cavabından Mehdi baba.

**1982**

## QAYIQLAR

Dənizlərin qoynunda
Üzər nəhəng gəmilər.
Suların üstü ilə
Gəzər qəşəng gəmilər.

Hərəsinin yanında
Neçə-neçə qayıq var.
Gəmi sanki babadır,
Nəvələri qayıqlar.

**1976**

## BALACA RƏSSAM

Gül sözünü yaza bilmir,
Gül çəkməyi bacarır o.
Rəngə batmış əllərilə
Əl çəkməyi bacarır o.

Yarpaq çəkir, ağac çəkir,
Hərəsinə bir rəng seçir.
Xəyalından neçə-neçə
Mənzərələr gəlib keçir.

Hamımızı unudaraq
Bir də gördün gəlib dilə,
Söhbət edir şirin-şirin
Çəkdiyi şəkillər ilə.

Hər rəngin öz çalarını
Öyrənir o asta-asta.
Özü kimi şəkil çəkir
Qızımın çəkdiyi qız da…

**1979**

## LAYLALAR

Anaların dilindən
Süzülüb qatar-qatar,
Laylalar balaların
Yuxusuna bal qatar.

Elə bil ki, buluddur,
Güllərə şeh çiləyər.
İsti olsa havalar,
Dönər sərin küləyə.

Çiçəkdir, anaların
Dodağında açar o.
Hər gecə körpələrin
Yuxusuna uçar o.

**1976**

## ARZULAMALAR

Bənzəyəsən həmişə
Çiçəyə sən, gülə sən.
Ay bala, ömrün boyu
Sevinəsən, güləsən.

Tez-tez çıxasan yola,
Hər kənddə evin ola.
Sevincini, qəmini
Dostlarınla böləsən.

Nurlu mayak olasan,
Elə dayaq olasan.
Çətinliyə düşənin
Köməyinə gələsən.

Dost olasan mərd ilə,
Qalasan el dərdinə.
Ucaldıqca göylərə
Güvənəsən elə sən.

Aydan arı olasan,
Elin yarı olasan.
Xoşbəxtəm, öz işinlə
Ruhumu şad eləsən.

Qismətin gülüş ola,
Saçların gümüş ola.
Ölüm haqdır, öləndə
Kişi kimi öləsən.

**1978**

## OXŞAMA

Ay uşaq, bir qaçsana,
Quş tək qanad açsana!
Beşiyi tərk etsənə,
Quşları hürkütsənə!
Çiçəkləri üzsənə,
Çəmənlərdə gəzsənə!
Qədəmlərin mübarək!
Gül, açılsın gül-çiçək.
Nəğmə desin bulaqlar,
Qoy əl çalsın yarpaqlar.
Daş at, düşsün ulduzlar,
Yığsın oğlanlar, qızlar.
Yüyür, atan şad olsun,
Qəlbim sevinclə dolsun!

**1976**

## SEL APARDI

Asfaltda qız şəkli çəkdim,
Saçı upuzun.
Yağış yağdı, sel apardı
O qəşəng qızı.

**1982**

## BALALAR

– Camışın balası?
– Balaq.
– Keçinin balası?
– Oğlaq.
– Qoyunun balası
– Quzu.
– Ananın balası
– Arzu…

**1975**

## MƏNİM ATAM

Uşaqlar atamın
Başına cəm idi.
Birinə dayıdı,
Birinə əmidi
Mənim atam.

Nənəmə oğuldu,
Əmimə qardaşdı.
Bacıma atadı,
Anama sirdaşdı
Mənim atam.

## RƏNGLİ TELEVİZOR

Bir televizor
Alıbdır atam.
Ona baxanda
Yorulmur adam.

Çəmənlər yaşıl,
Güllər rəngbərəng.
Dənizlər mavi,
Ləpələr qəşəng.

Heyvalar sarı
Güllər əlvandı.
Alçaya baxdım,
Ağzım sulandı.

Alma göstərir,
Bir yanağı ağ,
Biri qırmızı.
Nar da göstərir
İri, qırmızı.

Üzümü gördüm
Həm qara, həm ağ.
Şəhərə baxdım,
Hər yan çil-çıraq.

Televizorum
Belə göstərir.
Hər şey necəsə
Elə göstərir…

**1976**

## BAĞA BAXDIM

Ürəyimdə zəhmətə
Tükənməz maraq oldu.
Yaşıl bir nəğmə yazdım –
Düzənlər varaq oldu.
Tumurcuq
Yarpaq oldu,
Yarpaqlar
Budaq oldu.
Budaqların üstündə
Meyvələr bitraq oldu.
Bağa baxdım,
Bağ oldu…

**1976**

## KAMANÇA KÖKLƏNƏNDƏ

Kamança köklənəndə
Dedi balaca Mirzə:
– Qulağın çəkilməmiş
Niyə baxmırsn sözə?

**1976**

## QIŞ BABA

Göydə şimşəklər çaxdı,
Yeri yaşıl ot aldı.
Keçilər yaza çıxdı,
Yamanlıq sənə qaldı.

**1973**

## QUZU QAYITMADI

Qonaq gediblər şəhərə
Atam, anam, bir də quzum.
Darıxmışam onlar üçün,
Yollarında qalıb gözüm…

Onlar gedəndə bəs nənəm
Niyə məni oyatmayıb?!
Atam gəlib, anam gəlib,
Ancaq quzu qayıtmayıb…

**1981**

## MƏKTƏB YOLUNDA

Baxdım doqquz mərtəbədən
Gül balalar oynaşırlar.
Uşaqlar məktəb yolunda
Qarışqa tək qaynaşırlar.

Onların şən səslərindən
Sükut sınır çilik-çilik.
Qarışqanın yükü dəndi,
Uşaqların yükü bilik.

**1981**

## BALDI, BALDI…

Balama qurban olum,
Könlümü aldı, aldı.
Mehriban qollarını
Boynuma saldı, saldı.

Güldü, olduq sevincək,
Arzumuz açdı çiçək.
Dənizdə qağayı tək
Hey qanad çaldı, çaldı.

Odur eşqimin barı,
Ürəyi aydan arı.
Ana şan, ata arı,
Balasa baldı, baldı.

**1978**

## AYNURA BAX, AYNURA

Aynura bax, Aynura!
Qışqırır: – Ura! Ura!
Hər yan boyanıb nura,
Günəş qalxıb üfüqə.

Pəncərədə dayandı,
Pəncərədən boylandı,
Haray saldı, oyandı
Nərgiz, Lalə, Şəfiqə.

Bal yanında acıdı,
Şəlalələr saçıdı.
O, güllərə bacıdı,
Çiçəklərə rəfiqə.

**1977**

## PƏRVİN OĞLAN

Ayaq açmısan, sanki
Uşaqlıqdan qaçırsan
Bir sevincdi hər sözün,
Təzəcə dil açırsan,
Danış oğlan, din, oğlan!

Gündə bir arpa boyu
Uzanacaq boyun da.
Qol götürüb süzəcək
Ellər sənin toyunda,
Eləmi, Pərvin oğlan?!

**1979**

## SƏN KİMSƏN?

– Ay oğlan, bir bəri gəl!
– Mən ay oğlan deyiləm, –
Cavab verdi hirs ilə.
– Bəs sən kimsən?
– Gurseləm…

**1981**

# BƏNÖVŞƏ, BƏNDƏ DÜŞƏ…

## BAŞMAQDAN ŞİKAYƏT

Hey axtardıq sağı, solu,
Gileyləndi yenə Süsən:
– Mən tapıram, o tapılmır,
Ata, başmağı görürsən!

## ALMA AĞACI

Başına alma düşdü,
Ağladı acı-acı.
Dedi: – Alma elə bil
Yumruğudur ağacın.

Ağac səni də döyər,
Ceyhun, daş alma ələ.
Mən onu daşla vurdum,
O məni alma ilə.

**1976**

## TABAŞİR

Bir az yazdım, kiçildi,
Qalıbdır dolu boyda.
Ata, tabaşir gətir
Qatarın yolu boyda!

Dağ çəkim kiçilməsin,
Bağ çəkim kiçilməsin.
"A" yazım qurtarmasın,
Ha yazım qurtarmasın!…

**1979**

## BƏNÖVŞƏ, BƏNDƏ DÜŞƏ

– Bənövşə,
– Bəndə düşə.
– Bizdən sizə kim düşə?
Gülə-gülə söylədi
Dəstəbaşımız Rövşən:
– Adı gözəl, özü gözəl
Bənövşə.
Yaman şeymiş bu şeytan,
Bəndə düşmək bir yana,
Bəndi qırdı, qopardı.
Üstəlik Nərgizi də
Dəstəmizdən apardı.

**1976**

## SƏNİN HARAN AĞRIYIR?

Barmağımı kəsmişəm,
Ağrısına dözmüşəm.
Tez ol sarı, anacan!
Niyə ufuldayırsan?
Mənim yaram ağrıyır,
Sənin haran ağrıyır?

**1973**

## BİZİM KOMANDA

– Hələ uduzmamışıq,
Pozmarıq bu qaydanı.
Qələbəylə tərk edir
Komandamız meydanı.
– Qapıçısan?
– Yox, əşi!
– Hücumçusan deməli.
– Heç birindən deyiləm.
– Gülməlisən, gülməli.
Onda müdafiəçisən,
Əhsən sənə, ay İnam.
– Yox, mən topdaşıyanam…

**1978**

## QAPIDA KİM DURACAQ?

Üç uşaq çəmənliyə
Qovub gətirdi topu.
Nə futbol oynayardıq,
Əgər olsaydı qapı!
Çarə tapdı Mübarək:
Elçin oldu bir dirək,
Yalçın oldu bir dirək.
Ay can, qapı hazırdı,
Vurmaq olar topu da!
– Dayan, dayan, Mübarək,
Bəs kim dursun qapıda?
– Mən özüm, kim duracaq?!
– Bəs topu kim vuracaq?

**1977**

## CANLI TƏSBEH

Sanki təsbeh sapıdır
Qapımızdakı məftil.
Üstündəki sərçələr
Muncuqlardır elə bil.

Bacıma dedim: – Onlar
Muncuq deyil, quşdular.
İnanmadı sözümə,
Bir daş atdım, uçdular.

**1974**

## AY İNANDIM HA?!

– Gedək çəməndən
Balıq tutaq biz.
– Ay inandım ha,
Hanı çay, dəniz?

– Quyruğu üstdə
Yeriyir ilan.
– Ay inandım ha,
Yalandır, yalan!

– Qayıqlar uçur,
Heç xəbərin var?
– Ay inandım ha,
Belə şey olar?!

– Ayaq açıbdır,
Sən bu dağa bax.
– Ay inandım ha,
Yeriyərmi dağ?!

– Çayda yanğın var,
Gedək, ay Günay.
– Ay inandım ha,
Heç yanarmı çay?!

**1976**

## DƏVƏDƏLLƏYİ

Mənim adımdır
Dəvədəlləyi.
Neyləyir axı
Dəvə dəlləyi?
Çəyirtkəyə də
Çatmayır gücüm.
Əcəb dəlləyəm,
Hanı ülgücüm?!
Beldən yuxarı
Qalxıb dizlərim.
Sanki fənərdir
Donba gözlərim.
Uçdum havaya,
Birdən quş oldum.
Yaşıl otlara
Gəlib qoşuldum.
Qaçdın dalımca
Üstün yaş oldu.
Mən də yaşılam,
Ot da yaşıldı.
Özünü yorma,
Ay dəcəl Qəni.
Yaşıl çəməndə
Tapmazsan məni.

**1977**

## BİR KÖK XORUZ YEMİŞƏM

İnanmırlar sözünə
Gursel edir and-aman:
– Bir kök xoruz yemişəm,
Pipiyindən qan daman.

Gülüşürlər Gurselə,
Deyirlər: – Sən çaqqalsan?!
Qorxmazsanmı həyatdə
Xoruz ilə tək qalsan?

Sənin bağrın yarılar
Banlasa bircə dəfə.
Xoruzu diri-diri
Yemək olar, ay əfəl?

– Niyə olmur, gətirin
Aşırım birini də.
Yamanca xoşum gəlir
Mənim xoruz şirnidən.

**1981**

## YIXILMADIM HA…

Dedim: – Qaçma, yavaş get,
Qaçdı, yerə yıxıldı.
Üzündəki təbəssüm
Bircə anda yox oldu.
Sındırmadı özünü,
Qalxıb çırpdı dizini.

Gülməyim tutdu ona,
Gəlib yanında durdum.
Dedi: – Yıxılmadım ha,
Mən yerə kəllə vurdum.

**1981**

## GƏZMƏK MƏNİ GÖZLƏYİR

Çayını iç arxayın,
Səni qovan ha yoxdur!
Tələsmə, paltonu da
Geyin, hava soyuqdur.

Gursel isə tələsir,
Nə gülməli söz deyir:
– Ata, tez ol, həyətdə
Gəzmək məni gözləyir.

**1981**

## AĞACDA SƏRÇƏ

Sanki tut yarpaqlayıb
Qışın oğlan çağında.
Gör nə qədər sərçə var
Ağacın budağında!

Boz qanadlar altında
Xırda budaqlar itib.
Gursel qışqırır: – Ata,
Ağacda sərçə bitib!

**1981**

## QAZLARIN DƏNİZİ

Özü kiçik olana
Dəryadı gölməçə də.
Bir dəstə qaz çimirdi
Balaca gölməçədə.

Rəna baxdı üzümə,
Gözləri dəniz idi.
Dedi: – Yəqin bura da
Qazların dənizidi.

**1979**

## BİR KÜLƏKLİ HAVADA

Bir küləkli havada
Bağçaya gedəndə biz,
Gülə-gülə söylədi
Bacısına Gülbəniz:

– Mən bağçaya gedirəm,
Görürsənmi, ay Mələk? –
İstəyir ki, məktəbə
Aparsın məni külək…

**1980**

## SƏRÇƏ BALASI

Lovğalanıb demirəm
Havada doğulmuşam.
Çinarın ovcundakı
Yuvada doğulmuşam.

## TÜLKÜ

Ovçu onu qovurdu,
Tülkü qarı sovurdu.
Quyruğuyla süpürdü
Qar üstündən izini.
Tülkü tülkülük edib
Xilas etdi özünü.

**1977**

## DURNA

Necə gizləyim
Mən göz yaşımı?
Dostlarım getdi,
Qatdın başımı.

Öz dəstəmizə
Tez dönəsiyəm.
Böyük təsbehin
Bir dənəsiyəm.

## GÜLLÜ

Pərdəmizin
Üstü güllü.
İstəyir ki,
Bizim Güllü
Əl uzadıb
Dərsin gülü.
Boşa çıxır
Toppuş əli.

Pərdə – çəmən,
Üstündəki
Elə bildi
Güldü Güllü.
Gördü onu
Dərmək olmur,
Öz-özünə
Güldü Güllü…

**1975**

## BİR DİLİM YEMİŞİN NAĞILI

Biri var idi,
Biri yox idi.
Evdə yemiş kəsmişdilər,
Dilimlərin biri yox idi.
Uşaq ola, yemiş ola!
Ana xeyli fikirləşdi:
Dilimi kim yemiş ola?
Harayladı uşaqları,
Dedi: –Yaxına gəlin bir.
Gülzarın yemiş payını
Deyin görüm kim yeyibdir?
Yamanca qızardı Gündüz,
Gah yerə, gah göyə baxdı.
Buludların arasından
Elə bu zaman ay çıxdı.
Tez göstərib anasına
Sarı rəngli para ayı,
Dedi: – Odur, göyə çıxıb
Bacımızın yemiş payı.

## KÖK

Eh, adım olsa da kök,
Arığam, deyiləm kök.
Könlündən keçir məni
Yeyəsən xırda-xırda.
Səsə bostançı gələr
Başlasan xırthaxırta…

**1972**

## VOLEYBOL

Ona atdığım topu
Tez qaytarır üstümə.
Nə maraqlı oyundur,
Yorulsan da bəs demə.

Bu – bir, bu – iki, bu – üç…
Top atdıqca sayıram.
Adam yoxdur, divarla
Voleybol oynayıram.

**1978**

## YARASA

Atam belə deyir ki,
Gecə uçur yarasa.
Bilmirəm qaranlıqda
Necə uçur yarasa?

Deyir: – Gecəquşunun
Qəribə gözləri var
İşıqda görmür ancaq,
Heç belə də göz olar?

**1974**

# ATƏŞBÖCƏYİ

Balaca fənər kimi
Ətrafa işıq saçar.
Görməmişdim heç zaman
Havada alov uça.

Uçdu, uçdu, ay aman,
Qondu ot tayasına.
İndicə kəndimizin
Düşər od tayasına.

Quru otun üstündə
Hey yanır, hey alışır.
Uşaqlar bu alovu
Söndürməyə çalışır.

Düşüb tayanın üstə
Sanki kiçik ulduzdu.
Əl uzatdım mən ona,
Bu işıq ki, bumbuzdu?!

Uşaqlar söylədilər
Bu sehrli çiçəkdi.
Onu tutub gördüm ki,
Adicə bir böcəkdi.

**1977**

## GÖZƏLLİYİN KEŞİYİNDƏ

Çiçəklər çəmən-çəmən,
Qurtarmaz yığmaq ilə.
Yağışlar bulud-bulud,
Tükənməz yağmaq ilə.

Ağaclar uca-uca,
Yamaclar yaşıl-yaşıl.
Qayaların üstündə
Kəkliklər qaqqıldaşır.

Maral buynuzu kimi
Cığırlar şaxəlidir.
Bu yerdə meşəbəyi
Deyirlər Şıxəlidir.

Dayanıb gözəlliyin
Keşiyində nə vaxtdır.
Onu aldatmaq olmaz,
O, həmişə sərvaxtdır.

Kəmərinin üstündə
Patronlar cərgə-cərgə.
Çiynində qoşalülə,
Altında kəhər ürgə.

Dodağında zümzümə
Hərdən gələr dilə o.
Yaşı altmışdan keçib,
Qocalmayıb hələ o.

Keşik çəkər meşəyə,
Bu səfalı guşəyə.
Baltalı adamları
Buraxarmı yaxına?!
Meşə də keşik çəkər
Onun cavanlığına…

**1976**

## QUZEYLƏR

Sanki yazın gəlişindən
Xəbər tutmayıb quzeylər.
Otlar qalıb qar altında,
Quzeydə quzular neylər?!

Ağac gördüm, kölgəsində
Əriməyib hələ də qar.
Budaqları yamyaşıldı,
Dibi qışdır, üstü bahar.

**1980**

## ÇİÇƏKLİ KÖYNƏK

Göyün bulud köynəyinin
Yağış ilməsi söküldü.
Çözələndi o ilmələr,
Dərəyə, düzə töküldü.

Yağış yağmamış çəməndə
Bu qədər çiçək yoxudu.
Torpaq nənə yağış sapdan
Özünə köynək toxudu.

**1982**

## DALĞA QOVUR DALĞANI

Dəniz kükrəyir, daşır,
Dənizdə tufan yatmır.
Dalğa qovur dalğanı,
Dalğa dalğaya çatmır.

Görürsənmi dənizi,
Görürsənmi, ay Süsən?
O qaçan dalğaların
Biri sənsən, biri mən.

## GÖBƏLƏK YAĞIŞI

Damla-damla süzüldü
Buludların telindən, –
Bu nə yaxşı yağışdır!
Çöldə tərpənmək olmur
Göbələyin əlindən, –
O qədər bitiblər ki,
Oğulsan yığ,
yığışdır!

**1981**

## YAZ DUMANI

Dağlara gəldi duman,
Elə bil tüldü duman.
Tüstü kimi tutsa da,
Dərəni, dağı duman,

Tüstü kimi gözümü
Göynətmir axı duman.
Əl ilə tutmaq olmaz
Çuxası boz dumanı.
Nənəm deyir: – Bərəkət
Gətirər yaz dumanı…

**1975**

## HƏKƏRİ

Tarlaların belində
Gümüş bir kəmər kimi.
Yaz olanda qızışar
Dəli bir kəhər kimi.
Buludların göz yaşı,
Dağların alın təri, –
Həkəri.

Quraqlıqla döyüşür,
Dalğaları qoşundur.
Dağ aşağı şütüyür,
Elə bil ki, maşındır,
Nəhəng daşlar təkəri, –
Həkəri.

Ayağı dəyən yerdən
Neçə bitki boy atır.
Laylasının altında
Neçə-neçə kənd yatır.
Oxuduğu nəğmələr
Nəğmələrin şəkəri, –
Həkəri.

**1973**

## YAĞIŞ YAĞIR

Yağış yağır səhərdən,
Sevinir mənim bacım.
Deyir ki, gəlin baxın,
Sanki ağaclar acıb.

Uzanıbdır yağışa
Yarpaqlar qaşıq kimi.
Yağış yağır, ağaclar
Sevinir uşaq kimi…

**1981**

## NAR ÇİÇƏYİ

Qapımızdakı narın
Üstündə var çiçəyi.
Heç bilirsənmi necə
Gözəldi nar çiçəyi?

Dayanıb bir kənardan
Baxanda diqqət ilə,
Nar çiçəyi oxşayır
Qırmızı qərənfilə.

**1975**

## DALĞALI DƏNİZ

Seyr edirəm dənizi,
Dalğalar uca-uca.
Dalğa qanadlarını
Geniş açıb, elə bil
İstəyir dəniz uça.

# “Ətirli düymələr” kitabından

# ÇƏMƏN ÇİÇƏYİ İLƏ, İNSAN ƏMƏYİ İLƏ…

## BİZİM DAĞLAR

Zirvələri ağappaq,
Yamacları çiçəkli.
Dumanları tül kimi,
Buludları şimşəkli.

Bənövşəsi utancaq,
Laləsi “əliqanlı”.
Çeşmələri nəğməli,
Çayları dəliqanlı.

Qoynu qartal yuvalı,
Meşələri fıstıqlı.
Üstü günəş yorğanlı,
Başı bulud yastıqlı…

**1976**

## YAŞIL KÖRPÜ

Tufanda yanı üstə
Bir ağac yıxılıbdır.
Pöhrələrin üstündən
Kölgəsi yox olubdur.

Damarı üzülməyib,
Yarpaqlayıb yerdə o.
Çətin ki, qalxa bilsin
Ayaq üstə bir də o.

Göz yaşı yarpaq-yarpaq,
Bulud kimi dolubdur.
Yıxılıb, çayın üstdə
Yaşıl körpü olubdur.

## ŞİRİN YAĞIŞ

Ağacın qulağında
Gör nə qədər sırğa var.
Bir qara bulud kimi
Dolub uca budaqlar.

Ağacın göz yaşları
Sanki şəkərdi, qənddi.
Əl vursan, tut yağacaq,
Budaqlar himə bənddi…

**1982**

## GÜNƏŞ NƏNƏ

Düzdən uca təpə var,
Təpədən uca dağ var.
Dağdan uca bulud var,
Buluddan uca günəş.
Kainatı başına
Toplayıb qoca günəş.

Əzizdi, mehribandı,
Nur çiləyir hər yana.
Günəş ana işıqdı,
Planetlər pərvanə…

**1985**

## PƏNCƏRƏDƏN BAXAN GÜLLƏR

Evin havası pisdi,
Susur fağır çiçəklər.
Söykəyərək başını
Pəncərə şüşəsinə
Yola baxır çiçəklər.

Xatırlayır çölləri,
Xatırlayır düzləri.
Elə bil ki, yol çəkir
Bu güllərin gözləri.

Günəş öpür onları
Şüşənin o üzündən.
Silir göz yaşlarını
Çiçəklərin gözündən.

Yaxşı ki, insaflıdı,
Qəlbi kövrəkdi şüşə.
Çiçəkləri öpəndə
Mane olmur günəşə…

**1985**

## DƏNİZ NEFTÇİLƏRİ

Çalışır ki, qərq edə
Dəniz estakadanı.
Gücü çatmır qoparsın
Tufan dəmir adanı.

Dalğaların qoynunda
Buruq qazar neftçilər.
Vaxt gələr, o quyular
Fontan vurar, neft çilər.

Dəniz qəhrəmanlara
Gözlərini ağardar.
İnsan bildiyin eylər,
Dalğa başın ağrıdar.

Hey çırpınar, yorular,
Qan-tərə batar dəniz.
Qəhrəman neftçilərin
Dəmir ayaqlarına
Baş qoyub yatar dəniz…

**1985**

## SAAT

Gecə-gündüz işləyir,
Bu nə yaxşı saatdı!
Əqrəblərin hərəsi
Sanki bir köhlən atdı.

–Çıq, çıq…
Bu səs saatın
Nəğməsidir elə bil.
–Çıq, çıq…
Bu çıqqıltılar
Nal səsidir elə bil.

İrəliyə can atır,
Gedir səs sala-sala.
Minib əqrəb atları
Zaman çapır dördnala…

**1982**

## İŞIĞIN YOLU

– Qızım, gördüyün işıq
Sürətlidir yamanca.
Gəlir Mingəçevirdən
Sən göz açıb-yumunca.

Şəhərə gələn kimi
Hər yan çırağban olur.
– Necə gəlir bəs işıq,
Onun da varmı yolu?

– Var, ay qızım, işıqdır
El-obaya yaraşıq.
Düşüb məftil yollara
Bakıya gəlir işıq…

## USTA KÜLƏK

Sahildə dalğalarla
Oynayırdı dünən o.
Bu gün dənizə gedib,
Atasıyla yenə o.

Gözlərinə inanmır,
Hamardı suyun üzü.
Dayanıb heyran-heyran
Seyr eləyir dənizi.

Deyir: – Sanki aynadır,
Ata, bu dənizə bax!
Dalğası xarab olub,
Gedək usta çağıraq.

Allo, allo! Hardadı
Bizim bu usta külək?
Dalğalar xarab olub,
Gəlib düzəltsin gərək…

## ARAZ ÜSTÜNDƏ KÖRPÜ

Əlimin zəhmətinə
Dedi Xuda: – Afərin!
Gözəl bir körpü saldım,
Adı da Xudafərin…

Araz üstündə necə
Kədərli durub gör bir!
Üstündən keçən yoxdu,
Göz dağıdı bu körpü…

O taydan bəri baxıb,
Sən çəkirsən hər gün ah.
Nə ah-uf eləyirsən,
Səndə, məndədir günah…

**1985**

## BƏSİTÇAY SAHİLİNDƏ

Hündürboy ağacları
Görənin gülür üzü.
Bu çinar meşəsini
Salıb təbiət özü…

Suyu gur deyil deyə
Danlamayın Bəsiti.
Sahilində bu qədər
Çinar bitib, bəsidi…

**1985**

## BULDOZER

Döşlük taxıb əyninə,
Bu traktor, ay nənə!

Görürsənmi, kürüyür
Yoldan torpağı, daşı,

Yəqin döşlük geyib ki,
Bulaşmasın üst-başı…

**1976**

## YUN

Qırxdım qoyunu,
Götürdüm yunu.
Aparıb verdim
Nənəmə onu.
Düzəltdi qəşəng,
Yumşaq bir döşək.
Üstündə yatdım
Qırxdığım yunun.
Yuxumda gördüm
Qumral qoyunu…

**1975**

## GÜLLƏR SAKİTLİK SEVİR

Adamın gözü gülür,
Hara baxsan çiçəkdi.
Bu çiçəklər zərifdi,
Bu çiçəklər kövrəkdi.

Onlar qan tək torpağın
Sinəsindən fışqırıb.
Soldurar çiçəkləri
Kobud səs, hay-qışqırıq.

Bu çəmənə baxanın
Arzuları çiçəklər.
Bu çəmənin üzündə
Təbəssümdü çiçəklər.

**1982**

## BALIĞIN PULU

– Bu nədir?
– Balığın puludur.

– Vay! Üstü
Pul ilə doludur.

Ay ata, dənizdə
Dükan var?

Neyləyir bu pulu
Balıqlar?

**1982**

## ANTENA

Hey dartıram, uzanır,
Gör necə uzunsovdu?!
Antenaya baxın bir,
Elə bil ki, tilovdu.

Açıram radionu,
Hər tərəfə səs düşür.
Tilovuma balıq yox,
Mahnı düşür, rəqs düşür…

**1982**

## SEVİNCİMDƏN UÇURAM

Sevincimdən uçuram,
Gül əkmişəm neçə lək.
Hər əlim bir qanaddı,
Hər barmağım bir lələk.

Güvənirəm həmişə
Bu zəhmətkeş əllərə.
Qanad verəcək onlar
Çiçəklərə, güllərə…

**1982**

## PULXIRDALAYAN

Elə həmişə
Yanar gözləri,
Fanar gözləri.
On qəpik atsan,
Gözünü qırpar.
Hər kirpiyindən
Beş qəpik qopar…

**1974**

## SU AVTOMATI

Satıcıdır avtomat,
Satdığı şirin sudur.
Qara pul atan kimi
Ağzını açıb udur…

Sən pul verməsən əgər,
O da su verən deyil.
Ata, bu nağıllarda
Suyun önünü kəsən
Əjdahadır elə bil…

## ATIMIN YERİŞİ YORĞA

Atımın yerişi yorğa,
Minirəm, axır çay kimi.

Kəhərimin alnına bax,
Qaşqası yanır ay kimi.

Atımın yalı buluddu,
Atımın yolu ümiddi.

Atımın ayağı səkil,
Altımda quş kimi səkir…

**1983**

## BƏRGÜŞAD DAŞANDA

Yağış yağır şıdırğı,
Ara vermir bir hovur.
Çay elə bil köhləndi,
Körpü onun cilovu.

Buludların əlində
Yağış sanki qamçıdı.
Köhlən cilov gəmirir,
Səbri bircə damcıdı…

**1983**

## YAŞIL QILINC

Xəbərin var, buğdanın
İçində ot gizlənib?
Üstünə su səpmişəm,
Göyərəcək, gözlə bir!

İçi buğdayla dolu
İri nəlbəkiyə bax! –
Hər buğdanın içindən
Yaşıl bir qılınc kimi
Sıyrılıb ot çıxacaq…

**1985**

## FƏSİLLƏRIN GÖZÜ

Günəş ana gülümsəyir,
Yerin köksündən ot çıxır.
Yazın gözü dumanlıdır,
Yayın gözündən od çıxır…

Meyvələr çoxdan dərilib,
Külək dolanır bağları.
Payızın gözü nəmlidir,
Qışın gözləri ağarıb…

**1985**

## QIZIL XORUZ

Günəş bir qızıl xoruzdur,
O gələndə qaçır gecə.
Səmadakı ulduzları
Dənləyir o bircə-bircə…

Günəş bir qızıl xoruzdur,
Qalxdı üfüqün qaşına.
Çırpıb şəfəq qanadını
Tökdü dağların başına…

**1977**

## ANAM XÖRƏK BİŞİRİR

Mən lövhəyə yazıram
Götürüb tabaşiri:
“İndi yəqin ki, evdə
Anam xörək bişirir”…

Əlim-qolum ağrıyır
Bir cümlə yazanadək.
Dadlı yemək yol gəlir
Bazardan qazanadək…

Çox çətin yazılırsa,
Əgər bişirmək sözü,
Ondan yüz qat çətindir
Xörək bişirmək özü…

**1985**

## OT BİÇINİ

Biçənək sanki dənizdi,
Yaşıl otlar dalğalardı.
Biçinçilərin əlində
Hər kərənti bir avardı.

Dəryazlar işə düşən tək
Elə bil qayıqlar üzdü.
Ot layları katerlərin
Arxasında qalan izdi…

**1982**

## NƏHƏNG KARUSEL

Günəş görünən kimi
Dərə-təpə nurlanır.
Yer –
günəşin telindən
Asılan karuseldi,
Fırlandıqca fırlanır…

**1985**

## ARABA

Qızınırıq qışda biz
Ağacların oduna.
Ay araba, araba,
Get meşəyə oduna.

Tez elə, uşaqların
Yerə salma sözünü.
Əgər əliboş dönsən,
Yandırarıq özünü…

**1982**

## ƏTİRLİ DÜYMƏLƏR

Üstüm-başım şeh oldu
Keçəndə biçənəkdən.
Çöllər yaşıl don geyib,
Düymələri çiçəkdən…

**1976**

## PAYIZDA

Bir lətifə danış bizə,
Qoy doyunca gülək, nənə!
Toxumları dağıt düzə,
Yollar boyu gül ək, nənə!

Hürkütməyin turacları,
Yuxu tutub yamacları.
Soyundurub ağacları,
Layla çalır külək nənə…

**1981**

## ZƏHMƏT ÖMRÜN NURUDU

Ot bitər, olsa yağmır,
Nə vaxtdı yağmır, yağmır…

Bircə ağac da sən ək,
Su daşı sənək-sənək…

Yer göydən yağış umur,
Gözləyək yağışımı?!

Bağda hər şey quruyar,
Sən getsən bu yerişlə.

Zəhmət ömrün nurudur,
Dayanma, yeri işlə!

**1984**

## SƏBƏB

– Görürsən, bu stulu
Mən düzəltmişəm, ata.
Birini də düzəlt görüm.
– Düzəldə bilmərəm ta!

Soruşdum: – Elə niyə?
Dönüb üzümə baxdı:
– Axı mənim dostlarım
İndi yanımda yoxdu?!

**1984**

## MƏNİM İSTİ KÜLƏYİM

Bezdik daha
Qardan, buzdan.
Xəbər gətir
Bizə yazdan!

Mənim isti
Küləyim, əs!
Bahar gəlir,
Gülməyim bəs?!

Qanadında
Ruzu gətir,
Qışı apar,
Yazı gətir!

**1985**

## BUĞDA

Buğda səpdim, ot bitdi,
Buğda hara, ot hara?!
Qoymadım ki, zəmidə
Kimsə qoyun otara.

Buğdadan cücərən ot
Uzaqlaşdı əslindən.
Özünü axtarırdı
O, həyatda, əslində…

Səhər yeli çölləri
Yuxusundan oyatdı.
Ay dolandı, zəmilər
Qarış-qarış boy atdı.

Yaşıl otlar saraldı,
Sünbüllər tutdular dən.
Buğda döndü əslinə,
Taxıl oldu yenidən…

**1983**

## ƏGƏR

Baxıb qurumuş ağaca
Dilə gəlir, oğlum deyir:
– Ata, ağac ölsə əgər,
Ona qəbir lazım deyil…

## MAŞA

Qarışdırır ocağı,
Alovdan qorxan deyil.
Od içindən köz çəkir,
Kəlbətindir elə bil.

Közdən bərk-bərk yapışan
Barmaqları qoşadı.
Belə kəlbətin olmaz,
Görmürsən, bu maşadı.

Həyat özü istəyib
Bu "dəmir əl"i bizdən.
Maşanı yaratmışıq,
Od götürmək istəsək,
Əl olsun əlimizdə.

**1984**

## YORĞUNSAN, MİN TƏRKİMƏ

– Qamçısı qızıl şimşək,
Köhləni yel qanadlı.

Piyadaya sataşma,
Kimsən axı, ay atlı?!

– Nə borcuna, hər kiməm,
Yorğunsan, min tərkimə!

– Atını sür get kəsə,
Tanımadığım kəsə

Necə edim ərki mən?
Minəmmərəm tərkinə…

**1984**

## BUZQIRAN GƏMİ

Şimalın sərt şaxtası
Dənizlərə buz qatıb.
Kəsə bilməz yolunu
Qalın-qalın buz qatı.

Uca buz dağlarının
Yanından gəlib keçir.
Elə bil qızmar şişdir,
Buzları dəlib keçir.

Üzüb getməyə nə var
Suları yara-yara? –
Üzür buzqıran gəmi
Buzları qıra-qıra…

**1977**

## QƏFƏSDƏ TƏK QALAN BÜLBÜL

Geniş dünya sanırdı
Sarı bülbül qəfəsi.
Yanında dostu vardı,
Ucalırdı nəğməsi.

Elə ki, dostu öldü,
Qəfəsdə qaldı tənha.
Unutdu nəğməsini,
Cəh-cəh vurmadı daha.

Mən bülbülün önünə
Kiçik bir güzgü tutdum.
O, öz əksinə baxıb,
Təkliyini unutdu…

**1985**

## NİGAR

Günəş çıxır üfüqdən,
Hər yana nur ələyir.
Pəncərədən boylanıb,
Nigara əl eləyir.

Şəfəqlərin altında
Gülümsəyir çiçəklər.
– Nigar, tez ol, çıx çölə,
Çəmənlərdən çiçək dər!

**1985**

## ƏSKİK OLMASIN

Çəkdiyi şəkillərin
Hamısının yanında,
Günəş şəkli çəkir o,
Həvəsə bax sən onda!

Dedim ki, günəşi poz,
Dedi:
– Səndən küsdüm mən.
Günəş əskik olmasın
Evimizin üstündən!

**1985**

## SABUN

Təmizləyir əl-üzü,
Səsi çıxmır, kiriyir.
İşlədikcə kiçilir,
İşlədikcə əriyir…

Əllərimi yuyuram,
Aparır yağı, tozu.
Elə bil ki, pozandır,
Sabun mazutu pozur,
Sabun palçığı pozur…

**1985**

## KİMİNDİ

– Ot kimindi?
– Biçənin.
– Süd kimindi?
– İçənin.
– Ad kimindi?
– Dinənin.
– At kimindi?
– Minənin.
– Köz kimindi?
– Yananın.
– Söz kimindi?
– Qananın.

**1985**

# UKRAYNADA KEÇƏN GÜNLƏR

## UKRAYNA SƏFƏRİ

Ukraynaya gəlmək üçün
Təyyarəyə mindi Gursel.
Çerkassıya çatan kimi
Dneprdə çimdi Gursel.

Söz titrəyir dodağında
Qan qalmayıb yanağında,
Əsir axşam sazağında,
Elə bil ki, simdi Gursel.

Yol gəlmisən, bir az dincəl,
Eşidirmi heç bu dəcəl?
Bir saatın içindəcə
Hamı bildi kimdi Gursel.

**1983**

## SOKİRNO

Uçub gətirməsəydin
Məni, gümüş qanadlım,
Nə bilərdim dünyada
Yer var Sokirno adlı.

Gündüzlər günəş gülür,
Gecə göydən baxır Ay.
Bir tərəfi meşədi,
Bir tərəfi axar çay.

Gözlərim güclə seçir
Adamları o tayda.
Bilməzdim ki, dünyada
Çay var imiş bu boyda.

Elə bil suların da
Burda ayrıdı rəngi.
Balıq tutan nə qədər,
Avar çəkən, çimən kim…

Qoşulub uşaqlara
Oynayıram, gülürəm.
Nədənsə Sokirnonu
Doğma kəndim bilirəm.

Sevinirəm, mən bura
Boş yerə gəlməmişəm.
Nə qədər dostum varmış
Bu kənddə – bilməmişəm…

**1983**

## SOKİRNODA KÜLƏK

Görmüsənmi Ukraynada
Sən küləyin qalxdığını?
Yalnız onda hiss edirsən
Dineprin axdığını.

Oturmayın otaqda siz,
Bu meşədə çıxıb gəzin!
Hər küknar bir yaşıl simdi,
Külək çalır həzin-həzin…

**1983**

## SOKİRNODA SƏHƏR

Dumana bax, dumana,
Yüksəlir göyə sudan.
Hava ki isti deyil,
Buğ qalxır niyə sudan?

Günəş çıxıb təzəcə,
Adamlar hələ yatıb.
Sanki kimsə Dneprin
Altında ocaq çatıb…

**1983**

## KÜKNAR MEŞƏSİ

Ağaca bax, ağaca,
Gövdəsi dümdüz, uca.

Boya verib küknarlar,
İnanmırsan yaxın gəl.

Budaqları doğrayıb
Sanki sehrli bir əl.

Bilirsinizmi niyə
Belə olur, uşaqlar?

Quruyub yerə düşür
Gün görməyən budaqlar…

**1983**

## KÜKNAR MEŞƏSİNDƏ YAĞIŞ

Ağaca bax, ağaca
Boy atmağa zirəkdi.
Qolu yox, qanadı yox,
Elə bil ki, dirəkdi…

Hərəsinin başında
Beş-altı kiçik budaq.
Çətindi bu meşədə
Yağışdan daldalanmaq…

**1983**

## KATER NƏYƏ BƏNZƏYİR

Meşədən çıxan kimi
Gözəl bir çay görsəndi.
Dnepr sanki şüşə,
Kater şüşəkəsəndi.

Nərə çəkib qaçır o,
Elə bil ki, pələngdi.
Yox-yox, ipi qırılmış
Böyük bir çərpələngdi.

Arxasında iz qoyur,
Diqqətlə bax sən də bir.
Ləpələri yonur o,
Elə bil ki, rəndədir…

**1983**

## MAVİ KÜÇƏ

Dayanıb bir tərəfdə
Oğlum Dneprə baxır.
Deyir ki, bilmək olmur
Bu çay hayana axır.

Üzü güzgü tək hamar,
Gör necədi Dnepr?
Sanki asfalt salınmış
Bir küçədi Dnepr.

Belə çay görməmişdim,
Enli imiş necə də! –
Bax, gəmilər, katerlər
Şütüyür bu küçədə…

**1983**

## HEYKƏL OLUM

Dneprin sahilində
Ora-bura qaçır oğlum.
Deyir: – Ata, ayağımı
Yerə basdır, heykəl olum…

**1983**

## KÜKNARIN NƏ VECİNƏ

Küknarın nə vecinə
Bahar oldu, qış oldu? –
İlin bütün fəslində
Budaqları yaşıldı…

**1983**
**Kiyev, Çerkassı, Sokirno**

# AĞACIN KÖKÜ TORPAQDA, İNSANIN KÖKÜ ELDƏDİ…

## İKİ AĞAC

Qubadlı dərədədi,
Əyin dağın döşündə.
Baş açmıram doğrusu,
Təbiətin işindən…

Burda tut sovulanda,
Əyində təzə dəyir.
Budaqlar arasında
Ağarır, gözə dəyir.

Gözlərimlə gördüyüm
Yadımdan çıxan deyil.
İki ağac əkmişdi
Yaqub babam keçən il –

Birini Qubadlıda,
Birini də Əyində.
Ağaclar ikisi də
Əkilmişdi bir gündə.

Əyində əkdiyimiz
Boy atıb bir balaca,
Qubadlıda əkilən
Olubdur məndən uca.

Nədir bunun səbəbi? –
Mən babamdan soranda,
Dedi ki, Bəhruz, ağac
Tez böyüyür aranda…

**1984**

## YAŞIL YARPAQLA SARI YARPAĞIN SÖHBƏTİ

– Dostlarım saralıb düşdü,
Mənsə hələ yamyaşılam.
Sevincimdən az qalıram
Qanadlanam, bir quş olam.

– Əvvəl-axır düşəcəksən,
Gör hava necə soyuqdu?!
Lovğalanma, yarpaq üçün
Qışdan o yana yol yoxdu…

**1984**

## KÖTÜK

Elə düşünmə ki,
qocadır kötük,
İstəsən, sən ondan
dəyanət istə.
Alçaq boyuyla da
ucadır kötük,
Neçə şiv doğranar
bir kötük üstə.

Ömrünün o ötən,
itən çağını
Necə ki, lazımdır,
yaşayıbdır o.
Bir ağac ömrünün
ağırlığını
Bir zaman çiynində
daşıyıbdır o.

Kiçik zoğlar çıxıb
hər tərəfindən,
Bürüyüb ətrafı
yaşıl bir örtük.
Elə bil babadır,
nəvələrini
Toplayıb başına
qocaman kötük…

**1969**

## YADİGAR
## NAĞIL

Bu nəvə şirin nəvə,
Bu nağıl şirin nağıl…
Nənə xəyala gedib,
Danışır Şirin nağıl…

Bu xəyal şirin xəyal,
Bu nənə qoca nənə…
Sevincindən az qalır
Quş olub uça nənə…

Bu nənə bir bulaqdı,
Söz axır sinəsindən.
Bu nağıl yadigardır
Nənəyə nənəsindən.

Bu nənə oğrun-oğrun
Qoyur göz nəvəsinə.
Bu nəvə bu nənənin
Balı, qəndi, noğulu.

Bu nəvə danışacaq
Sabah öz nəvəsinə
Nənədən öyrəndiyi
Bu yadigar nağılı…

## ARXEOLOQ

Uzaq yeri yaxın elə,
Babalardan soraq gətir.
Qazaq yeri, üzə çıxsın
Tariximiz sətir-sətir…

Düşünəndə ayıq olaq,
Oyaq olaq, arxeoloq.
İşimizlə elimizə
Dayaq olaq, arxa olaq…

**1985**

## NƏ ÜÇÜN?

– Ay ata, ay ata,
Gəl ağaca bax! –
Bir ucu yarpaqdı,
Bir ucu torpaq.

– Yarpaqlar toxumdu,
Oğlum, elə bil,
Səpilir torpağa,
Bitəcək bir gün.

– Ay ata, yarpaqlar
Torpaqda deyil,
Ağacın başında
Bitir nə üçün?!

**1984**

## XOŞ GƏLMİSƏN

Bir ağacı çıxarıb
Payız vaxtı meşədən,
Gətirib bağımızda
Əkib suvarmışam mən.

Yuxuludu bu ağac,
Xəbəri yox xəbərdən.
Xəbəri yox qoynunda
Uyuduğu şəhərdən.

Yaz gəldi, o ağacın
Açıldı yarpaq gözü.
Xoş gəlmisən sən bizim
Şəhərə, meşə qızı!

**1985**

## AĞ SAÇIN YOLU

Babanın saçı
Qar tək dümağdı.
Nəvəsi ona
Həsrətlə baxdı:

– Mənim başıma,
Söylə, babacan,
Gümüşü saçlar
Gələcək haçan?

Öpdü nəvənin
Qara saçından,
Dedi: – Bunların
O biri ucunda
Ağ saç var,
oğlum!
Uzundur hələ
Onların yolu…

Keçib gələcək
Çayların üstdən,
İllərin üstdən,
Ayların üstdən…

Elə bilmə ki,
Dincəlir onlar,
Tələsmə, oğlum,
Yol gəlir onlar…

**1981**

## BU NƏ AĞACIDIR

– Koğanı al, budağı əy!
– Gücüm çatmaz, əyəmmərəm!

– Pərvin, bu nə ağacıdır?
– Bar verməsə, deyəmmərəm.

Üstündə nar bitsə, nardı,
Armud bitsə, o, armuddu.

Gilənar bitsə, gilənar,
Tut da bitsə, yəqin tutdu…

…Qulaq asdı bu sözlərə,
Təranəni gülmək tutdu…

**1985**

## ŞƏKİL

– Ata, bu şəkil kimdi?
– Oğul, mənim atamdı.
Gursel sanki verdiyi
Bu sualdan utandı.

Bilmədim ki, bu sözlər
Ağlına gəldi hardan:
– Kaş baba şəkil olub,
Baxmayaydı divardan.

**1985**

## ANA-BALA SÖHBƏTİ

Anasını görəndə
Körpə quşcuğaz dindi:
– Ana, necə qaytarım
Sənin borcunu indi?

– Narahat olma, bala,
Belə qurulub həyat.
Borcunu vermək üçün
Yuva qur, bala çıxart.

**1975**

## ZİRVƏDƏ ÖLƏN CÜCƏ

Dedilər ki, zirvədə
Bir cücənin tükü var.
Qohumu, əqrabası
Öyünürdü o ki var…

Deyirdilər: – Min əhsən
Bu hünərə, bu gücə.
…Qartalın caynağında
Dağa qalxmışdı cücə…

**1974**

## ƏYİN

Yuxarıya maşın çıxmaz,
Yolda dağ var, yolu əyin.
Biz sallanaq Çayzəmiyə,
Sağ tərəfdə qalsın Əyin.

Bu dağların ətəyində
Nə qədər toy-düyün olub…
Bura çatcaq, yol "əyilir",
Bəlkə elə buna görə
Kəndin adı Əyin olub?!

**1984**

## ÇİÇƏK ÇİÇƏK YIĞANDA

Çiçək yığırdı çiçək,
Deyirdi öz-özünə:
– Gül güldü, çiçək çiçək.
Çiçəyin bu sözünə
Gül güldü, gözlərindən
Şeh axdı çiçək-çiçək…

**1977**

## KÜLƏK

Nazik şivləri
Yelləyib bərk-bərk,
Hay-haray salır
Bayırda külək.

Qaşı görünmür,
Gözü görünmür.
İşi görünür,
Özü görünmür…

**1975**

## DÜNYANIN ƏN GÖZƏL YERİ

Quruldayırdı Qurbağa:
– Bura gəlin, bura gəlin!
Dünyanın ən gözəl yeri
Bataqlıqdı, bilin, bilin!

Acıqlandı ona Bülbül:
– Danışanda sözünü bil!
Sən vurğunsan bataqlığa,
Gərək biz də bataq lığa?!

**1984**

## YAĞIŞ

Səpilib göy çəmənə dindi yağış,
Nə şirin nəğmə deyir indi yağış!

Eşidir şən səsini çöllər onun,
Dinləyir nəğməsini güllər onun.

Yağışın qüdrətinə mən bələdəm,
Bir dənin ömrü yaşar hər gilədə.

Bərəkətdir, süzülür torpağa o,
Can verir hər gülə, hər yarpağa o.

**1976**

## ULDUZ ÇİÇƏYİ

Balkonda, gül qabında
Gül bitib öz-özünə.
Çiçəyi salxım-salxım –
İnanmazsan gözünə…

Heç kəsin xəbəri yox,
Kimdir bu gülü əkən?
Sərçənin dimdiyində
Gəlib toxumu bəlkə?!

Rəngi qızılgül kimi,
Ləçəyi sarmaşıq tək.
Gündüz onlar yumulur,
Açılır axşam düşcək…

Qəlbimizə nur saçır
Balaca bir gül kolu.
O, bir parça səmadı,
Üstü ulduzla dolu…

Bu gülə baxıb deyir
Oğlum gözündə maraq:
– Ata, bunun adını
Ulduz çiçəyi qoyaq!

**1984**

## SAKSAUL

Su içməz saksaul,
Yaşayar səhrada.
Qumların içində
O, yaşıl bir ada.

Səhranı bürüyər
Saksaul.
Su versən quruyar
Saksaul…

**1975**

## BURDA BİR XIRMAN

"Burda bir xırman,
İçində dovşan.
Bu tutdu,
Bu kəsdi,
Bu bişirdi,
Bu yedi…"
Gursel baxdı üzümə,
Sözümü kəsib, dedi:
– Zəhmət çəkən, yeyən kim? –
Bunun iştahına bax!
Yaman qarınquluymuş,
Ata, bu kiçik barmaq.

**1984**

## DƏRİN – DAYAZ

Arx bulandı, qurbağa
Gircək onun içinə.
Tez bulanar dayaz su,
Dərinin nə vecinə?!

Gecə şaxta olacaq,
Yenə hava ayazdı.
Dərin çay buz bağlamaz,
Donubsa, o dayazdı.

**1982**

## SU

Dayanmıram yerimdə,
Hey axıram, axıram.
Ağacın kökləriylə
Budaqlara qalxıram.

Torpağın sinəsinə
Axıram hopa-hopa.
Ayağım dəyən yerdən
Gül qalxır topa-topa.

**1978**

## SƏRÇƏLƏR

Səpdiyim dəni
Yeyib dirçələr,
Qarın içində
Gəzən sərçələr.

Eşələnərlər
Belədən-belə.
Ayaqları da
Yalındır hələ…

Əynimdə palto
Üşüyürəm mən.
Bəs bu sərçələr
Üşümür görən?!

**1976**

## ÇAYLAQ DAŞI

Sahildə daş var nə qədər,
Hünərin var say onları.
Hamısı necə hamardı,
Rəndələyib çay onları.

Gör nə qədər daş yonulub,
Ovulub, çıxıb sahilə.
Qum – daşların yonqarıdı,
Çay yonub yığıb sahilə…

**1982**

## İYDƏ

Yarpağı bozdur
Yovşan rəngi tək.
Onun saçını
Darayır külək.

O yan-bu yana
Əyilir iydə.
Bir az bənzəyir
Salxım söyüdə.

Kəhraba kimi
Meyvələri var.
Onu həvəslə
Yığır uşaqlar.

Dəymişini dər,
Gözəldir tamı.
Kal-kal yeyəndə
Boğur adamı.

Ağac olsa da,
Ətirdə, iydə
Güllə, çiçəklə
Yarışar iydə…

**1976**

## ÇARDAXLININ BULAQLARI

Bulaqların gözündə
Sanki yaş giləlanib.
Cam bulağın daş ovcu
Nəğməylə siləlanib…

Yaşıl bir abidədir
Çeşmə üstdə hər ağac.
Bir bulağı Pəyhandı,
Bir bulağı Qarağac.

Bir bulağı Ağsudu,
Bir bulağı Qısraqdı…
Çardaxlının suyundan
Kim içibsə, qıvraqdı…

**1982**

## ANA VƏTƏN

Gündüz şeir oxuyur:
"Bizi xoşbəxt eləyən
Ana vətənimizdi…"
Gursel soruşur:
– Ata,
Ana vətənimizdi?

**1984**

## QIŞ

Şaxta soyuducunu
İşə salıb elə bil.
Göllərin üzərinə
Şüşə salıb elə bil.

Sanki qaymaqlayıbdır,
Seyr elə buzlu suyu.
Toxunma, əlin donar,
Qaymağı buzdu suyun…

**1976**

## XİYAR TAĞI

Bir xiyar tağı gördüm
Bostana gircək dünən.
Xiyarlar balacaydı,
Qıymadım ki, dərim mən.

Tağ elə bil toyuqdur,
Gəl sən də bax, ay ana.
Yığıb cücələrini
Qanadının altına…

**1973**

## SAZIN NƏBZİ

Elə bil ki, damardı
Telli sazın hər simi.
Onların içi ilə
Nəğmə axır qan kimi.

Biləyindən yapışdın,
Oxuyur, qulaq asın.
Barmağımın altında
Nəbzi döyünür sazın…

**1982**

## QALXAN KİMİ

Şaxta at oynadanda
Soyuqdan buz bağlar su.
Donan suyun üzüdü,
Buz altında çağlar su.

Balığın nə vecinə
Qışın şaxtası, qarı?
Suyun üzü özünü
Şaxtaya qalxan edib,
Qoruyur balıqları…

**1982**

## ALAQ VƏ BALAQ

Bostanın ortasına
Buraxmışam balağı, –
Mənə kömək eləsin,
Gedib yesin alağı.

Babam deyir: –Ay dəcəl,
Korlamısan aləmi.
Alaq qalıb kənarda,
Balaq yeyib kələmi…

**1982**

## YARPAQ DÜŞƏSİ İDİ

Xəzan gəldi bağlara,
Soldu yarpaqlar, güllər.
Dərindən köks ötürüb,
Nəğmə oxudu yellər…

Tikanın nə vecinə,
Nə oldu, gülə oldu.
Yarpaq düşəsi idi,
Bəhanə külək oldu…

## HARDAN BİLİR?

– Ata, niyə saralıb
Ağacların yarpağı?
– Nə var bunu bilməyə,
Oğlum, payızdır axı?!

Geyib sarı donunu
Yenə düzlər, yamaclar…
– Payızın gəldiyini
Hardan bilir ağaclar?

**1982**

## ÇİÇƏK AÇILIBSA

Çiçək açılıbsa,
Demək bahardı.
Məhəbbət çiçəkdi,
Övladsa bardı…

Otlar boy atarmı
Çisəkləməsə?!
Ağac bar verərmi
Çiçəkləməsə?!

Heç yağış yağarmı
Bulud dolmasa?!
Yaşamaq olarmı
Ümid olmasa?!

**1985**

## PƏRDƏNİ ÇƏK

Günəşə bax, günəşə,
Bizə baxmaqdan doymur.
Səhər düşür üstümə,
Bizi yatmağa qoymur…

Anacan, pərdəni çək,
Evə qoyma bax onu.
İstisi əridəcək
Gözümdəki yuxunu..

**1985**

## DUZLU SÖHBƏT

Anam deyir: – Qonşumuzun
Yaman duzlu söhbəti var
Ona görə el içində
Onun belə hörməti var.
Ata, axı bu qonşumuz,
Necə səpir söhbətə duz?

# HAMISI GÖYÇƏK BALALAR, KƏLMƏSİ ÇİÇƏK BALALAR

## TELEFON SÖHBƏTİ

– Alo! Kimdi?
– Günaydı.
– Günay bala,
Günaydın!
Niyə kəsdin səsini,
Günay, danış,
Günay, din!
– Əmi, günaydın nədi?
– Bə bilmirsən?
Salamdı.
– Hə, indi başa düşdüm,
Təranəyə salam de!

**1984**

## BİBƏR

Nə vaxtsa bibər yeyib,
Ağzında qalıb dadı.
Ona bibər göstərib
Soruşdum:
– Bunun adı
Nədir? –
Bilirsənmi sən?
Dedi:
– Bilirəm, ancaq
Demərəm…

– Niyə?
– Desəm,
Ağzım acı olacaq…

**1983**

## NAZİM ŞƏKİL ÇƏKİR

Çəkdiyim şəkillər
Necə qəşəngdi!
– Bu nədi?
– Qəfəsdi.
– Bəs bu?
– Pələngdi.
Sanki qəzəblənib,
Aytən, bax ona,
Səni parçalayar,
Gəlmə yaxına!
Əgər qorxursansa,
Fırçanı alım,
Bu saat mən onu
Qəfəsə salım.

**1983**

## AY QARA MİLÇƏK

Şirəyə bulanıbdır
Üzü, gözü, çənəsi.
Günelə baxıb gülür,
Belə deyir nənəsi:

– Günel yaraşıqlıdır,
Qəndə bulaşıqlıdır.
Ay qara milçək,
Güneldən əl çək!

**1984**

## SƏN MƏN BOYDA OLANDA

– Söylə görüm, atacan,
Doğulmusan sən haçan?
– Oğlum, mən doğulanda
Çöllər, düzlər qar idi.
– Mən haçan doğulmuşam?
– Onda ilk bahar idi…
Gursel getdi xəyala,
Sakit oldu, kiridi.
Birdən soruşdu: – Ata,
Sən mən boyda olanda
Neçə yaşın var idi?

**1984**

## NEÇƏ ALMISAN

– Gündüz, neçə almısan?
– Ata, iki beşim var.
– Qızım, bəs sən?
–Mən də beş, –
Deyib, sevinir Gülzar.
Həsrətlə baxır Gursel
Gündüz ilə Gülzara…
Çağırıram onu da:
– A cumbulu, gəl bura!

Bəs sən neçə almısan? –
Beş almısan, ya iki?
Ağlamsınıb söyləyir:
– Mənim çantam yoxdu ki!…

**1982**

## ÇAY İÇƏNDƏ

Çay içirik, üzümüzə
Gursel baxır maddım-maddım.
Çarpayıdan düşüb gəlir
Yanımıza addım-addım.
Keçir sola, keçir sağa.
– Axşam çay olmaz uşağa!
Ağlamsınıb bizə baxır:
– Ana, mən xəstəyəm axı!

**1981**

## ŞƏKİLÇİ TURAL

Taxtanı tutub
Fotoaparat tək,
Şəkilçəkənəm, –
Deyir sevincək.

Günel, bir azca
Kənara çəkil.
Saçını düzəlt,
Şəklini çəkim!

**1982**

## TOPUM

Faiqəm mən, Faiqəm,
Təriflərə layiqəm.
Deyirlər ki, dəcələm,
Vaxtım hanı dincələm?!
– Mənim tək qaçan olmaz, –
Lovğa-lovğa deyirdi.
Topa çata bilmədi,
Yüyürdü, ha yüyürdü!
Özünü sındırmadı,
Çoxbilmişdir yamanca.
Söylədi ki, bu topun
Ayaqları yox qaça,
Qanadları yox uça!
Təpiyimə bənd imiş,
Qaçıb getdi gözümdən.
Gördünüz, çatammadım
Öz zərbəmə özüm də…

**1978**

## ÖTÜŞMƏ

Maşın sanki köhləndi,
Buraxıblar başını.
İşıq arxadan düşcək,
Kölgə keçir maşını…

Sürücümüz ustadır,
Tanıyır hər döngəni.
İşıq öndən düşəndə
Maşın keçir kölgəni…

İşıqlar gah  arxadan,
Gah da qabaqdan düşür.
Avtobusla kölgəsi
Elə bil ki, ötüşür…

## ATANIN GÖZLƏRİNDƏ

Gülzar ağ geyinibdir,
Bənzəyir göyərçinə.
Qızım diqqətlə baxır
Gözlərimin içinə.

Birdən dillənir Gülzar
Onu oxşayanda mən:
– Ata, sənin gözündə
Gülzar var e, görürsən?

## TROLLEYBUS

Gördüm baxır təəccüblə,
Suala tutdum oğlanı:
– Söylə görüm trolleybus
Niyə bu xəttə bağlanıb?

O baxdı üzümə tərs-tərs,
Sonra güldü xısın-xısın:
– Bağlayıblar, yoldan çıxıb,
Adamları tapdamasın.

**1984**

# BU OĞLANIN ADI GURSEL

Bu oğlanın adı Gursel,
Özü təzə, adı təzə.
Bu oğlanın gəlişiylə
Bahar gəlib evimizə.

Bu oğlanın adı Gursel,
Selə bənzər səsi, ünü.
Bir cüt tumurcuq gözünü
Açıb baharın ilk günü.

Bu oğlanın adı Gursel,
İlk baharın sirdaşıdı.
Gülzar onun bacısıdı,
Gündüz onun qardaşıdı.

Bu oğlanın adı Gursel,
Dodağı gül ləçəkləri.
Gəlişiylə ətirləndi
Arzumuzun çiçəkləri.

Bu oğlanın adı Gursel,
Yaranıb yaz yağışından.
Dağ qarı tək selə dönüb
Yaz gününün baxışından.

Bu oğlanın adı Gursel,
Sevincimiz bir sel olub.
Məhəbbətim yaz yağışı,
Yağıb, yağıb, Gursel olub…

**1979**

## CAVAB

Onu danışdırmaqçın
Atayla ana hərdən
Deyirlər: – Gursel bala,
Kimi çox istəyirsən?

Elə cavab verir ki,
İnciməsin heç hansı:
– Mən atamın oğluyam,
Anamınsa balası.

**1980**

## AY

Aysel Aya
baxıb, baxıb,
Belə deyir:
– Onu göyə
kim buraxıb?

**1982**

## LENTƏ YAZILMIŞ YUXU

Gursel yuxudan durcaq
Ondan soruşdum ki, mən:
– Ay mənim cırtdan balam,
Yuxuda nə görmüsən?

– Gördüyüm yuxuların
Yadımda qalmır çoxu.
Onları bircə-bircə
Necə danışım axı?

Ay ata, gecə düşcək,
Gəl mənim yanımda dur.
Yuxumu yazsın deyə
Sən maqnitafonu qur.

İşləsin səhərəcən,
Sübh tezdən düyməni bas.
Maqnitafon danışsın,
Sən yuxuma qulaq as…

**1984**

## XORUZ, OXUMA!

İşıqlansa da,
Yoxdur gün hələ.
Durub obaşdan,
Baxın Günelə.

Həvəsə gəlib,
Xoruz banlayır.
Günel hirslənib,
Onu danlayır.

Belə söyləyir
Gəlib yaxına:
– Tural yatıbdır,
Xoruz, oxuma!

**1981**

## AY YORULUB

Axşamüstü sahildə
Yenə qızışıb meydan.
Biz qaçırıq, bizimlə
Yanaşı qaçır ay da.

Tənginəfəsdir, bunu
Boynuna almır Günay.
Deyir: – Ata, yorulub,
Dayanaq, dincəlsin ay…

**1985**

## SƏN FUTBOLÇU OLANDA

Oğlum bir sual verdi
Mən baxanda futbola:
– Heç futbol oynamısan?
– Oynamışam, gül bala!
– Qapıçıydın, hücümçu?
Bəs nömrən neçə idi?
Sən futbolçu olanda
Familyan necə idi?

**1984**

## QORXMAZ ƏMİ

Desəm: – Şimşək, çaxma, çaxar?
– Çaxmaz, əmi.
Desəm: – Yağış, yağma, yağar?
– Yağmaz, əmi.
– Aya desəm çıxma, çıxar?
– Çıxmaz, əmi.

– Çaya desəm axma,
axar?
– Axmaz, əmi.
– Qabağına pələng çıxsa,
əmi qorxar?
– Qorxmaz, əmi.
– Ancaq yaman gopçusan ha,
Qorxmaz əmi!

**1984**

## DUMANIN BALASI

– Bu necə olan işdi,
Çöldə heç nə görsənmir.
Ay Esmira, bu nədi?
– Dumandı, görmürsənmi?

Gursel birdən hovxurdu:
– Bəs bu nədi de görək?
– O sənin nəfəsindi,
Çölə çıxır buxar tək.

– Yox, sən bilmirsən, bu da
Balasıdı dumanın.
Yəqin dağlar hovxurub,
Duman tutub hər yanı…

**1984**

## SƏN QIŞQIRANDA

– Qaqaş, insafın olsun,
Dəcəlliyi eylə tərk.
Sən qışqıranda mənim
Boğazım ağrıyır bərk…

## TƏZDƏN OYNAYAQ

Dama oynadıq,
Gursel uduzdu.
Gözünün yaşı
Sanki ulduzdu…

Şirə verirdim
Dedi ki, bayaq.
Bunlar məşq idi,
Təzdən oynayaq.

**1985**

## İTİ OLMAQ ÜÇÜN

– Niyə daşa çəkirsən,
Atacan, bu bıçağı?
– Çəkirəm itilənsin,
Ağzı qalındır axı!

Oğlum, bağban əlində
İti bıçaq gərəkdi.
– Bildim, iti olmaqçün
Nazik olmaq gərəkdi…

**1985**

## DƏNİZ GÖYƏRÇİNİ

– Ləpələrin üstündə
Göyərçinə bax, ata.
– Onlar göyərçin deyil,
Qağayıdı, Gülbuta.

Dənizdə nə gəzir ki,
Qızım, göyərçin indi.
– Ata, bildim, qağayı
Dəniz göyərçinidi…

**1985**

## YUXUDA YUXU

Anam yuxuya getcək,
Mən yuxudan oyandım.
Divardakı xalçanın
Qarşısında dayandım.

Karvana bax, karvana,
Sarban belində xançal…
Birdən möcüzə oldu,
Ekrana döndü xalça.

Ləngər vurdu dəvələr,
Karvan düzəldi yola.
Mən sarbana əl etdim,
Dedim: – Uğurlar ola!

Söylədim: – Gedin gəzin,
İzn verirəm sizə.
Ancaq anam durmamış
Qayıdın yerinizə…

**1985**

## QARA QARĞA

Oğlum soruşdu: – Ata,
Qara qarğa zəncidi?
Güldüm onun sözünə,
Məndən küsdü, incidi…

**1986**

## HƏYƏTDƏ QAR ƏKİBLƏR

Günəş gülümsədikcə
Dönür suya, selə qar.
Çəpərlənmiş sahədə
Əriməyib hələ qar.

Gursel deyir ki, ata,
Bura çəpər çəkiblər.
Hasarın içinə bax,
Elə bil qar əkiblər…

**1985**

## ÜZƏ AĞ – ÜZÜ AĞ

Dostlarını itirdi,
Hamıdan uzaq oldu.
Böyüyə söz qaytardı,
Fərhad üzə ağ oldu.

Elçin yaxşı uşaqdı,
Tənbəl deyil, qoçaqdı.
Həmişə sözə baxdı,
Onun üzü ağ oldu…

**1985**

## DƏRMAN YAZIRAM

Başı yaman qarışıb,
Yüz oyundan çıxır o.
Fonendeskopu taxıb,
Gəlinciyə baxır o.

Deyir: – Qızım, nəfəs al,
Üşüyürsən, eləmi?
Ana, mənə qələm ver.
– Neyləyirsən qələmi?

Ciddiləşir sifəti,
Belə söyləyir Sona:
–Yazıq qız xəstələnib,
Dərman yazıram ona.

**1985**

## NƏ BİLİM

– Qızım, sol əlimə bax,
Var burda neçə barmaq?
– Beş.
– Bəs sağ əlimdə?
– Sağ əlində də beşdi.
– Düz deyirsən, gül bala,
Sənin qiymətin "Beş"di…
Sağ əl tutdu sol əldən,
İndi sən diqqətlə bax!
İki əlin üstündə
Gör olur neçə barmaq?
Cavab tapa bilmədi,
Qızın gözləri doldu:
– Sən qatıb qarışdıdın,
Nə bilim neçə oldu?!

**1985**

## HARA GETDİ

– Hara getdi cibIərim,
Ana, itdi ciblərim.
– Yox, ay oğul, itməyib,
Bir əyninə yaxşı bax!
Görmürsənmi şalvarı
Geyinmisən dal-qabaq?!

## PİNQVİN

Ləpələrin diliylə
Nəğmə oxuyur dəniz.
Pinqvini sahildə
Gəzişən görəydiniz.

Sanki drijordur o,
Adicə bir quş deyil.
Drijor paltarıdır
Əynindəki elə bil…

**1975**

## ŞƏHƏRDƏN GƏLƏN OVÇU

– Yəqin ovdan gəlirsən,
Nə vurmusan de görək?
– Dağ keçisi vurmuşam,
Ovçu olmaz mənim tək.

Güc ilə gətirmişəm,
Gör necə kök keçidi?!
Nişan alıb, gülləni
Ürəyindən keçirdim…

– Dadlı olar ov əti,
Ver bizə də pay, ovçu.
Bıy, bu Həsən əminin
Keçisidi, ay ovçu!

**1982**

## İYNƏ

Əlində şpris var,
Heç qorxmuram anamdan.
O mənə iynə vurmur,
Xəstəliyə vurur ki,
Çıxıb qaçsın canımdan.

Başımı sığallayır,
Konfet verir üstəlik.
Mən dözürəm, ağrıya
Dözə bilmir xəstəlik…

**1981**

## AYTƏN

Dostumun qızı Aytəndi,
Gözəllikdə aya təndi.
Böyüyəcək üç-dörd ilə,
İl ötəndi, ay ötəndi.
Seyr etdiyi gözəl Şəki,
Gəzdiyi Şahbuz olacaq.
Bu şeirim çap olanacan
Aytən yekə qız olacaq…

**1979**

## DOLANBAC

– Dolanbac etmə,
Bəsdir, ay Vüqar.
Gicəllənərsən,
Başın fırlanar.
– Başım fırlanmır,
Tavan fırlanır.
Kreslo, servant,
Divan fırlanır…

## SOYUQ

Çöllər geyinir ağ paltar,
Ələndikcə düzlərə qar.
Əllərimi üşütsə də,
Soyuqda bir təmizlik var.

Külək öpür adamların
Yanağını sevə-sevə.
Soyuğa bax, həyətdədi,
Çağırıram, gəlmir evə…

**1983**

## QIRXAYAQ

Qırxayaq, ay qırxayaq,
Hünərin var gəl qaçaq!
Daşın altına girmə,
Niyə qorxursan axı?! –
Sənin qırx ayağın var,
Mənim iki ayağım…

## YARPAĞIN YOLU

– Yarpaq qışda harda olur?
– Torpaqda.
– Yarpaq yazda harda olur?
– Budaqda.
– Necə qalxıb bəs budağa
Yarpaqlar?
– Ağacların içi ilə
Yarpaqların yolu var…

**1974**

## SƏN HARDAN GƏLMİSƏN?

– Sən hardan gəlmisən?
– Dağlardan.
– Bu meyvə hardandı?
– Bağlardan.
– Bağlarda nə gördün?
– Bar gördüm.
– Dağlarda nə gördün?
– Qar gördüm.
Şaxta son baharı
Salıbdır atından.
Bulaqlar çağlayır
Buzların altında…
Baxıram çöl boyu,
Elə bil su yoxdu…
– Ay ata, əllərin
Nə yaman soyuqdu?!

**1981**

# "Aylı cığır" kitabından

## TARİXİMDƏN GƏLƏN SƏSLƏR, MƏNƏ DOĞMA OLAN KƏSLƏR

### YANARDAĞ

Yana-yana yaşayar
Abşeronda Yanardağ.
Dərdi böyük olanda
Yanar torpaq, yanar dağ.

Heç kəs tutduğu yoldan
Bu dağı döndərəmməz.
Göydən leysan ələnsə,
Odunu söndürəmməz.

Bu əbədi məşəli
Yandırıb torpaq özü.
Bu alov Koroğlunun,
Xətainin son sözü.

Yanardağın şöləsi
Qəlbimizi isidir.
O, bizim yurdumuzun
Yanar abidəsidir.

**1988**

## BU QOBU, DAŞLI QOBU

Yayda istiyə, qışda
Sinə gərib sazağa.
Sığınacaq olubdur
İnsana "Ana zağa".

Bu "Ovçular zağası",
O "Kənizə", "Daşaltı"…
Ovun qanlı, ay ovçu,
Zağan niyə boş qaldı?

Ha yana üz tuturam
Daşlar kəsir qarşımı.
Bu daşların hərəsi
Donan bir göz yaşımı?

Bu qobu, daşlı qobu,
Hər daşdan bir ah qopur.
Qayaların canına
İnsan həniri hopub.

Həsrətini, dərdini
Bu daşlara bələyib,
Adi bir qayalığı
İnsan tarix eləyib.

Uzaq illərdən gəlir
Əcdadımın sorağı.
Qobustan bir kitabdı,
Hər qaya bir varağı.

Üstündə yazı olan
Neçə müqəddəs daş var.
Əmanətə xəyanət
Eləməyib bu daşlar.

Sinəsində saxlayıb
Babaların izini.
Amansız zəlzələlər
Bükəmməyib dizini.

Bu daşın üstündəki
Şəkil mənə tanışdı.
Bir onu dilə tutun,
Bəlkə dinib-danışdı?

Keçmişinə güvənir
Bütün ellər, obalar.
Səsimlə bir qışqırdım:
– Salam, ulu babalar!

Hər qayanın üstündən
Bir intizar boylandı.
Qavaldaşı bərk çalın,
Bəlkə tarix oyandı…

Bu qobu, daşlı qobu,
Hər daşdan bir ah qopur.
Bu daşların canına
İnsan həniri hopub…

**1986**

## ÖRƏNQALA

Zəlzələylə çarpışmada
Torpaqlara girən qala.
Qədim Beyləqan elindən
Bizə soraq verən qala,
Örənqala.

Daşlarına hopubdur qan,
Övladları gedib qurban.
Gözləriylə neçə tufan,
Neçə yanğın görən qala,
Örənqala.

Kəc baxmayıb qonşusuna,
Yaxşı deyib yaxşısına.
Düşmənlərin qarşısına
Sinəsini gərən qala,
Örənqala.

Tarixə bəzəkdir adı,
Sındırıb düşməni, yadı.
Yurdumuzun mərd övladı –
İgid qala, ərən qala,
Örənqala!

**1990**

## GƏMİQAYA

Naxçıvanda bir "gəmi" var,
Yaxın get, gör sözü nədi?
Köksünə baş qoyub yatan
Hər şəkil bir xəzinədi.

Ögey gözlə baxsan əgər,
Daş inciyir, daş yadlaşır.
Gəmiqaya – əcdadımın
Heykəlləşən daş yaddaşı.

Gəmiqaya – babaların
Nəvələrə daş kağızı.
Gəmiqaya – bizim ulu
Xalqımızın yaş kağızı.

Gəmiqaya sinəsinə
Tariximi düzüb gəlib.
Gəmiqaya əsrlərin
Yaddaşından üzüb gəlib…

**1990**

## XOCAMSAXLI QALASI

Unudulub bu qala,
Bir adını çəkən yox.
Daş üstə daş qoyan az,
Uçuran çox, sökən çox.

Sıldırıma söykənib
Hörüklərin hamısı.
Baxırsan, gözə dəymir
Pəncərəsi, qapısı.

Çox qədimdi bu qala,
Çox ucadı bu qala.
Babaların verdiyi
Tapmacadı bu qala.

Nəvələr, nəticələr
Gərəkdir baş işlədə.
Ürəkdə yanğı olsa,
Qədim dəyirmanları
Gözdəki yaş işlədər.

Bizdə ki, bu qeyrət var,
Düşmənlər şad olacaq.
Bu tapmaca ömürlük
Açılmamış qalacaq…

**1989**

## QUBADLI

Ömür yolum üstdə yanır,
Taleyimin ülkəridi.
Qubadlı sazdı, simləri
Bərgüşadla Həkəridi…

O sazın səsi altında
Yerimişik ayaq tutub.
O çayların laylasından
Xəmirimiz maya tutub.

Torpağımın arzuları
Çiçək olub, ota dönüb.
Çaylaq daşının hərəsi
Bir sehrli nota dönüb.

Nəbi, Həcər qeyrəti var
Adamların ürəyində.
Satqın olmaz, kim dadıbsa
Bu torpağın çörəyindən.

Diş göynədən bulaqları
Dizimizdə təpər olub.
Dağları düşmən önündə
Keçilməz bir sipər olub.

Çəkilməz yağı önündən
Burda hamı inadlıdı.
Qartal tək zirvəyə qonub,
Daşları da qanadlıdı…

**1991**

## DƏDƏ-BABA TORPAĞINDAN DİDƏRGİN DÜŞƏNLƏRƏ

Dədə-baba torpağını
Övlad kimi sevirdiniz.
Üstünüzü bulud aldı,
Siz ondan üz çevirdiniz.

Ürək dərddən partlamazmı
Dost çevrilib yağı olsa?
Sizə qoşulub gedərdi
Torpağın ayağı olsa.

Durna kimi cərgələnib,
Quş ürəkli insan köçür.
Babaların ürəyindən
Dirilmək arzusu keçir…

**1988**

## UZAQDAN GƏLƏN NƏĞMƏ

Xanəndənin harayı
Götürüb dağı, düzü.
Bir qədim xalq mahnısı
Kövrəldib qəlbimizi.

O nəğmə xəyalımı
Aparıb lap uzağa.
Bir dodaqdan uçanda
Qonub başqa dodağa.

Düz əsrin o başından
Sel kimi daşıb gəlib.
İlləri aşıb gəlib,
Ayları aşıb gəlib.

O nəğmə neçə-neçə
Ürəyi şad edəcək.
Balamın dodağında
Gələcəyə gedəcək…

**1988**

## DAŞ HASAR

Bu su axar daşa sarı,
Keçə bilməz daş hasarı.
Daş hasarın o üzündə
Çiçək solğun, yarpaq sarı.

Asfalt küçə dənizində
Torpaq qalıb ada-ada,
Torpaq qalıb dibçək-dibçək.
Bu adanın, o dibçəyin
Hərəsində beş-on çiçək.

Ya bir ağac, ya da bir kol
Boylanır o adalardan.
İmdad dilər küskün-küskün
Gedib-gələn adamlardan.

Hər əl boyda çiçəkliyin
Dövrəsində bir daş hasar.
Gün qızdımı, çiçəkləri
Bu asfaltın odu qarsar.

Bu su axar daşa sarı,
Keçə bilməz daş hasarı.
Daş hasarın o üzündə
Çiçək solğun, yarpaq sarı…

**1985**

## QORQUD BABA

Ürəkləri ovsunlayan
Bir qopuzu – sazı olub.
Ağsaqqal bir kişi imiş,
Hamı ondan razı olub.

Məclislərdə saz çalanda
Dinləməkdən kim doyarmış?
Ərənlərə, igidlərə
Qorqud baba ad qoyarmış.

Adı ilə fəxr eləyir
Bu el-oba.
Babaların babasıdır
Qorqud baba.

## FAYTON

Atları haraylayan
Qoca faytonçuya bax.
Çuxası vəznəlidir,
Başda buxara papaq.

Saxla faytonu minək,
Bir az da bizi gəzdir.
Keçmişin yadigarı
Hamımıza əzizdir.

Maşınların yanında
Bəzəkli fayton gəlir.
Qırmızıya bürünüb,
Elə bil toydan gəlir…

**1976**

## BU YOLLAR, TƏZƏ YOLLAR

Bu yol qalxır Hərtizə,
Gül səpilib hər düzə.
Əyri yüz tələ qursa,
Zaval yoxdu ər düzə.

Bu yol gedir Göyyala,
Pərdə çəkib göy yala.
Yada ötən gün düşüb,
Dalmışam xoş xəyala.

Bu yol gedir Fərcana,
Daşlar bənzər mərcana.
Turşsunun hər qurtumu
Şəfa verər hər cana.

Dağlar danış, din deyir,
Təpəmizə gün döyür.
Bəs niyə təzə yolda
Köhnə yolçu təntiyir?

El bir yerə olar cəm,
Xatircəm ol, xatircəm.
Bu yollarla şütüyüb,
Keçər nəvəm, nəticəm.

Yoldaşdı bizə yollar,
Yol ömrə bəzək olar.
Bu yerlər ulu yerlər,
Bu yollar təzə yollar…

## TUTAR

Göylər yağış, qar ələyər,
Yolumu, izimi tutar.
Yağışı çölü, çəməni,
Qarğışı bizimi tutar?

Məni məndən aralayar,
Çiçəyimi yaralayar,
Ürəyimi paralayar,
Günahkar özümü tutar.

Öz yeri var hər guşənin,
Pöhrəliyin, sıx meşənin.
Çəmənzara öyrəşənin
Səhranı gözümü tutar?

Sirr açsam yoldan ötənə,
Könül versəm hər yetənə,
Xəyanət etsəm Vətənə
Çörəyi gözümü tutar…

**1990**

## QAVAL DAŞ

Çingiz çaldı "Qaval daş"ı,
Qobustana düşdü haray.
Daş üstündə mürgüləyən
Neçə şəkil vurdu halay.

Burlaxatun oda düşdü,
Salur Qazan yada düşdü.
Qaval daş dindi, elə bil
Əsrlərə səda düşdü…

**1983**

## BU DAŞ MƏNƏ TANIŞ GƏLİR

Sahildəki bir qayanın
Yanında çay haçalanır.
Yuxarıdan gələn sular
Ona dəyib parçalanır.

Qaya dinmir, qaya susur,
Göy kişnəyir, yağış gəlir.
Dilə gəlir elə bil su:
Bu daş mənə tanış gəlir…

## AŞIQ

Ürəyimi ovsunladı
Bu aşığın xoş avazı.
Sinəsinə sıxan kimi
Yarpaqladı telli sazı…

Simlər sanki şəlalədi,
Pərdələrdən axır işıq.
Şəfəqlənib üzü, gözü,
Sanki çiçəkləyib aşıq…

## BU SAZ

İçindən bir sel kükrədi,
Farağat durmadı bu saz.
Sanki qanadı qırılmış
Bir qərib durnadı bu saz.

Hünərin var ayağa dur,
Qanadını qaytar ona;
Özü uça bilməsə də,
Köksündən qopan havalar
Dönsün durna qatarına.

Sən çaldığın sazın səsi
Elə bilmə simdən gəlir.
Sən bu günün uşağısan,
O səda qədimdən gəlir…

**1991**

## SUQOVUŞAN

Bir çay o yandan gəldi,
Bir çay bu yandan gəldi.
Biri ürəyi dərdli,
Biri bağrı qan gəldi.

Torpağın da, daşın da
Sevinci aşdı-daşdı.
İki həsrətli kimi
İki çay qucaqlaşdı.

Kür kövrəlib söylədi
Gözlərində qanlı yaş:
– Öpüm Culfadan keçən
Boyunu, Araz qardaş!

Elə sarmaşdılar ki,
Bir-birinə Kür-Araz…
Bu çayların suyunu
Daha ayırmaq olmaz…

**1987**

## ŞƏHİD, ŞAHID

Sənin taleyinə
Acıyıram mən;
Hər cürə oğlun var,
Qızın var, vətən!

Birisi hazırdı
Şəhid olmağa,
O biri çəkinir
Şahid olmağa…

**1991**

## YAYLIM ATƏŞİ

Havaya atılsa da,
Havayı şey deyil o.
Dinlə məğrur səsini,
Bir gör nələr deyir o?

Dərdli-dərdli kişnəyən
Atdı yaylım atəşi.
Əsgər qəbri üstündə
Anddı yaylım atəşi.

Zəfərlər şərəfinə
Atılan fişəngdi o.
Qapqara buludları
Doğrayan şimşəkdi o…

**1988**

## NABRAN

Meşəsi var, dənizi var,
bulağı var.
Ona görə il uzunu
qonağı var…

**1986**

## BƏNZƏYIŞ

Anamın ürəyi
Ən zərif çiçəyə
bənzəyir.
Anamın saçları
Aydınlıq gecəyə
bənzəyir.

# ŞUŞA NƏĞMƏLƏRİ

## VURULMUŞAM ŞUŞAYA

Dindirsən oxuyacaq,
Qalalar himə bənddi.
Vurulmuşam Şuşaya,
Həm şəhərdi, həm kənddi.

Dörd tərəfi sıldırım,
Sıldırım boyu çiçək.
Oğlanları şirindil,
Qızları gözəl-göyçək.

Aşağıdan baxırsan,
Dağda işıq sayrışır.
Şuşanın işıqları
Ulduzlara qarışır.

Qapıbir qonşudurlar
Qartallarla adamlar.
Qızıl-qızıl güllərin
Ləçəyindən od damlar.

Çiçəklər də olubdur
Bu şəhərin sakini.
Küçəyə daş döşənib,
Di dur gəz daş səkini.

Ən qədim evlər ilə
Təzələr yan-yanadı.
Şuşa həm gənc, həm qoca,
Həm övlad, həm anadı.

Hara baxsan tarixdi,
Hara baxsan muzeydi.
Bir tərəfi güneydi,
Bir tərəfi quzeydi.

Bir tərəfində Qırxqız,
Bir tərəfində Kirsdi.
Qalxıb getdim Turşsuya,
İsa bulağı küsdü.

Heç bir şəhərdə yoxdu
Belə hava bəlkə də;
Gün altında yanırsan,
Üşüyürsən kölgədə.

Binalar addımlayır,
Gedir üzü sabaha.
Qala divarlarına
Bu şəhər sığmır daha.

Gözəl günü öndədi,
Hələ qönçədi Şuşa.
Dağların əllərində
Sanki xonçadı Şuşa.

**1986**

## ZƏNGULƏ

Təki duymağı bacar,
Dinir ot da, yarpaq da.
Dilə gəlib oxuyur
Burda daş da, torpaq da.

Təbiət yaddaşında
Neçə şux səs yaşadır.
Qarabağ torpağının
Zənguləsi Şuşadır.

**1986**

## BURDA SƏS SƏSƏ SÖYKƏNİR

Burda səs səsə söykənir,
Zil ucalıb bir dağ olur.
Yamacların ətəyində
Bəm əriyib bulaq olur.

O kimdi bayatı çəkən? –
Açıb dərdini söyləsin.
Otu, çiçəyi oxuyan
Yerin adamı neyləsin?!

**1986**

## YAŞIL DON

Çıxart yaşıl donunu,
Biçənəkdən keçəndə,
Bacı, birdən itərsən
Yaşıl otun içində…

**1986**

## XARIBÜLBÜL

Sarı bülbül, sarı bülbül,
Söylə, nə tez gözdən itdin?
O qədər gül dərdi çəkdin,
Özün də gül olub bitdin.

Ay çiçəyə sığınan quş,
Çıxart ləçək donu, barı!
Gülə qonub bal yığmağa,
Səni görüb, donub arı.

Belə çiçək görməmişdim,
Ləçəyində arı, bülbül.
Üç canlının heyrətinə
Heykəl olub Xarıbülbül…

**1986**

## ŞUŞADA BİTƏN ÇİÇƏK

Çıxanda Üçmıx dağına
Sevincdən qartala döndüm.
Xarıbülbülü görəndə
Heyrətimdən lala döndüm.

Deyirəm, təbiət necə
Əlvan çələng toxuyurmuş?!
Şuşada bitən çiçək də
Bülbül olub oxuyurmuş…

**1986**

## CIDIR DÜZÜ

Cıdır düzünün qoynunda
Ulduzlar sanı gül-çiçək.
Bu düzdən aşağı baxsan,
Qarqar lent tək görünəcək.

Sanacaqsan təyyarədən
Boylanırsan aşağı sən.
Nə bilirsən bu yer haqda,
Sən dünənin uşağısan.

Əlçatmayan zirvə olub
Cıdır düzü yadlar üçün.
Ancaq bu gün qəribsəyib,
Şahə qalxan atlar üçün.

Təbiətin yaratdığı
Əsrarəngiz bir əsərdi.
Düz olsa da, hündürlükdə
Dağlar ilə bərabərdi…

**1986**

## QOTUR SU

Sıldırımın dibində
Bir buz bulaq çağlayır.
Hər kim suyundan içsə,
Onu gümrah saxlayır.

Hamı ora can atır,
Yolu düşsə də uzaq.

Suyunda çimən olur
Azar-bezardan iraq.

Ona qotur deyənlər,
Fəs-farağat otursun.
Qoturları sağaldıb,
Adı qalıb Qotur su.

**1986**

## BU DƏRƏDƏN BAXIB GÖRDÜM

Xoşbəxtlərin xoşbəxtiyəm,
Güzarım bu yerə düşüb.
İki dağın arasına
Bir insafsız dərə düşüb.

Bu dərənin sinəsindən
Büllur sulu Qarqar axır.
Layla çalıb ovundurur,
Ta neyləsin Qarqar, axı?1

Bu dərədən baxıb gördüm,
Cıdır düzü bir dağ imiş.
Ayrı düşmüş iki dağın
Hər gözü bir bulaq imiş…

**1986**

## NATƏVAN BAĞINDA

Biz Natəvan nənənin
Əyləşmişik bağında.
Kimdən utanır, onun
Yaşmaq var dodağında?

Gülləri, çiçəkləri
Pay göndərib yamaclar.
Yaşıl fəvvarələrdi
Elə bil ki, ağaclar.

Büllur atılğanların
Saçları var upuzun.
Onlar nəğmə oxuyur
İçində çarhovuzun.

Birdən sular kəsildi,
Gözəl nəğmə yox oldu.
Orxan dedi:
– Fəvvarə
Çarşovuza yıxıldı.

**1986**

## MEŞƏYƏ QAYIDAN AĞACLAR

Maşınımız şütüyür
Meşədən evə sarı.
Seyr edirik yol boyu
Düzülən ağacları.

Arxada qalır dağlar,
Gül-çiçəkli yamaclar.
Adama elə gəlir,
Geri qaçır ağaclar.

Orxan deyir, başını
Söykəyərək şüşəyə:
– Biz Şuşaya dönürük,
Ağaclarsa meşəyə.

**1986**

## ÇÖPÜ QALAN ŞİR

Püləyibdi burnundan,
Püləyibdi ağzından,
Çöpçü çiyid çıxardıb
Uşağın boğazından.

Şuşada babasıyla
Gəzir, dincəlir Tofiq.
Axşam şir heykəlinin
Yanına gəlir Tofiq.

Şirin iri burnunu
Baxın, ağzına salıb.
Üfürür ki, bunun da
Boğazında çöp qalıb.

**1986**

## TƏRƏKƏMƏ

Ən sonuncu cərgədə
Durub rəqsə baxırdım.
Ən birinci sıradan
Dostum məni çağırdı.

Enib getdim aşağı,
Biz əyləşdik yanaşı.
Rəqsə dəvət elədi
Camal mənə yanaşıb.

Çox üzr istədim ondan,
Dostum bir az alındı.
Üç-dörd havadan sonra
“Tərəkəmə” çalındı.

Oynamaq istəmirdim,
Utanırdım düzü mən.
Bir də gördüm meydanda
Qol götürüb süzürəm.

Bu nə iş idi düşdüm,
Yanaqlarım yanırdı.
Rəqs qurtaranda, Şuşa
Başıma firlanırdı…

**1986**

# HAVAM, SUYUM, TORPAĞIM, OTUM, GÜLÜM, YARPAĞIM

## BİR AY, BİR DƏ ÇAY

Gedib mürgüyə
Dağlar, yamaclar.
Yatıb meşədə
Kollar, ağaclar.

Yuxuya dalıb
Dərələr, düzlər.
Tənha üşüyür
Cığırlar, izlər.

Yatıb Çayzəmi,
Yatıb Atrizi.
Qarışıq yuxu
Görür Vəldüzü.

Baxıram yeri
Şumlanan yurda…
Bir ay, bir də çay
Oyaqdı burda: –

Biri çağlayır,
Elə hey axır.
Biri də göydən
Sakitcə baxır.

**1988**

## BULAĞIN EVİ

Bulağın evinə bax,
Yaraşıqlı, qəşəngdi.
Balaca qapısı var,
Elə bil ki, pətəkdi.

Kimsə girməyib hələ
O qapıdan içəri.
Ordan çıxan bol sudan
Biz doyunca içərik.

Bulağın səxavəti
Kaş ki, hamıda ola.
Qapısına gələni
Əliboş salmaz yola.

İç, nə qədər içirsən,
Qablarını da doldur.
Qəlbi açıq olanın
Varı, dövləti boldur.

Bulağın damı üstə
Qar yağar, dolu düşər.
Ancaq evinə təkcə
Yağışın yolu düşər.

Gecə-gündüz işləyir,
Yox gözünün yuxusu.
Arı güldən bal çəkir,
O, yağışdan sərin su.

**1986**

## XOCAMSAXLI ŞƏLALƏSİ

Yekə naqqa balığı
Çay aşağı üzürmüş.
Özünə dərin, rahat
İri bir göl gəzirmiş.

İlişib dar keçiddə,
Qorxudan dönüb daşa.
Bir şəlalə yaranıb,
Şəlalə yox, tamaşa.

Daşdan tökülən suya
Hamı heyrətlə baxır.
Şəlaləyə çevrilib
O balığın hər bığı.

**1989**

## DƏYİRMANIN NƏĞMƏSİ

Mən öpdüm, oxşadım arxı,
Dedim: – Boyun uzun olsun!
Köynəyimdən keçirtdim ki,
Dönüb mənim qızım olsun.

Sevdim, əzizlədim onu,
Heç məni salmadı saya.
Axıb getdi, aşağıda
Qovuşdu anası çaya.

**1988**

## QARA GÖL

Baxanda sahillərdən
Əskik olmayan qara,
Sənin büllur tək şəffaf
Suyun görünür qara.

Ona görə adını
Qara göl qoyub ellər.
Ağ-ağ daşları sənə
Qonaq gətirib sellər.

O ağ daşlar dağların
Donmuş göz yaşıdımı?
Ay qara göl, qaralıq
Pisdimi, yaxşıdımı?

Bu təpələr, bu dağlar
Nə üçün adsız qalıb?
Sənin adın onların
Adına kölgə salıb…

**1987**

## MEŞƏDƏ YARIŞ

Bu meşənin qoynunda
Gör nə qədər ağac var.
Bir-biriylə yarışır
Elə bil bu ağaclar.

O qalxdıqca bu qalxır,
Bu qalxdıqca o qalxır.
Qonşu qonşuya baxıb,
Özünü oda yaxır.

Meşədəki bu yarış
Bil ki, deyil havayı.
Ağac tez boy atmasa,
Əldən çıxar nur payı.

Hər biri çalışır ki,
Olsun bir az da uca.
Günəşin işığıdı
Gəl-gəl deyən ağaca...

**1987**

## BƏRGÜŞAD

Sahillərin yaxasına
Əlvan güllər taxıb gedir.
Həm yoldu, həm də yolçudu,
Gecə-gündüz axıb gedir.

Neçə kəndin ortasından
Ötəsidi, keçəsidi.
Kəndimizdən Arazacan
Uzanan su küçəsidi…

**1988**

## DAĞ ÇAYININ NƏĞMƏLƏRİ

Körpə bir bulaq idim,
Suyum artdı, bollandım.
Dupduru bir çay idim,
Böyüdükcə, bulandım.

Dərə keçdim, düz keçdim,
Çırpıldım dağa, daşa.
Qəzəbləndim, hönkürdüm,
Kükrədim daşa-daşa.

Duruluğu itirdim,
Hirsimdən gözüm doldu.
Suyumu bulandıran
Keçdiyim yollar oldu…

**1988**

## ÇAY AŞAĞI

Ağ yazıdan enirəm,
Gedirəm çay aşağı.
Ürəyimə nur saçır
Heyrətimin işığı.

Bərgüşadım özünə
Doğru yol seçib gedir.
Arzu tək neçə kəndin
İçindən keçib gedir.

Elə bil bir təsbehi
Seyr edirəm doyunca:
Kəndlər muncuqlar kimi
Düzülüb çay boyunca.

Sevinirəm, dörd yana
Baxıram həsrətlə mən.
Dağ çayına qoşulub,
Getmək keçir qəlbimdən.

**1987**

**ÇƏMƏNDƏN AYRILAN ÇİÇƏK**

Çiçəkləri sayrışır,
Bu nə gözəl yamacdı!
Ətirli düymələrdən
Biri, birdən dil açdı:

– O yandan bir qız gəlir,
O qız məni görəcək.
Hamınızdan göyçəyəm,
O qız məni dərəcək.

…Qız çatdı çiçəkliyə,
Dayandı, nəfəs dərdi.
Əyilib çəmənlikdən
Həmin lovğanı dərdi.

Çiçək yaman sevindi,
Qızınsa nə vecinə.
Aparıb qoydu onu
Evdə suyun içinə.

Gecə çiçək ağladı:
– Apar məni yamaca.
Bacılarımdan ötrü
Darıxmışam yamanca.

Ev istidi, canımda
Bəs bu nə üşütmədi?
Ancaq onun səsini
Qızcığaz eşitmədi.

Səhərəcən ağladı,
Öz-özünə danışdı.
Göz yaşı güldandakı
Soyuq suya qarışdı.

Əridi gilə-gilə,
Quru çöpə döndü o.
Gül qabının içində
Çıraq kimi söndü o.

Qız çiçəyi tulladı,
Suyu səpdi yamaca.
Yağışa həsrət otlar
Sevindilər yamanca.

Birdən kimsə qışqırdı:
– Çox atılıb düşməyin.
Bu, bizim bacımızın
Göz yaşıdı, içməyin!

Yamac nənə vaysındı,
Çəmən ana ağladı.
Gözlərindən göz yaşı
Çiçək-çiçək çağladı.

Günəş yamaca dedi:
– Muğayat ol özündən.
Enib öpdü çəmənin
Doluxsunmuş gözündən…

**1987**

## PƏYHAN BULAĞI

Bu bulağı görəndə
Hər şey huşumdan çıxır;
Meşənin ətəyindən,
Dağın döşündən çıxır.

Dörd tərəfi olubdur
İgidlərin oylağı.
Özü dağlar gözəli,
Suyu şəfa qaynağı.

Əzəl gündən el ona
Deyib bəy-xan bulağı.
Adını həmin sözdən
Alıb Pəyhan bulağı.

**1989**

## GECƏ YAĞIŞ YAĞANDA

Çəməndə gəzmək üçün
Məni çağır gecələr.
Güllərin yuxusuna
Yağış yağır gecələr.

Yağış nəğmə oxuyur,
Lal olmuşam heyrətdən.
Addım səsləri gəlir
Elə bil ki, həyətdən.

Damcıların səsindən
Ayna tək sınır sükut.
Yağış ayaqlarıyla
Çölləri gəzir bulud.

Yağışın qədəmini
Çəmən öpür sevincək.
Onun gəzdiyi yerdə
Tapdanmır ki, gül-çiçək.

**1985**

## PƏNCƏRƏDƏN BAXAN BUDAQ

Budağa bax, budağa,
Hey ucalır, qalxır o.
Boylanıb pəncərədən
Evimizə baxır o.

Deyirəm ki, utanma,
Keç içəri, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq.

Yalvarıram nə qədər,
Bəs niyə baxmır sözə?
Yəqin anası ağac
Onu buraxmır bizə.

**1987**

## ÇİÇƏYİN XAHİŞİ

Üstünə arı qondu,
Yelləndi zərif çiçək.
Deyin, harda görmüsüz
Belə qəşəng yelləncək?

Arı yaman sevindi,
Baxdı çölə, çəmənə.
Çiçəyə söylədi ki,
Nə arzun var, de mənə!

Çiçək yaman utandı,
Çiçək yaman qızardı.
Ondan bir az aralı
Balaca bir gül vardı.

Söylədi ki, arıcan,
Çıxma, çıxma sözümdən.
Uç, mənim əvəzimdən
Öp o gülün üzündən!

**1987**

## BUDAĞA QONAN BULUD

Bıy, bun necə buluddu,
Boyu var bapbalaca?!
Özü də uçub qonub
Bağımızda ağaca.

Elə hey yağış səpir,
Çölə, düzə – sozalmır.
Yenə həmin boydadı,
Heç ərimir, azalmır.

Yağış tökür səhərdən,
Hamı olub sevincək.
Yağır, yağır, üzlərdə
Təbəssüm açır çiçək.

O buluda baxın bir,
Donu naxış-naxışdı.
O bulud – bir bülbüldü,
Nəğmələri yağışdı…

**1987**

## KÖTÜK PİLLƏKƏN

Enib getdik bulağa
Kötük pilləkən ilə.
Yaraları göynədi,
Gəldi pilləkən dilə:

– Bir hündür ağac idim,
Lap uzaqda bitmişdim.
Meşənin sıxlığında
Görünmürdüm, itmişdim.

Qurudum ayaq üstə,
Doğrandım qarış-qarış.
Dərdimi məni bura
Düzən oğlandan soruş!

Titrəyirəm, siz gəlib,
Sinəm üstdən keçəndə.
Bir hənir eşidəndə
Yarpaq göynər içimdə…

**1986**

## BALACA QARIŞQA VƏ BUĞDA İLƏ DOLU ZƏNBİL

Balaca qarışqa
Hər otu yol bildi.
Hansıyla getsin o,
Zəmidə yol birdi?!

Küləşin üstünə
Dırmandı güc ilə.
Az getdi, üz getdi,
Yetişdi mənzilə.

Bu nədir görəsən? –
Deyəsən sünbüldür.
İçi də buğdayla
Dopdolu zənbildir.

Sevindi yamanca,
Nur gəldi gözünə.
Başının üstündə
Nur dolu xəzinə…

Elə ki, meh əsdi,
Qarışqa bərk qorxdu.
Neyləsin bəs indi,
İrəli yol yoxdu.

Geriyə qayıtdı
Əliboş, çarəsiz.
Yuvanın ağzında
Bir onu görəsiz…

Qopara bilməyib
Kökündən sünbülü.
Apara bilməyib
Dopdolu zənbili.

Ağlayır, hönkürür,
Dəm verir gözünə.
Utanır, baxammır
Heç kəsin üzünə…

**1987**

## QAYADAN ATILAN SU

Yuxarıda büllür tək
Şəffaf olan suya bax.
Şəlaləyə çatanda
Rəngi olur ağappaq.

Haray salır, kimisə
Köməyinə çağırır.
Qayadan atılanda
Qorxusundan ağarır…

**1987**

## QISRAQ BULAĞI

Qısraq dağa qısılıb,
Qısraq
Qısqıvraq olub.
Adamlar köçüb gedib,
Qısrağın gözü dolub…

Bir yanına gələn yox,
Onu götürüb fikir.
Öpülməyə öyrəşən
Nəmli gözlər yol çəkir.

Kimsəsizlik yamandı,
Qorxu düşüb canına.
Özü axır ki, getsin
Adamların yanına.

Yonca ovulub gedər,
Biçəni yoxsa əgər.
Bol su nəyə gərəkdi
İçəni yoxsa əgər?

Qısraq yenə də gurdu,
Can atsa da irəli,
Dağdan üzülə bilmir
O bulağın bir əli…

**1989**

## KİMDİR QAPINI DÖYƏN

– Kimdir qapını döyən? –
Kimdir bu gecə vaxtı?
– Budağından ayrılan
Bir saralmış yarpaqdı.

– Nə istəyirsən axı?
– Aç qapını ahəstə,
Uçub qonum yazdığın
"Payız" şeirinin üstə…

– Kimdir qapını döyən? –
Kimdir bu gecə vaxtı?
– Öz yarpaq balasından
Ayrı düşən budaqdı.

– Nə istəyirsən axı?
– Yuxu getmir gözümə.
Mənim yarpaq balamı
Qaytar mənim özümə!…

**1987**

## KÖZƏRƏN YARPAQLAR

Günəşin işığımı
Saraldıbdır üzünü? –
Gün altında qalmısan
Sən axı yay uzunu!

Ay qızılı yarpağım,
Yaşıldan gözəlmisən?
Yanağından od damır,
Elə bil közərmisən.

Ay sərçə, payız gəlib,
Ağaca qonma daha.
Közərmiş yarpaqlardan
Qanadın od alar, ha?!

**1987**

## GƏLƏN BAHARA KİMİ

Dimdiyində çöp tutub,
Havada uçurdu quş.
Bir yarpaqsız ağaca
Qonub yuva qurdu quş.

Ağac yaman kövrəldi,
Qüvvət duydu dizində.
Yaş tumurcuq-tumurcuq
Giləlndi gözündə.

Sevindi, sevincindən
Ürəyi dağa döndü.
Açıldı tumurcuqlar
Yaşıl yarpağa döndü.

O yarpaqlar yuvanı
Gözdən iraq saxladı.
Aradan xeyli keçdi,
Yuva da yarpaqladı.

Yazıq ağac az qala
Sevincindən uçurdu.
Yumurta qönçələrdən
Qanad yarpaq açıldı.

Bir azdan körpə quşlar
Qanadlanıb uçdular.
Yarpaqlar da onların
Arxasınca düşdülər.

Yuva ilə ağacın
Matı-qutu qurudu.
Dərdli-dərdli hönkürdü
Kövrək payız buludu.

Ağac dinmək istədi,
Yuva dinmək istədi.
Peşman olan yarpaqlar
Geri dönmək istədi.

Ancaq bunlar əbəsdi,
Payız küləyi əsdi.
Yarpaqların budağa,
Qanadların yuvaya
Dönən yolunu kəsdi.

O ağacla o yuva
Mat qalıbdır gör necə?! –
Gələn bahara kimi
Susacaqlar beləcə…

**1987**

## PARAŞÜT

Təyyarənin gözündən
Qopdu bir damla yaş tək.
Aşağıya endikcə
Onu şişirtdi külək.

Mavi göydə balaca
Adadı bu paraşüt.
Uçuşun sonundakı
Nidadı bu paraşüt…

**1987**

## TƏK AĞAC

Taleyi bağlanıbdır
Bu kol-kossuz yamaca.
Tək ağac meşə üçün
Qəribsəyib yamanca.

Elə bil ki, durnadı,
Qatarından ayrılıb.
Bürkü ilə döyüşən
Qılınc kimi sıyrılıb.

Gün altında bişənlər
Kölgəsində üşüyər.
Yorğun yolçular onu
Dəyişməz bir meşəyə.

Yay vaxtı çətir kimi
Qanadını gərər o.
Bir meşənin işini
Təkbaşına görər o…

**1987**

## OVÇU VƏ TURAC

Addım səsi eşidib,
Turac havaya uçdu.
Ovçu əlində tüfəng
Ovun dalınca düşdü.

Düz "Qırmızı kitab"ın
Üstünə qondu turac.
Bunu görəndə ovçu
Geri döndü naəlac…

**1988**

## ƏTİRLİ QIF

Dedim: – Nə qəşəng qıfdı,
Dostum üzümə güldü.
– Heç belə də qıf olar? –
Görmürsənmi, bu, güldü.

– Düz deyirsən, ancaq sən
Bu gülə diqqətlə bax.
Sanki çöllər əlində
Tutub nur dolu çıraq.

Bu gülün ləçəkləri
Çəmənləri bəzəyir.
O, günəş işığını
Süzən qıfa bənzəyir.

İşıq bu "qıf"dan keçib,
Yerin canına axır.
Torpağın sinəsindən
Təzə çiçəklər qalxır…

**1986**

## GİLİZ

Gör nə tapıb gətirib
Evimizə Gülüzə:
Quşu uçmuş yuvadı,
Gilizə bax, gilizə.

İçindəki qurğuşun
Hara gedib? –Uy, uy, uy!
Görəsən hansı quşun
Sinəsində uyuyur?

"Bu yuvadan uçan quş"
Axı kimə gərəkdi?
O gilizin içində
Balaca bir gül əkdim.

Giliz güldana döndü,
Güllə gül olub bitdi.
Uşaqların üzündən
Kədər buludu itdi.

**1986**

## TİKANLAR

Qızılgülün üstündə
Gör nə qədər tikan var.
Gül çəmənin gözüdür,
Kirpikləri tikanlar.

Dərmək istəsək gülü,
Sancılar tikan bizə.
Elə bil ki, kirpikdir,
Keşik çəkir o, gözə.

## AYLI CIĞIR

Dənizin üstündə
ay cığır salıb,
Üzür su üstündə
titrək naxışlar.
O aylı zolaqda
neçə göz qalıb,
O aylı cığırda
gəzir baxışlar…

## GECƏ LÖVHƏSİ

Dağlar şirin yuxu görür,
Büllur şehə bata-bata.
Qoynundakı sellər, sular
Dərələri qoymur yata.

Gözəllikdən xumarlanıb,
Bu çəmən deyil özündə.
Ay işığı bardaş qurub
Çiçəyin şehli gözündə…

**1989**

## DÜŞÜB QALMIŞAM YOLLARDA

Qaçdım şəhər hay-küyündən,
Getdim, getdim uzaqlara.
Sığındım tənha ağaca,
Dırmandım uca dağlara.

Bu adamlar harda qalıb?
Yol çəkir çöllərin gözü.
Titrəyir bulağın səsi,
Dolubdu güllərin gözü.

Tənhalıq qəlbimi sıxdı,
Tutulmuşam yaman dərdə;
Qala bilmədim, darıxdım,
Bu ölüb qalmalı yerdə.

Nə dağı aparmaq olur,
Nə dostu gətirmək olur.
Düşüb qalmışam yollarda,
Peşəm köks ötürmək olub…

**1988**

## BÖLÜŞMÜŞÜK DÜNYANI

Bölmüşük bu dünyanı:
Bax, bura mənim yerim,
Bax ora sənin yerin.
Çəkilən sərhədlərə
Gülməyi tutur Yerin.
Tikanlı məftilləri
Hünərin var keç indi.
Sərhəd yer üçün deyl,
Sərhəd insan üçündü…

**1985**

## CIĞIRLAR

Elə bil kəndirdilər,
Sarınıblar dağlara.
Hey uzanıb gedirlər
Çəmənlərə, bağlara.

Çeşmə üstə enirlər,
Zirvələrə çıxırlar.
Ayaqlardan süzülüb
Elə bil ki, cığırlar…

## AĞACA NƏ BƏLA GƏLSƏ

Ağacların budağında
Hər meyvə, hər çiçək işıq.
Bəzən qırıb aparırlar
Budağı meyvə qarışıq,
Budağı çiçək qarışıq.

Ağacların qoluna güc
Yağışdan, çisəkdən gəlir.
Ağaca nə bəla gəlsə,
Meyvədən, çiçəkdən gəlir.

**1985**

## QIRMIZI ZANBAQ

Bənzəsə də laləyə,
Zanbaqdır, lalə deyil.
O, torpaqdan fışqıran
Qızıl qandır elə bil.

Zanbağın tacına bax,
Bənzəri var xaşxaşa.
Dövrəsində veribdir
Altı ləçək baş-başa.

Bu qırmızı zanbaqlar
Biri-birindən qəşəng.
Sarı, qırmızı, qara –
Hər ləçək üstə üç rəng.

Sarı, nazik zolağa
Nəzər yetir dərindən, –
Qarayla qırmızını
Ayırır bir-birindən.

Qızıl zanbaq torpağın
Ürəyinin odudu.
Ləçəkləri elə bil
Kəpənək qanadıdı.

**1985**

## KÜLƏK KİTAB OXUYUR

Dənizin sahilinə
Endim atamla birgə.
Dalğalar sıra-sıra,
Dalğalar cərgə-cərgə.

Dəniz sanki kitabdı,
Hər dalğa varağıdı.
Onu səhifələyən
Küləyin barmağıdı.

Külək yaman tələsir,
Belədən-belə ötür.
İstəyir ki, dənizi
Oxusun sətir-sətir…

**1982**

## BAR ƏSKİK OLMUR BAĞDAN

Hər meyvənin öz yeri,
Hər meyvənin öz dadı.
Bağların sovqatından
Yaxşı ki, hamı dadır.

Təbiət öz sözünü
Vaxtı gələndə deyir.
Bir meyvə sovulanda,
O biri təzə dəyir.

Gilasdan doyan kimi
Tut görünür budaqda.
Sonra ərik, şaftalı,
Alma yetişir bağda.

Armud sulanan zaman
Nar dənə tutur təzə.
Payızın son ayında
Heyva görünür gözə.

Meyvələr yetişəndə
Gəl-gəl deyir budaqdan.
Bahardan qışa kimi
Bar əskik olmur bağdan.

**1984**

## BU ÇİÇƏKLƏR ÜŞÜMÜRMÜ

Dərələrdən sellər axır,
Yağış yağır yamaclara.
Duman hörümçək toru tək
Sarınıbdır ağaclara.

Yaşıl meşə xəyaldadı,
Uca dağlar düşünürmü?
Bu yağışda, bu çisəkdə
Bu çiçəklər üşümürmü?

Öyrəşibdir, bu havada
Elə bilmə çiçək donur.
Bu güllərin hamısının
Əynində var ləçək donu.

**1982**

## BAŞI SOYUQ DAĞ

Zirvən buluda dəyər,
Baxan sənə baş əyər.
Dik durmağın nə xeyri,
İşləmirsə baş əgər?!
Səninçün nə qış, nə yay? –
Zirvən qardı həmişə.
Qar altında dustaqdı
Nərgiz, lalə, bənövşə…
Hər qayğıdan uzaqsan,
Sən başı soyuq dağsan…

**1985**

## NECƏ QALACAQ

Dərədən, dağdan keçib
Qonaq gəldik bulağa.
Sərin suyundan içib,
Başladıq oynamağa.

Kəndə qayıdacağıq
Qaranlıq düşən kimi.
Alışacaq göylərdə
Ulduzlar fişəng kimi.

Biz gedəndə bulağın
Ala gözü dolacaq.
Bilmirəm o, meşədə
Təkcə necə qalacaq?!

**1985**

## ÇƏMƏN ÇİÇƏYİ BİLƏR

Əskik olmur qış-bahar
Otağımdan qoxusu –
Dibçək gülləri üçün
Payızın nə qorxusu?

Çırpıldı şimşək qamçı,
Göydə bulud kişnədi.
Çəmən çiçəyi bilər
Payız nədi, qış nədi?

**1985**

## BU DAĞIN O TƏRƏFİNDƏ

Bu dağın o yamacında
Nəğmə deyir bir buz bulaq.
Uzaqdan elə bilirdim
Dünyanın sonudu bu dağ.

Elə ki, zirvəyə qalxdım,
Ayağıma döşəndi qış.
Bu dağın o tərəfində
Təzə bir dünya varımış…

**1984**

## YAXŞI BULAQLAR

Yurdumda nə çox
Yaxşı bulaq var.
Dalda yerdədi
Yaxşı bulaqlar.

Öz qanunları
Var təbiətin.
Yaxşını tapmaq
Çətindir, çətin…

**1985**

## İŞIĞA DOĞRU

Çəyirdəyin içində
Yeri qaranlıq idi.
Torpaq, günəş, hava, su
Ləpəyə gəl-gəl dedi.

Birdən elə şişdi ki,
Parçalandı çəyirdək.
Qabığı qaldırdı o
Düz başının üstünə
Ağırlıqqaldıran tək.

Sonra da çırpdı yerə
Parçalanmış qabığı.
Döyüşdən qalib çıxan
İgid şitilə baxın…

**1986**

## DAĞ SANKİ BİR GÖZƏLDİR

Bulaq gücünü dağdan,
Çay gücünü bulaqdan
Alıb axır çöllərə,
Obalara, ellərə.

Onun şirin nəğməsi
Yamacları bürüyüb.
Dağ sanki bir gözəldir,
Çaylar onun hörüyü.

## ÇİMƏN AY

Bərgüşadın suyunda
Ay bu axşam yuyunur.
Çay nə qədər çalışır,
Apara bilmir onu…

**1983**

## ODLU YUMAQ

Sanki yun darağıdı
Ağacların budağı.
Onda yun tək daranır
Günəşin zər saçağı.

Günəş gülümsəyəndə
Ləzzət çəkir üfüqlər.
Günəş odlu yumaqdı,
İlmələri şəfəqlər…

Nə qədər çözələnsə,
Azalmır ha bu yumaq;
Olar bütün dünyaya
Ondan paltar toxumaq…

**1985**

## HƏMƏRSİN KOLLARI

Həmərsin kollarında
Açılıb ağ çiçəklər.
Elə bil budaqlara
Qonub ağ kəpənəklər.

O zərif kəpənəklər
Birdən qanad açdılar.
Hərəsi öz yerində
Meyvə qoyub uçdular…

**1982**

## AĞ BAYRAQ

Dənizə bax, dənizə,
Nəğmə yatır dilində.
Dalğalar elə bil ki,
Ağ bayraqdır əlində.

Dəniz yaman hirslənib,
Nərə çəkir, bəs demir.
Ağ bayraq qaldırsa da,
Təslim olmaq istəmir…

**1985**

## GÜNƏŞ QÜRUB EDƏNDƏ

Günəş hər şeydən uludu,
Günəş hər yerdən ucadı.
Ağacın, otun, zəminin
Əlindən tutub ucaldır.

Günəş elə müqəddəsdir,
Hamıya bir gözlə baxar.
Günəş qürub edəndə də
Heç kəsə çevirməz arxa…

**1985**

## FƏVVARƏ QURŞAĞI

Ucal, ucal bir az da,
Ay suyu gur fəvvarə!
Ürəklərə sərinlik,
Gözlərə nur fəvvarə!

Suyun yuxarı qalxıb,
Səpələnir aşağı.
Üstünə şəfəq düşcək
Yaranır göy qurşağı.

Möcüzədir, möcüzə,
Damcılar rəngbərəngdi.
Elə bil çiçəklərdən
Hörülmüş bir çələngdi.

Suyu rəngbərəng edən
Günəşin işığıdı.
Bu, göy qurşağı deyil,
Fəvvarə qurşağıdı…

**1985**

## DAŞLI DƏRƏ

Başı səngər dağında,
Ayağı Bərgüşadda.
Qoynunda sel kükrəyir
Gur yağışda – gürşadda.
Elə bil poçtalyondu
Yeldən qanad götürür.
Dağın sel sovqatını
Bərgüşada yetirir.

**1982**

## DƏLƏNİN QUYRUĞU

– De, bu boyda quyruğu
Neyləyirsən, dələ, sən?
Dələ güldü üzümə:
– Bilmirsənmi hələ sən?

Ağıllı heyvan heç vaxt
Quyruğu verməz ələ.
Quş qanadla öyünər,
Dələ quyruğu ilə.

Tullananda quyruğum
Dönüb paraşüt olar.
O olmasa, bədənim
Əzilər, şil-küt olar.

Soyuq düşcək, özümü
Mən koğuşa dürtərəm.
Yuvamın qapısını
Quyruğumla örtərəm.

**1986**

## QAYĞIKEŞ QONŞULAR

Tufan bərk silkələdi
Meşədə bir ağacı.
Ağac az qaldı aşa,
Ağladı acı-acı.
Nə yaxşı ki, yazığın
Dörd yanında ağac var.
Yıxılmağa qoymadı
Onu qonşu ağaclar.

Hər tərəfdən girdilər
“Yaralı”nın qoluna.
O, təzədən dirçəldi,
İşlər düşdü yoluna…

**1986**

## ÇİÇƏKLƏRİN NƏĞMƏSİ

– Hay-haray salmaqdansa,
Gəlib çəməndə gəzin.
Burda nəğmə oxuyur
Çiçəklər həzin-həzin.

– Dayanıb bir tərəfdə
Dinləyirəm səhərdən.
Çiçək nəğmə oxuyar? –
Heç nə eşitmirəm mən.

– Onların nəğməsini
Eşitmək üçün gərək,
İnsanın sinəsində
Həphəssas olsun ürək…

**1985**

## ARANDA, DAĞDA

– Torpaq kövrəlir,
Çimir dağ-dərə.
Buluddan yağış
Ələnir yerə.
– Nədən yaranır
Buludlar, ata?
– Su buxarlanıb

Dönür buluda.
Buludlar olur
Qara da, ağ da…
– Daha çox harda
Buxarlanır su? –
Aranda, dağda?
– Aranda.
– Niyə?
– Aran istidi.
Yenə də sual
Vermək istədi.
Durub diqqətlə
Baxdı üzümə.
Yenə suallar
Yağdı üstümə.
–Yağış niyə az
Yağır arana? –
Oğulsan indi
Cavab ver ona…

**1984**

## AZARSAN HA

– Getmə gözümdən iraq,
Bulaq suyu, amandı.
Bir az ehtiyatlı ol,
Azarsan ha, dumandı!

– Qorxma, dostum, yollara
Mən diqqətlə baxaram.
Lap gözü yumulu da
Gedib çaya çıxaram…

**1986**

## AĞ GÜNƏ ÇIXAN AĞACLAR

Yaz gəldi, ana torpağın
İliyinə gün işlədi.
Ağaclar çıxdı ağ günə,
Budaqları gümüşləndi.

Bəlkə meyvə ağacları
Bu ağlığı qardan alıb?
Çiçəklər sanki noğuldu,
Ağac onu hardan alıb?

## AĞACLARIN ÇİÇƏYİ

– Gilənarın, alçanın
Çiçəyi necə olur?
– Görməmisən? – Ağappaq,
Özü də göyçək olur.
– Bəs zoğalın?
– Sapsarı.
– Narın necə?
– Qırmızı.
– Doğru deyirsən, qızım.
– Bəs qovağın çiçəyi?
Gülzar bir az duruxdu:
– Ata, məgər bilmirsən,
Onun çiçəyi yoxdu.
– Bəs meyvəsi necədir?
Çalış düzgün cavab seç.
– Çiçəyi olmayanın
Meyvəsi də olmaz heç.

**1985**

## QOVAQ

Mayası qara torpaq,
Kölgəsi yarpaq-yarpaq.
Gövdəsi sanki dirək,
Budağı nazik, kövrək.
Onun da meyvəsi var:
Əzəmət, düzlük, vüqar…

**1978**

## AĞAÇAY

Sən nə qədər durusan,
Ağaçay, ay Ağa çay.
Mənə bələdçi oldun,
Gedib çıxdım dağa, çay.

Bir bulaq paqqıldayır
Burda haraya baxsan.
Kəndimizdə çay idin,
Dağda kiçik bulaqsan.

## YONCA

Bir dəfə əksən məni
Bitəcəyəm yeddi il.
Mən əkilən torpağın
Otu qurtaran deyil.
Allı-güllü yoncayam,
Sevməyən var heç məni?
Suyumu ver, bir ildə
Yeddi dəfə biç məni…

**1974**

## TUMURCUQ

Düzülmüşəm budağın
Üstünə muncuq-muncuq,
Tumurcuğam, tumurcuq.
Yellər müjdə gətirər
Mənə ətirli yazdan.
Mən hələ ağacların
Yumulu gözləriyəm,
Açılaram bir azdan…

## ŞABALID AĞACI

Uzaqdan baxan zaman
Uca qoza bənzəyir.
Yamyaşıl yarpaqları
Budaqları bəzəyir.

Gəlirəm lap yaxına,
Baxıram diqqət ilə.
Yox, mən çaşmışam, qozun
Yarpağı olmur belə.

Budaqda yaşıl qoz yox,
Yaşıl-yaşıl qoza var.
Elə bil ki, balaca
Kirpilərdi qozalar.

Hərəsinin üstündə
Gör nə qədər tikan var?
Yetişməmiş meyvəni
Qoruyur bu tikanlar…

**1977**

## MƏHƏBBƏT AĞACI

Dəmirağac canlıdı,
Nə dəmirdi, nə daşdı.
Ürəyində sevgi var,
O, sehrli ağacdı.

Gövdəsi çox möhkəmdi,
Budaqlarısa uca.
Məhəbbət ağacı da
Deyirlər bu ağaca.

Yanaşı bitənlərə
Siz diqqətlə baxın bir;
Bu ağacın budağı
O ağaca əl verir.

"Əl əldən" yapışdımı,
Daha ayrılan deyil.
Bu budaq o budağa
Qaynaq olur elə bil…

**1987**

## TƏKİ AĞAC SAĞ OLSUN

Hava yaman soyuyub,
Köçür köçəri quşlar.
Bir gün qara dönəcək
Yağan soyuq yağışlar.

Məcnun küləklər gəzir
Dərələri, düzləri.

Elə bil ki, yol çəkir
Ağacların gözləri.

Qanadları olsaydı
Uçardı bu ağaclar.
Ayaqları olsaydı
Qaçardı bu ağaclar.

Ancaq əbəsdi, qardan,
Yağışdan qaçmaq olmaz.
Nə amansız payızdan,
Nə qışdan qaçmaq olmaz.

Yarpaqsız ağac heçdi,
Payızın nə vecinə.
Yarpağı qurban verib,
Çəkilir öz içinə.

Dinib-danışmır ağac,
Birə dolmur kürkünə.
Soyuqlar düşən kimi,
Sığınır öz kökünə.

Şirə qayıdır geri,
Axıb zoğlara dolur.
Küləklərin əlində
Quruca budaq qalır.

Qorxmasın bu xəzəldən,
Qoy meşə toxtaq olsun.
Yarpaq işi asandı,
Təki ağac sağ olsun…

**1987**

## SARMAŞIQLI AĞAC

Bu qurumuş ağaca
Sarmaşıbdır sarmaşıq.
Bir baxın, görün hara
Dırmaşıbdır sarmaşıq?!

Kökü yerdə olsa da,
Can atır uzaqlara.
Yaşıl bir tənzif kimi
Sarılıb budaqlara.

Siz bu qəşəng ağacın
Kölgəsinə gəlin bir.
Üstü sarmaşıqlıdı,
Qurumağı bilinmir.

Sanki bu quru ağac
Bir işıq dirəyidi.
Üstündəki lampalar
Sarmaşıq çiçəyidi.

**1986**

## SƏXAVƏTLİ AĞAC

Çəpərin dibindədir
Bizim alma ağacı.
Gör üstündə nə qədər
Meyvəsi var, ay bacı?

Barıyla, bəhəriylə
Düşüb dilə bizim bağ.
Aşıb, keçib çəpərdən
Üç-dörd meyvəli budaq.

Ağac üçün nə fərqi,
Ya o tay, ya da bu tay.
Onun budaq əlləri
Qonşuya uzadıb pay…

## AĞACIN NƏĞMƏSİ

Budağımı titrədən
Külək gəldi-gedərdi.
Yarpaq gəldi-gedərdi,
Çiçək gəldi-gedərdi.

Bu torpağa sadiqsə
Gövdəm, budağım, köküm,
Hər gedənin dalınca
Nə üçün qan-yaş töküm?!

O yarpaqlar, çiçəklər
Yaz üzə gülən kimi –
Gələcəklər,baharda
Qaranquş gələn kimi…

**1988**

## QOCA AĞAC

Çiçəklərdən, yarpaqlardan
Tez-tez qoyar başına tac.
Hər il, hər il yaz gələndə
Cavanlaşar qoca ağac.
Budağında körpə-körpə
Tumurcuqlar sırğalanar.
Yel əsəndə xoşbəxt-xoşbəxt,
Məğrur-məğrur yırğalanar…

## HEÇ BELƏ YARPAQ OLAR

Yamyaşıl budaqların
Arasına yaxşı bax.
İlin bu vədəsində
Nədir bu sarı yarpaq?

Özü də yarpaqların
Hamısından qəşəngdi.
– Heç belə yarpaq olar? –
Dost, bu, sarıköynəkdi…

## YAĞIŞ

Yenə damcı əlləriylə
Qapımı döyürdü yağış.
Ürəyinin istəyini
Astaca deyirdi yağış.

Güllərə, yasəmənlərə,
Nur selində çimənlərə,
Zəmilərə, çəmənlərə,
Çöllərə xeyirdi yağış.

Ağacların budağında,
Çiçəklərin qulağında,
Buludların dodağında
Nəğmədi, şeirdi yağış…

## XOŞ HALINA

Qaranlıqda mürgüləyər,
Yuxuya gedər çiçəklər.
Ləçək barmaqlar yumular,
Ovcunda qalar böcəklər.

Səhərəcən zərif güllər
Dönər sehrli beşiyə.
Gecələr nazik ləçəklər
Çevrilər yorğan-döşəyə.

Göylərdə alışıb yanan
Hər ulduz bir nağıl olar.
Böcəklərin bal yuxusu
Şipşirin bir nağıl olar.

Çiçəklərin bəbəyində
Yatanların xoş halına.
Arzusuna, muradına
Çatanların xoş halına…

**1992**

## ADINI BİLMƏYƏN GÜLLƏR

Bu necə olan işdi,
Lalə mənə baxmadı?
Ağkirpiyi səslədim,
Kirpiyi də qalxmadı…

Çağırıram, üzümə
Bircəyi də gülmür heç.
Bu güllərin çoxusu
Öz adını bilmir heç…

**1986**

## ARILARIN İŞ YERİ

– Güllərin sayı qədər
Bu çəməndə arı var.
Pətəkdən bura uçub,
Nə iş görür arılar?

– Bəs bilmirsən, bal yığır
Qonub çiçəyə, ota.
– Bu yamac arıların
İş yeridi, ay ata?

**1986**

## QARĞAGÖZÜ

Zəhərli bir bitkiyəm,
Adımsa qarğagözü.
Məni dimdikləməkdən
Çəkinir qarğa özü.

– Nə üçün zəhərlisən?
– Belə olmasam əgər,
Heyvanların hamısı
Məni otlayar, yeyər…

**1989**

# FƏSİLLƏR VƏ NƏSİLLƏR

## YAŞIL İŞIQ

Ağaclara baharın
İlıq nəfəsi dəycək,
Budaqlarda yarpaqlar
Yandı yaşıl işıq tək.

Tez ol, tez ol, əzizim,
Bizi səsləyir bahar.
Açılıb meşələrin
Qoynuna gedən yollar.

**1987**

## ZOĞAL ÇİÇƏKLƏYƏNDƏ

Ağaclar yuxusundan
Oyanmayıbdır hələ.
Meşədə sarı-sarı
Görünən nədir belə?

Bahar üçün darıxıb
Yurdumun dağı, düzü.
Həsrətdən saralıbdır
Bəlkə meşənin gözü?

O tərəfə kənardan
Yaxşı-yaxşı bax, şair.
Sarı donlu yarpaqlar
Sarı simə oxşayır.

Bu gözəl mənzərəni
Görənin gedir huşu.
Zoğal çiçəkləridi
Meşənin qaranquşu.

Bu çiçəkdən rəng alıb
Qaranquş döşü bəlkə?
Ta bulud çəkə bilməz
Qızıl günəşi bərkə.

Ağaclardan ən əvvəl
Çiçəkləyən zoğaldı.
Sənin zoğal dərməyin
Ancaq payıza qaldı…

**25.03.1986**

## SEHRLİ QAZAN

Bu qazanı qoymayın
Yanan ocağın üstə.
Bu qazanı asıblar
Uca budağın üstə.

Bu qazanın içində
Beş-altı yumurta var.
Örtülməsə qapağı,
Bişməz bu yumurtalar.

Bu qazanın qapağı
Ana quşun özüdü.
Yumurtanı "bişirən"
Ürəyinin közüdü.

Həftələr, günlər ötdü,
Bıy, birdən qalxdı qapaq.
Bu qazanın içindən
Boylanan quşlara bax!

**1987**

## BEŞ-ON GÜNƏ

Hər tərəf qupqurudu,
Baxıram çölə, düzə.
Beş-on günəcən bahar
Qonaq gələcək bizə.

Quru otun dibindən
Yamyaşıl ot bitəcək.
Yaşıl otun qoynunda
Quru otlar itəcək.

Sanki nəsə deyəcək
İlk bahar ürəklənib.
Yarpaqlar ağacların
Qulağımı şəklənib?

Küləklərin dilində
Bir mehriban pıçıltı.
Budaqların üstündə
Həsrət puçur-puçurdu.

İndicə günəş nənə
Hər yana nur saçacaq.
Bahar ota, ağaca
Ürəyini açacaq.

Paxıllıqdan çovğunun
Ürəyi partlayacaq.
Sevincdən ağacların
Çiçəyi çırtlayacaq…

**1986**

## ORABANA YAZ GƏLİR

Əsir yaz yelləri,
Əriyir kənddə qar.
Çöllərə, düzlərə
Tələsir ilk bahar.

Yavaşca sivişib,
Qış çıxır aradan.
Gül-çiçək ətrinə
Qərq olur Oraban.

Nur saçır günəşin
Qəlbinin alovu.
Elə bil yarışdır,
Qış qaçır, yaz qovur.

Ona bax, ona bax,
Aradan əkilir,
Döyüşə-döyüşə
Qış dağa çəkilir…

**1983**

## AĞACIN YAŞIL DONU

Onun sarı paltarını
Əynindən çıxarır külək.
Yarpaqları yerə düşür
Odlu-odlu göz yaşı tək.

Ağaca de, ağlamasın,
Darıxmasın zərrə qədər.
Bahar nənə onun üçün
Yaşıl don alıb gətirər…

**1987**

## YAŞIL ALOV

Yaz gəlir, tumurcuqlar
Budaqları bəzəyir.
Onlar kibrit çöpünün
Kükürdünə bənzəyir.

Bu “çöplər” alışanda
Çox gözəl görünəcək.
Quru meşə yamyaşıl
Alova bürünəcək…

**1987**

## PAYIZ – PAY ÜZ

Fəsillərin gözəli
Son bahardı –
Payızdı.
Oğlum girdi bağçaya,

Budaqlardan
Pay üzdü…
Ağacların budağı
Doludur meyvə ilə.
Deyirəm:
– Bəlkə payız
“Pay üz”
deməkdir elə?!

**1985**

## YAŞIL ÜMİD

Meyvə sovulub,
Uralanıb bağ.
Payız otları
Göz oxşayır, bax!

Budaqda əsən
Qızılı yarpaq,
Yaşıl çəmənə
Baxıb çəkir ah.

– İşlər yamanca
Düşübdü bərkə.
Bahar təzədən
Qayıdıb bəlkə?

Torpağa gəlib
İkinci nəfəs.
Niyə budaqda
Titrəyirəm bəs?

Ömrüm beş-on gün
Uzana barı!
Yaşıl ümiddi
Payız otları…

**1986**

## GƏLİB SƏNİ DƏ KƏSƏR

Pöhrə dedi: – Oğlanın
Əlində darağa bax.
İndi o gəlib mənim
Saçımı darayacaq.

Ağac bərk acıqlandı:
– Tez elə, səsini kəs! –
Daraq nədi, ay yazıq,
Mişar görməmisən bəs?

Onun adı gələndə
Ağaclar tir-tir əsər.
Sus, mişar acıqlanar,
Gəlib səni də kəsər.

**1985**

## AĞ KÖRPÜ

Sağ ol, sağ ol, qarlı qış,
Qeydimizə qalmısan.
Sən palçığın üstündən
Dümağ körpü salmısan.

**1984**

## ÇİÇƏYİN İÇİNDƏN KEÇİR

Bahar gəlib, çiçəkləri
Budaqlara ələyibdir.
Ağac körpə meyvələri
Ləçəklərlə bələyibdir.

Günəş çılpaq budaqların
Hərəsinə bir don biçir.
Meyvələrin ömür yolu
Çiçəyin içindən keçir.

**1986**

## YAYLAQDA

İnəklər otlayırdı
Yaylaqda şirin-şirin.
Onlara baxıb dedi
Bizim balaca Şirin:

– Ata, dağların otu
Nə üçün yumşaq olur?
İnək yaşıl ot yeyir,
Südü niyə ağ olur?

**1985**

## ÖZ İÇİNDƏ

– Ağacların budağını
Bəzəyibdir yenə bahar.
Əncir niyə çiçəkləmir,
Heç çiçəksiz barmı olar?

– Niyə olmur, meyvəyə bax,
Gözə dəyir orda-burda.
Budaqlara yarpaqla bir
Bəhər qonub yaşıl, xırda.

– Çiçəksiz bar olmaz axı,
Yaxşı-yaxşı düşün barı.
– Öz içində çiçəkləyir
Yəqin əncir ağacları.

**1986**

## BALACA ƏSGƏR

Necə papaq alsan,
Gəlməz xoşuna.
Əsgər pilotqası
Qoyar başına.

Danışmağı sevməz,
Çox vaxt susar o.
Çiynindən oyuncaq
Tüfəng asar o.

Hələ arzuların
beşiyindədi,
Hələ xəyalında
çatar ocaq o.
Hələ gül-çiçəyin
keşiyindədi,
Böyüyüb, Vətəni
qoruyacaq o.

**1983**

## NƏNƏM BÖYÜYƏNDƏ

– Çox yaxşıdı yaddaşı,
Sən bizim Aytənə bax.
Nə deyirəm dinləyir
Gözündə sonsuz maraq.

Tənbəlləri xoşlamır,
Balam zirəkdir yaman.
Ağıllı qız olacaq
Nəvəm böyüyən zaman.

…Nənə nağıl danışır,
Oturmuşuq üz-üzə.
Dinləyib nənəsini
Aytən başlayır sözə:

– Verdiyi tapmacaya,
Dediyi laylaya bax.
Bu nənəm böyüyəndə
Yaman nənə olacaq…

**1985**

## MƏN NƏNƏMİN GÖZÜYƏM

– Mənim gözlərim almır,
Oğlum, sınıb gözlüyüm.
Tez gəl iynəmi sapla,
Paltarları gözəyim.
–Yaxşı, indi gəlirəm…
– Səni çoxmu gözləyim?

…Nənəm deyir ki, onun
Ocağının közüyəm.
İynəsini sapladım,
Mən nənəmin gözüyəm.

**1985**

## PAYIZ LÖVHƏSİ

Payız yenə qonaq gəlir,
Göylər qaralıb, qaralıb.
Ağacın yarpaq gözünün
Kökü saralıb, saralıb.

Bu sarılıq hardan gəldi,
Tutqundur üzü dünyanın.
Bu sarılıq beş-on günə
Tutacaq düzü-dünyanı.

Elə dolub ki, buludu
Ovunduran kim olacaq?
Beş-on günə bu yarpaqlar
Sarı-sarı sim olacaq…

**1985**

## DƏNİZİ OYADAN QIZ

Qızım səhərlər durub,
Söyləyir ki, ay ata,
Tez ol gedək, dənizi
Yuxusundan oyadaq.

Qoşulub bizə gedir
Xəzərin sahilinə.
Balıqqulaqlarını
Götürərək əlinə

Atır suyun içinə,
Belə deyir Aybəniz:
– Tez ol, oyan yuxudan,
Tez ol, tez ol, ay dəniz!

## YUXUYA HƏSRƏT ANA

Bala yatandan sonra
Anaya növbə çatır.
Bəs niyə günəş ana
Hamıdan əvvəl yatır?

Yox, günəş ananın da
Yuxu getmir gözünə.
Yatmır, səhər aparır
Dünyanın o üzünə…

**1983**

## YAĞIŞ, MƏN VƏ ÇİÇƏKLƏR

Çimir yağış altında
Dərə-təpə, çöl-çəmən.
Çimir güllər, çiçəklər,
Çimir nərgiz, yasəmən.

Əlimdə bir dəstə gül
Yüyürdüm alaçığa.
Yağış hər şeyi yudu,
Məni basdı palçığa…

**1985**

## KÜLƏK

Yolların üzərində
Qanad çalan qara bax.
Əgər külək olmasa,
Yer olmuşdu ağappaq.

Əsir belədən-belə,
Hay-haray qoparır o.
Torpağın qar payını
Dənizə aparır o…

**1982**

## GECƏ NƏNƏ

– Laylay, mənim gözəl nəvəm, –
Nənə dinir, səs ucalır.
– Ay nənə, bəs nənələrə
Yatanda kim layla çalır?

– Böyüklərin hamısına
Gecə nənə çalır laylay.
Adamların üzündəki
Yorğunluğu yuyur lay-lay.

– Gecə nənə, gecə nənə,
Sən nənələr nənəsisən.
Bir laylay çal, nənəm yatsın,
Bəs sən nə vaxt dinəsisən?

**1984**

## DƏNİZ ÇİÇƏKLƏYİB

Durub seyr edir Xəzəri,
Gülür Yusifin gözləri.
Ağ dalğalar coşub-daşır,
Suların yuxusu qaçıb
Yusif deyir: – Dənizə bax,
Elə bil ki, çiçək açıb…

**1983**

## DƏNİZ HARDA ÇİMİR

Bir dəfə çimərlikdə
Belə söylədi Samir:
– Biz dənizdə çimirik,
Bəs dəniz harda çimir?

Fikirləşdi atası,
Nə cavab versin axı?
Hava birdən qaraldı,
Yağış yağdı şıdırğı…

– Dənizə yağış yağır,
Oğlum, sulara bax bir…
– Aha, tapdım, dənizlər
Yağış yağanda çimir…

## OTLAR NİYƏ SARALMAYIB

Payız gəlibdir yenə,
Dolub qara buludlar.
Yarpaqlar saralıbdır,
Hələ yaşıldır otlar?

Nədir bunun səbəbi,
Burda bir hikmətmi var?
– Axı otlar torpağa
Yarpaqdan yaxındırlar!…

**1982**

## NƏ ÜÇÜN PAYIZDA SOLUR YARPAQLAR

– Nə üçün payızda
Solur yarpaqlar?
– Soyuğun qurbanı
Olur yarpaqlar.

Torpağın istisi
Çatmır budağa.
Yarpaqlar budaqdan
Enir torpağa…

**1984**

## PAYIZDAN XƏBƏRİ OLMAYAN AĞAC

Qarşılayırıq
Az qala qışı,
Bu nə payızdır,
Yarpaqlar yaşıl!

Sanki xəzandan
Yoxdur xəbəri,
Gülür ağacın
Yarpaq gözləri.

Yaraşır ona
Zərif, yaşıl tac.
Korluq çəkməyib
Sanki bu ağac.

Torpağın canı
İstidir demək.
Yaşıl yarpağa
Neyləsin külək?

**1984**

## "MƏNSURİYYƏ"

Diktor əmi radioda
Söylədi: –"Mənsuriyyə".
Dünyanı bağışladı
Elə bil Mənsurəyə.

– İşini qoy kənara,
Bir qulaq as, ay nənə.
Eşitdin, bu muğamı
Həsr eləyiblər mənə.

Zildən zəngulə vurdu
Elə bu vaxt xanəndə.
Muğamın xoş sədası
Yayıldı bütün kəndə.

Səslər bulaq suyu tək
Şaqqıldayıb axırdı.
Qız nənəyə, nənəsə
Uzaqlara baxırdı…

## QIŞA HAZIRLIQ

– Niyə çılpaq qoyursan
Bu uca budaqları?
Ay payız, sən nə üçün
Tökürsən yarpaqları?

– Ağaca xeyir gəlməz
Bu saralmış xəzəldən, –
Qışa hazırlayıram
Mən onları əzəldən.

Yarpaqlı ağacların
Budağına yağsa qar,
Ağırlıq edib bir-bir
Budaqları sındırar…

**1985**

## QIŞIN SOVQATI

Qışam, qar ələyirəm,
Diqqətlə bax bir göyə!
Mən gələndə ağaclar,
Kollar gedir mürgüyə…

Yuxulamış torpağın
Nəyinə gərəkdi su? –
Buludların zəhməti
Niyə havayı olsun?

Ona görə yağışı
Döndərirəm mən qara.
Üst-üstə qalaqlayıb,
Saxlayıram bahara…

**1977**

## QAR ÜSTÜNDƏ YAZILAR

Dümağ qarın üstündə
Heyvanların rəddi var.
Bir-birinə bənzəmir,
Hər kəsin öz xətti var.

Oxu gör nə yazıblar? –
Hünərin çatır, buyur.
Kamil ovçu onları
Asanlıqla oxuyur…

**1987**

## YURDUMA BAHAR GƏLIB

Yurduma bahar gəlib,
Seyr edirəm çəməni.
Sanki yerə qoyublar
Çəmən boyda səməni.

Çiçəkləri görənin
De, gəlməzmi həvəsi? –
Sanki yaşıl xonçada
Yanan şamdı hərəsi…

**1986**

## BIR CÜT TUMURCUQ

Elə bil ki, bir cüt gözdü,
Tumurcuğa bax.
Birində çiçək gizlənib,
Birində yarpaq.

De, hansı tez açılacaq:
Yarpaq, ya çiçək?
Oğlum alça ağacına
Baxdı sevincək.

Dedi: – Ata, üç-dörd günə
Qızacaq torpaq.
Əvvəl çiçək açılacaq,
Sonra da yarpaq…

**1986**

## TÜLKÜ BAHARI NİYƏ SEVMİR

– Bilirsənmi nə üçün
Tülkü sevmir baharı?
– Çünki bahar gələndə
Günəş əridir qarı.

– Qar əriyir ərisin,
Tülkünün nə vecinə?
– Axı onda su damır
Yuvasının içinə! –

Porsuğun, siçanın da
Üzünü bürüyür qəm.
Onların evləri də
Yaz gələndə olur nəm.

Yer altında yerləşən
Yuvalar dərin olur.
Qışda isti, yazda nəm,
Yayda səpsərin olur…

**1987**

## BOY ARTIMI

Nə payızda, nə də qışda
Ağacların boyu artmır.
Gecə-gündüz boy atsam da,
Ağaclara boyum çatmır.

**1983**

# SİZDƏN HƏRƏKƏT, BİZDƏN BƏRƏKƏT

## TEZ BOY AT

A körpəcə ağacım,
Səni hara aparım?
Kiçik budaqlarını
Dana-buzov qoparıb.

Qoruyuram mən səni,
Qoy əməyim batmasın.
Tez boy at, inəklərin
Ağzı sənə çatmasın…

**1985**

## DƏMİR YUMAQLAR

Yolbasan yola çıxıb,
Küçəmiz təzələnir.
Təkərləri elə bil
Yumaqdı, çözələnir.

Aldatmıram mən sizi,
Gəlin baxın, uşaqlar.
Fırlandıqca, açılıb
Küçə olur yumaqlar…

**1989**

## KAKTUS

Kaktus sanki kirpidi,
Yumulub yumaq kimi.
Əl uzatsan, oxları
Sancılar sancaq kimi.

Ona mehriban olsan,
Mütləq açacaq çiçək. –
Kirpi kimi yavaşca
Tikanlar arasından
Burnunu göstərəcək…

**1989**

## İSTİXANA

Atam istixanada
Çiçək əkib-becərdi.
Qışın oğlan çağında
Ləkdə şitil cücərdi.

Axı istixananın
Örtülü olur üstü.
Yeri isti olanda
Toxum bitir əlüstü.

İstixana qışda da
Süfrələri bəzəyir.
İstixana şüşəsi
Bir qalxana bənzəyir.

Nə qədər sərt olsa da
Qışın şaxta qılıncı –
Şüşə qalxan üstündə
Əzilir xıncım-xıncım…

**1986**

## AĞAC BOŞ QAYTARMADI

Ağacın dibindəki
Torpağa bax, çat-çatdı.
Nə yaxşı ki, tez gördüm,
Onun hayına çatdım.

Bir vedrə su apardım,
Tökdüm, ləzzətlə içdi.
Budaqlardan almalar
Qopub vedrəmə düşdü.

Necə gözəldir ətri,
Necə əladır dadı!
Pay apardığım qabı
Ağac boş qaytarmadı…

**1985**

## YERALTI ƏKİNÇİ

Bizim həyətimizdə
Çoxlucadı, çoxluca.
Ora-bura soxulur,
Adı qalıb soxulcan.

Yeraltı əkinçidi,
Başladımı əkinə,
Sığal çəkir torpaqda
Ağacların kökünə.

Keçdiyi yer su üçün
Hava üçün yol olur.
Soxulcanlı torpağın
Mer-meyvəsi bol olur.

O, həm də sinoptikdir,
Torpaqdan çıxsa çölə,
Demək yağacaq, hər yan
Batacaq suya, selə.

Qoyma qurusun, yerə
Su ver, su ver çoxluca.
Quraqlıq düşən kimi
Tələf olur soxulcan…

**1989**

## BU MAŞININ YÜKÜ ÇİÇƏK

– Ay uşaqlar, axın-axın
Maşınıma gəlin yaxın!

– Bu ki, bir ovuc çəməndi,
Çiçək bitən bana baxın!

Bu maşının yükü çiçək,
Yavaş-yavaş ipini çək.

Torpaq töküb gül əkmisən,
Bu kuzovdu, yoxsa dibçək?

**1986**

## BULAĞA BAXAN AĞAC

Kənardakı bulağa
Ağac gör necə baxır?!
O, su həsrətindədi,
Su elə-belə axır.

Ağacı bulaq üstə
Necə aparım axı?
Arx çəkib, kölgəsinə
Gətirərəm bulağı…

**1986**

## YOLAYRICI

Əllərimin içində
"Ayaq izləri" boldu.
Ovcum yolayrıcıdı,
Hər barmağım bir yoldu.

Bax, bu yol ayrıcında
Neçə səyyah görüşür.
Həmin yollardan keçir
Dünyanın hər bir işi…

**1986**

## YELLƏNCƏK

Gətir bura sicimi,
Mən göstərim gücümü.

Boş-bekar oturmuşuq
Bu kölgədə bayaqdan.
Çıxıb yelləncək asım
Ən uca bir budaqdan.

Göylər məni gözləyir,
Tez ol, tez ol, ləngidim.
Ayaq qoydum sicimə,
Sandım ki, üzəngidi.

Əyilib qalxdım tez-tez,
Özümü yırğaladım.
Yelləncək köhlən kimi
Altımda yorğaladı…

## VERTALYOT

– Vertalyota baxın bir,
Caynağında borular;
Elə bil şirə yığıb,
Bal aparır arılar.

– Yaman da söz danışdın,
Boru hara, bal hara?
Vertolyot yük daşıyır
Əl çatmayan dağlara.

– İnsanlar boruları
Uc-uca bağlayacaq.
Onların içi ilə
Dağ suyu çağlayacaq…

**1984**

## TƏKƏR

Əgər təkər olmasa,
Maşınlar necə gəzər?
Şini olmayan maşın
Qanadsız quşa bənzər.

Təkərə bax, elə bil
Bir dəyirman daşıdır.
Ancaq dən üyütmür o,
Çiynində yük daşıyır.

Girdədi qoğal kimi,
Yox-yox, ondan iridi.
Fırlanmağa başladı,
Maşınımız yeridi.

Yolları qurşaq kimi
Ortasına doladı.
Birdən üstündən keçər,
Oğlan, bir az dala dur!

Təkərlər fırlandıqca
Sürətlə gedir maşın.
Bütün gün hərlənsə də,
Gicəllənmir heç başı…

**1985**

## SUAL-CAVAB

– Çiçək nədir?
– Üzmüşəm.
Güldanlara düzmüşəm.
– Ağac nədir?
– Əkmişəm,
Qayğısını çəkmişəm.
– Meyvə nədir?
– Dərmişəm,
Dostlara göndərmişəm…

## AĞACLARIN ŞƏHƏRİ

Hər ağacın qarşısında
Ehtiramla ayaq saxla.
Burda nə qədər ağac var,
Qurtararmı sanamaqla?!

Qəlbimizə fərəh dolur
Uzandıqca meşə yolu.
Şəhərin adamı çoxdu,
Meşənin ağacı, kolu.

Biz meşəyə gedən zaman
Bir günəşli səhər idi.
Oğlum dedi:
–Yəqin meşə
Ağacların şəhəridi…

**1983**

## DULUSÇU NƏĞMƏSİ

Dulus kürəm, közər, közər,
Gil bişirim gözəl-gözəl.

Yoğurduğum həmin gildən
Hazırlayım kuzə, güldan.

Dulus çarxım, hərlən, hərlən,
Saxsı qablar düzəldim mən.

Bu qabları naxışlayım,
Dost-tanışa bağışlayım.

**1985**

## OCAQ

Yenə qarlı qış gəlib,
Ağ geyinib dağ-dərə.
Şaxta buz qılıncını
Siyirib, istəyir ki,
Ağaclara endirə.

Buza döndü əl-ayaq,
Tez ol, ocaq qalayaq.
Ağacları isitsin
İstisi.
Şaxtanı kor eləsin
Tüstüsü…

**1983**

## YADİGAR

Nənəmgilin həyəti
Elə bil ki, meşədi.
Bu fındıq, bu da əzgil,
Nara bax – gülöyşədi.

Bu alma, bu da armud,
Bu zoğal, bu gilənar.
Bu əncir, bu şaftalı, –
Nə ağac istəsən var.

Çinar göyə baş çəkir,
Qovaq ondan ucadı.
Palıd – dibi kölgəli,
Həyət tamam yoncadı.

Ağacın budağında
Bülbüllər vurur cəh-cəh.
Biz uzanıb kölgədə
Belə deyirik: – Bəh-bəh!

Budaqlarda nə qədər
Heyva, armud, nar qalıb.
Bu bağ Yusif babamdan
Bizə yadigər qalıb…

**1984**

## BÖYÜYƏ SARI

Dünya yaranan gündən
Yağış yağır, yel əsir.
Bulaqlar çaya axır,
Çay dənizə tələsir.

Bu qaydadır əzəldən,
Gəlirik görə-görə:
Kiçiklər can atırlar
Böyüklər olan yerə…

**1990**

## BAĞDA MEYVƏ DƏRƏN QIZ

Bağda meyvə dərən qız
Oxuyur həzin-həzin.
Yarpaqlar hey titrəyir,
Dolub güllərin gözü.

Almalar sırğa kimi
Aşağıya sallanıb.
Meyvə dolu budaqlar
Nəğmədən xoşallanıb.

Elə bil ağacların
Nur çilənib üzünə.
Qopub düşmək istəyir
Meyvələr öz-özünə…

**1988**

## YƏQİN

Bağda meyvə dərən qız
Hey oxuyur bayaqdan.
Narı yığır səbətə
Bir-bir yığıb budaqdan.

Narlıqdan uzaqlaşdı,
Almalığa döndü o.
Nəğmə kəsildi, yəqin
Alma yeyir indi o…

**1988**

## KAL

Armud dərmişəm iki cib,
Babam məndən bərk inciyib.

Bir-bir dişləyib atıram,
Deyirəm: – Armudlar pisdi.
Kişi minir cin atına,
Belə deyir hirsli-hirsli:

– Qulağını çəkəcəyəm,
Bir də almanı kal yolsan!
Dəymişi seçə bilmirsən,
Sən özün də hələ kalsan…

**1987**

## TAYA

Yayda taya vurmayan
Qışda qalar avara.
Nə qədər ki, taya var,
Zaval yox mal-davara.

Daşı küləşdən, otdan,
Üst-üstə yığ, dağ olsun!
İnəklərin üzündən
Qəm buludu dağılsın.

Göyə dirənən o "dağ"
Ərisin qış uzunu.
Bahara sağ çıxarsın
O, qoyunu, quzunu…

**1986**

## QARA GÜNƏŞ

Səhərdən bəri
Közərir ocaq.
Ocağın üstdə
Saca bax, saca!

Üstündə bişir
Nəpnazik yuxa.
Qalmışıq saca
Biz baxa-baxa.

Onun şəfəqi
Üzlərə düşdü.
Sac elə bil ki,
Qara günəşdi…

**1987**

## OVDAN

Bir payız günü
Gəlirdim ovdan,
Qarşıma çıxdı
Gözəl bir ovdan.

Pillələr ilə
Endim aşağı,
Üzümə düşdü
Suyun işığı.

Parçı doldurub
Çəkdim başıma.
Nə yaxşı, ovdan
Çıxdı qarşıma.

El arasında
Hörmət qazanıb,
Əli var olsun
Ovdan qazanın…

**1986**

## ŞƏHƏR ÇİÇƏKLƏYƏNDƏ

Hər işığın başına
Neçə adam yığışır.
Qaranlığı əridir
Qızıl çiçək yağışı.

Lampaları saymaqla
Qurtarmaq
mümkün deyil.
Gecələr şəhərimiz
Çiçəkləyir elə bil…

**1987**

# QAZAXISTAN NƏĞMƏLƏRİ

## QAZAXISTAN TORPAĞI

Bu torpaq çox genişdi,
Yox ucu, yox bucağı.
Ona ana deyənə
Açıq olub qucağı.

Bərəkət dənizidi
Dalğalanan zəmilər.
Üzür onun qoynunda
Kombaynlar – gəmilər.

Təzadlar diyarıdı
Əzəl gündən bu torpaq.
Dağı qardan üşüyür,
Təndir dərəsinə bax!

Bir tərəfində dəniz,
Bir tərəfində meşə.
Çəmənlərdə çiçəklər
Gəl-gəl deyir günəşə.

Bir tərəfdə quzular,
Bir yanda acgöz qurdlar.
Bir yanda göydələnlər,
Bir yanda qədim yurdlar.

Bir yanda bomboş səhra,
Bir tərəfdə çiçəklik.
Bir yanda uca zirvə,
Bir tərəfdə çökəklik.

Heç təəccüb eləmə,
Çaylar kükrəyib axsa.
Səhrayla gedən zaman
Qarşına göllər çıxsa.

Bu torpaq çox genişdi,
Yox ucu, yox bucağı.
Ona ana deyənə
Açıq olub qucağı…

**1989**

## BAYÇIÇƏK

Ürəyim hey atlanır,
Əsir sərin küləklər.
Çəmən sanki dənizdir,
Ləpəsi ağ çiçəklər.

Qaçır qızlar, oğlanlar,
Yaman qovhaqov düşüb.
Bu dağlara, düzlərə
Elə bil qırov düşüb…

Yoxsa qar ələnibdir
Yol boyu sağa, sola?!
Adamlarçın darıxıb,
Çiçəklər çıxıb yola…

Bəlkə noğul səpiblər
Bu düzə, o yamaca?!
Maşından düşmək üçün
Tələsirəm yamanca.

Yol boyu işıq saçır
Çiçəklər çınqı-çınqı.
Ürəyimin başında
Bu nə od, bu nə yanğı?

Ləçəklərin zərifdi,
Nə qəşəngsən, ay çiçək!
Bizdə Novruzgülüsən,
Burda isə Bayçiçək.

**1989**

## TƏKƏLİ

Cunqar Alatausu –
Cunqar ala dağları.
Ətəyində salınıb
Gözəl alma bağları.

Bir igid baş qoyubdur
O dağın dizlərinə.
Sevincindən ta heç nə
Görünmür gözlərinə.

O igid – bir şəhərdi,
Yaraşıqlı bir şəhər.
Şaxtaçılar qoynunda
İşləyir axşam, səhər.

Təkəli – dağ şəhəri,
Təkəli – bir tamaşa.
Evləri təkə kimi
Dırmanıb dağa, daşa.

**1989**

## ŞUBAT

Susamışdım yamanca,
Ondan bir fincan içdim.
Ürəyim rahatlandı,
Elə bil yanğım keçdi.

Dedim: – Yağlı ayrandı,
Turşusa da, babatdı.
Güldülər: – Ayran nədi?! –
İçdiyiniz şubatdı.

Şubat dəvə südüdü,
Ayran hara, o hara?!
Biz onu içirdirik
Ən əziz qonaqlara.

**1989**

## BEŞBARMAQ

Bizi qonaq çağırıb
Evinə Beken dayı.
Ürəyi ovsunlayır
Dost sovqatı, dost payı.

Sevincindən uçur o,
Yer də tapmır özünə.
Qəlbi tək süfrəsi də
Açıqdı dost üzünə.

Xəmir yayılıb, sonra
Doğranıb yarpaq-yarpaq.
Üstünə ət döşənib,
Ətrinə, dadına bax?!

Hey buğlanır ortada
Süfrə şahı – Beşbarmaq.
– Çəngələ nə ehtiyac,
Əgər varsa beş barmaq? –

Deyib gülür dostumuz, –
Di durmayın, tələsin!
Boşqablarda tığlanır
Bir anda ət təpəsi.

Gülür:
– Bizdə məsəl var,
Qulaq asın diqqətlə:
"Qazaxla canavarı
Doydurmaq olmaz ətlə".

Zarafat zarafata
Qoşulur… Üzlər gülür.
Yan otaqdan tanburun
Qəlb açan səsi gəlir…

**1989**

## ALATAU

Alatau, Alatau,
Ala dağsan, ala dağsan.
Mütləq səni görənlərin
Yaddaşında qalacaqsan.

Başından qar əskik olmur,
Ətəklərin gülür üzə.
Zirvələrin iynə-iynə,
Küknarların nizə-nizə.

Yağan qarı pambıq kimi
Şiş ucun didir, dağıdır.
Sənin diş-diş zirvələrin
Elə bil yun darağıdır.

Alatau, mən boynuma
Ağır bir yük götürmüşəm.
Kəpəzimdən, Qoşqarımdan
Sənə salam gətirmişəm.

**1989**

## MEDEO

Əvvəlcə güc ver dizinə,
Pillələrlə zirvəyə qalx.
Sonra ordan Medeonun
Qəlb oxşayan hüsnünə bax.

Ürək də bir dağa dönür
Baxanda bu qarlı dağa.
Söz acizdi, dil acizdi
Göz görəni danışmağa.

Buz meydança gəl-gəl deyir,
Sevincdən ürəklər əsir.
Medeo şamdır, oğlanlar,
Qızlar onun pərvanəsi…

**1989**

## ALMA ƏTİRLİ ŞƏHƏR

Hey yol gedir ata, oğul,
Bitib tükənmir boz çöllər.
Ayaqlarda taqət yoxdur,
Dünyadan üzülüb əllər.

Birdən gözlərə nur gəlir
Görünəndə qarlı dağlar.
Bu dağların ətəyində
Gəl-gəl deyir yaşıl bağlar.

Oğul sevinclə qışqırır:
– Alma, ata! Alma, ata!
O zamandan bu yerlərin
Adı qalıb Alma-Ata.

İnsanlar axışıb gəlir,
Ötür illər, qərinələr.
Alma bağları yanında
Salınır bir gözəl şəhər.

Alma-Ata, Alma-Ata,
Mənim işıqlı səhərim.
Alma-Ata, Alma-Ata,
Alma ətirli şəhərim…

**1989**

## YEDDİ ÇAY

Yeddi hörük, yeddi yol,
Yeddi damar – yeddi çay.
Əsrlərlə bu yerdən
Axıb, axıb getdi çay,
Yeddi çay.

Tanımadı deyəsən,
Yanımızdan ötdü çay.
Qayaların üstünü
Yorğan kimi örtdü çay,
Yeddi çay.

El öyünər boyuyla,
Su həyatdı, suyuyla,
Bol sovqatı, payıyla
Hamını şad etdi çay,
Yeddi çay.

Düşdüm geniş çöllərə,
Salam verdim güllərə,
Təşnəyəm bu ellərə,
Köməyimə yetdi çay,
Yeddi çay.

**1989**

# SEHRLİ ALƏM

## AĞ YOLLARIN YOLÇUSU

Əlimdə quş tutmuşam,
Ona yaxşı baxın bir.
Dimdiyiylə dənləmir,
Dimdiyiylə dən səpir.

Kim bilir Əlifbanı,
O dənləri "dənləsin".
Quşum mahnı oxuyur,
Onu hamı dinləsin.

Birdən dönür yolçuya,
Yeriyir, batmır qara.
Gedir, dümağ düzlərdə
İzi qalır qapqara.

Onun yolu dolama,
Onun yolu dimdikdi.
Ayağına fikir ver,
Elə bil ki, dimdikdi.

O səyyahın dalınca
Sən də gedəsən gərək.
O yolçu – karandaşdı,
Qarlı düzlər – ağ vərəq…

**1987**

## SEHRLİ VAĞZAL

Evimizin yanında
Sehrli bir vağzal var.
Cərgə-cərgə düzülüb
Qucağında qatarlar.

Neçə-neçə mənzilə
Düşər onların yolu.
Yükləri boşalsa da,
Vaqonlar qalar dolu.

Bu qatarın önündə
Yandırsan yaşıl işıq,
O, sənin həyatına
Olar bəzək, yaraşıq.

Bura kitabxanadı,
Adicə vağzal deyil.
Diqqətlə bax, hər kitab
Bir vaqondu elə bil.

Dayanıblar hamısı
Rəflərdə qatar-qatar.
Bu vaqonların yükü
Çatar, sənə də çatar.

Bu, sehrli qatardı,
Hamını inandırın.
Bu qatarın yolunda
Yaşıl işıq yandırın!

**1987**

## BU KİTABIN SƏTİRLƏRİ

Kitab yazıb insan oğlu
Dağlar, düzlər boyunca.
Sətirləri bircə-bircə
Calayıbdır uc-uca.

Keçir dərənin qoynundan,
Aşır dağın belindən.
Bu sətirlər bərk-bərk tutub
Bir-birinin əlindən.

Oxuyuruq bu kitabı
Əyləşərək maşında.
Bir şəhər var, bir bulaq var
Hər cümlənin başında.

Oxuyuruq: göz önündə
Neçə-neçə mənzərə.
Oxuduqca vuruluruq
Maralgölə, Xəzərə…

Haralara gedib çıxmır
Bu misranın bir ucu?
Onu hər gün əzbərləyir
Neçə-neçə sürücü.

Cümlələrə kölgə salan
Ağaclardı, kollardı.
Bu kitabın sətirləri
Cığırlardı, yollardı…

**1987**

## NƏNƏ QAPISINA QONAN SAĞSAĞAN

Dərs qurtarıb, Gurseli
Aparıram kəndə mən.
Hazırlaşır, baxıram
Dayanaraq gendə mən.

…Gəlib çatdıq vağzala,
Qanadı yoxdur uça.
Oyuncaq da aparır
Özü ilə bir qucaq.

Qatar yola düşəndə
Oğlum sevincək dindi:
– Nənənin qapısına
Sağsağan qonub indi…

**1986**

## İLK İMTAHAN

Biletlərə hazıram,
Niyə qorxuram axı?
Sabah ilk imtahandır,
Gözümə getmir yuxu.

Yorğanımın altında
Eləyirəm zümzümə.
Bildiyim qaydaları
Danışıram özümə.

Suallara cavabı
Verirəm bircə-bircə.
Səhər niyə açılmır,
Niyə uzanır gecə?!

“4” almaqdan qorxuram,
“3”dən danışma qəti.
Beşinciyə “5” ilə
Keçmədin, nə ləzzəti?!

**1989**

## ƏMİMGİLƏ GEDƏNDƏ

Mən papağımı
Başıma örtdüm.
Sözə baxmadım,
Hamını ötdüm.

Anam qışqırdı:
– Bizi də gözlə!
Qaçdım qabaqda,
Baxmadım sözə.

Birdən kükrədi
Hay-haray salıb,
Mənim başımdan
Papağı alıb,

Anama sarı
Qaytardı külək:
– Adam böyüyü
Gözləsin gərək!

**1988**

## YUN ÇUBUĞU

– Əmi, əmi, yon çubuğu,
Düzəlt bizə yun çubuğu.

Qırxdırmışıq şişəkləri,
Qalınladaq döşəkləri.

Yunu yuyub yerə sərək,
Sonra onu çırpaq gərək.

Biz döydükcə çubuq ilə,
Yun yumşalıb olsun pilə.

Nənəm salsın yorğan-döşək,
İçi yumşaq, üstü qəşəng…

– Aysel, gəl səni də çırpaq,
Həm qəşəng ol, həm də yumşaq.

– Əmi, mən yaxşı uşağam,
Özüm də ki, yupyumşağam…

**1989**

## SACA TƏLƏSƏN XƏMİR

Nənə xəmir yoğurub,
Vurub ona acıtma.
Yazıq nəvə neyləsin,
Hey deyinir, acıb da!

Nənə deyir: – Tələsmə,
Hələ gəlməyib xəmir.
Teştin üstünü açıb,
Nəvə baxır arabir.

Üzünə sevinc qonur,
Qışqırır qaça-qaça:
– Oy, xəmir teştdən daşır,
Yəqin tələsir saca…

**1989**

## TELEFON SÖHBƏTİ

Zəng edib Moskvadan
Sumqayıtla danışdım.
Bu səs necə doğmadı,
Bu səs necə tanışdı!

O səsi eşidəndə
Qəlbimdə yanır işıq.
– Ata, necəsən, ata,
Səninçün darıxmışıq.

– Niyə məktub yazmırsan?
– Göndərmək deyil asan.
Sənə məktub yazmışam,
Gələndə oxuyarsan.

**1986**
**Moskva**

## HƏR ŞEYİ BİZDƏN SORUŞUR

İlk dəfə dərsə getsəm də,
Bacarıram oxumağı.
Bu “A”, bu “B”, bu da “V”di,
Burda çətin nə var axı?!

– Bu nə hərfidi? – Oğlandan,
Gah da ki, qızdan soruşur.
Bizim müəllim heç nə bilmir,
Hər şeyi bizdən soruşur…

**1986**
**Moskva**

## KİTABLAR

Mənim kitab rəfimə
Gəlin bir az yaxın siz.
Bir-birinə söykənən
Qonşulara baxın siz.

Sözlə dolu olsa da
Hamısının sinəsi,
Sakitcə əyləşiblər,
Çıxmır birinin səsi.

Durub qaça bilmirlər,
Düşüb gəzə bilmirlər.
Yazıqlar bir-biriylə
Kəlmə kəsə bilmirlər.

Elə ki, götürürsən
Sən onları əlinə,
Dil çatdırmaq olmayır
Heç birinin dilinə…

**1987**

## DAYANACAQ

Küçənin kənarında
Qondarıblar köşk kimi.
Nə qarda, nə küləkdə
Darda qoymaz heç kimi.

İstilərdə kölgəlik,
Yağışda çətir olar.
Maşınlar gələnəcən
Bizi qoynuna alar.

Əl qaldırma, onsuz da
Avtobus dayanacaq.
Bapbalaca vağzaldı
Sanki hər dayanacaq…

**1987**

## CIĞIRDA YAŞIL İŞİQ

Meşə yolu qaranlıq,
Dovşan çaşdı bir anlıq.

Onun yolu üstündə
Nədir belə nur saçan?

İşıqfor qondarıblar
Bu cığırda bəs haçan?

Yaşıl işıq yandısa,
Deməli, yol açıqdı.
Bəs şələquyruq dovşan
Nə üçün yoldan çıxdı?

Dönüb geriyə qaçdı,
Neyləsin yazıq dovşan?!
Çünki qurd gözləriydi
Cığırda parıldayan…

**1987**

## KOR KÜLƏK

Ay külək, o yandan əs,
Ay külək, bu yandan keç!
Hara gəldi gedirsən,
Deyəsən görmürsən heç!

Gah daşa çırpılırsan,
Gah dağa çırpılırsan.
Gah da ki, qələməli
Budağa çırpılırsan.

Gözün görsəydi əgər,
Dayanıb bir anlığa,
Yolunu dəyişərdin,
Girməzdin tikanlığa…

**1987**

## SAZ

Köklədi,
Sazı
Sazladı.
Aşığın
Sözü
Sazladı.
Qulaq asdıq
Telli saza,
Yaddan çıxdı
Çovğun, sazaq.
Saz dindi,
Sazaq əridi,
Qış çevrilib
Döndü yaza.

**1988**

## YAŞIL QAYIQ

Budağa dırmanan zaman
Heç bilmədim necə oldu, –
Balası yıxıldı suya,
Yazıq ana haray saldı.

– Mənim balaca qarışqam
Gölməçədə əsr, kömək!
Dönüm gözünə, ay ağac,
Yarpağını əsirgəmə!

Ağac yamanca kövrəldi,
Tez suya bir yarpaq atdı.
O, boğulan qarışqanın
Vaxtında dadına çatdı.

Qalxdı yarpağın üstünə,
Qarışqa cəld çıxdı sudan.
Kiçik yarpaq gölməçədə
Dönüb oldu yaşıl ada.

Ana qarışqa indi də
Yaz mehini tutdu dilə:
– Ağrın alım, o yarpağı
Gətir yanıma, sahilə!

Yaşıl ada qayıq oldu,
Yavaş-yavaş üzüb gəldi.
Qarışqa öz anasının
Ürəyini üzüb gəldi…

**1987**

## AQŞİNİN TOPU

Atası top almışdı
Aqşin üçün təptəzə.
İstədik ki, oynayaq,
O, bərk təpindi bizə.

Dedi: –Tək oynayacam,
Topuma əl vurmayın.
Çıxın bizim həyətdən,
Qapımızda durmayın.

Balaca dostumuza
Cavabımız sərt oldu.
Hamımız üz döndərdik,
Aqşin yaman pərt oldu.

– Zarafat eləyirdim,
Uşaqlar, gəlin yaxın.
Topla tək oynamağın
Nə ləzzəti var axı?!

**1986**

## YƏQİN

Bir gün Arzunu
Nənəsi öpüb,
Dedi: – Üstünə
Kim ətir səpib?

– Heç kəs, çəməndə
Uzanmışam mən.
Yəqin gül ətri
Gəlir üstümdən…

**1986**

## XƏYYAMIN SALDIĞI ŞƏHƏR

Domino daşlarını
Xəyyam düzdü yan-yana.
Söylədi ki, mənə bax,
Şəhər salıram, ana.

Axırıncı "bina"nı
Ucaldanda, – nə işdi? –
Kimsə onun tikdiyi
Evləri ot tək biçdi.

Ehtiyatlı olsaydı
Əgər Xəyyam bir qədər,
Bircə daş aşmaq ilə
Uçmazdı bütün evlər…

**1986**

## SAMİR MƏNİ QOCALTDI

– Bu nədi, Gursel, qaqaş?
– Görmürsən, kəpənəkdi.
– Bəs bu qırmızı nədi?
– Təzə açan çiçəkdi.
– Bəs bu nədi?
– Göbələk.
– Bəs bu nədi?
– Çiyələk.
– Bəs bu, bəs bu?!
– Olmadı, –
Gursel kitabı atdı.
Hirslə dedi:
– Ay bibi,
Samir məni qocaltdı.

**1989**

## BU HƏRFİ KEÇMƏMİŞİK

Gözləri ağrıyırdı,
Baxıb yoxlamaq üçün
Apardılar Babəki
Göz həkiminə bir gün.

Qapayıb bir gözünü
Üyüdüb tökürdü o.
Həkim göstərən hərfin
Adını çəkirdi o.

"Ş" hərfində duruxdu. –
Sənə nə oldu belə?
Dedi: – Həkim, bu hərfi
Keçməmişik biz hələ.

**1989**

## GÜNAHKAR

Böyüsəm də nə qədər,
Boy atsam da ilbəil,
Mənim "kiçik" sözündən
Yaxam qurtaran deyil.
İnanırlar Gündüzə,
İnanırlar Gülzara.
Kimdi məni göndərən
Axı dükan-bazara?
"Kiçik" sözü əngəl tək
Həmişə qarşımdadı.
Böyüklərə baxın bir,
Özlərini öyürlər.
Günahların hamısı
Böyük qardaşımdadı,
Ona baxıb, həmişə
Mənə kiçik deyirlər…

**1990**

## DƏNİZ NİYƏ DUZLUDUR

– Dəniz niyə duzludur? –
Fikirləş yaxşı-yaxşı.
– Sularına qarışıb,
Balıqların göz yaşı.

**1986**

## AĞANIN GİLEYİ

Çantamda dəftər, kitab,
Ay ana, yaman çoxdu.
Məktəbə çörək, meyvə
Götürməyə yer yoxdu…

**1986**

## AYSELLƏ ZARAFAT

– Aysel, Aysel, indi səni
Diri-diri yeyəcəyəm.
– Əmi, boğazın ağrıyar,
Bişməmişəm, hələ çiyəm...

**1989**

## SAMOVAR AŞIRAN QIZ

Samovarı aşırdı,
Üstünə su çiləndi.
Nigar haray qopardı,
Gözündən yaş ələndi.

Qaçıb gəldi bibisi,
Qaçıb gəldi xalası.
Düşməyibmiş qaynara
Nə yaxşı ki, hələ su.
Qəm buludu çökmüşdü
Qonaqların üzünə.
Başlandı dava-dərman,
Uşaq gəldi özünə.
Birdən soruşdu Nigar:
– Sınmadı ki, samovar?
Hamı güldü, üzlərdə
Təbəssüm çiçək açdı.
Nigar qalxıb ayağa
Evdən həyətə qaçdı…

**1988**

## ADAM DİŞLƏYƏN STUL

Bağda köhnə stul var,
Ora-bura laxlayır.
Bilmirəm ki, heç atam
Onu niyə saxlayır?

Cırıldayır, səs salır,
Elə bil ki, kişnəyir.
Əyləşəndə üstünə
O, adamı dişləyir.

**1988**

## DEMƏ HA!

– Gətirmişəm evə böcək,
Bilsə, anam hirslənəcək.

Bax, qutumun içindədi,
Ağ qutumun içindədi.

Sənə göstərim, ay qağa,
Ancaq heç kəsə demə ha!

– Ağ qutuda saxladığın
Böcəyi deyirsən, qağa?!

Qorxma, demərəm heç kəsə.
Anam tərs-tərs baxdı bizə.

Sonra dedi gülə-gülə:
– Baş tutmadı sizin kələk.

Açıb mənim ağ qutumu
Böcəyi buraxdı çölə.

**1988**

## BİR GÖZ, YA İKİ?

– Bir göz yaxşı görür, iki?
– Oğlum, aydın şeydi bu ki,
Əlbəttə, iki.
Razılaşmır bu cavabla,
Gursel turşudur üzünü:
– Ovçu nişan alanda bəs
Niyə yumur bir gözünü?

**1986**

## UŞAQ Kİ, UŞAQ

Samirin nitqi,
Sözü səlistdi.
Bu kiçik oğlan
Xorda solistdi.

Qurtaran kimi
Öz sözlərini,
Yana gəzdirdi
O, gözlərini.

Unutdu bütün
Səhnədədir o.
Hamı gülürdü, –
Hara gedir o?

Samir kənarda
Görüb oyuncaq.
Qaçıb oynayır, –
Uşaq ki, uşaq…

## CANLI TƏSBEH

Sanki təsbeh sapıdır
Qapımızdakı məftil.
Üstündəki sərçələr
Muncuqlardır elə bil.

Bacıma dedim: – Bunlar
Muncuq deyil, quşdular.
İnanmadı sözümə,
Bir daş atdım, uçdular…

## SÜDLÜ AĞAC

Əncir dərdi ağacdan,
Təəccübləndi Aslan.
Əncirin saplağında
Dedi, süd var, anacan.

Baş açmıram doğrusu
Bu ağacın işindən.
Sanki o da süd verir
Əncirlərə döşündən.

**1975**

## "C" HƏRFİ

Gecə göylərə baxır
Cəmil gözündə maraq.
Ayparanı göstərib
Deyir: – "C" hərfinə bax!

Anası gülüb deyir:
–"C" hərfi qanad açıb.
Sənin adından çıxıb,
Gizlicə göyə qaçıb…

**1983**

## EYNƏK

Gözümdə gün eynəyi var,
Oğlum mənə macal vermir.
Gileylənir öz-özünə,
Deyir: – Ata, gözüm görmür.

Soruşuram: – Gözün hanı?
Qəsdən qaşını göstərir.
Qulağını soruşuram,
Mənə başını göstərir.

– Yaxşı, götür eynəyimi. –
Qanad verir ona sözüm.
– Hə, necədi?
Oğlum gülür:
– Ta hər şeyi görür gözüm!

**1984**

## QIZIM MAHNI OXUYUR

Elə bil kəpənəkdir
Lentlər onun telində.

Bir dəstə gül tutubdur
Çiçək balam əlində.

Qönçə-qönçə mahnılar
Çiçək açır dilində.

Gülür, axır kədərim
Gülüşünün selində…

**1976**

## XƏYYAM

İt hürəndə
deyir Xəyyam:
– Ana, qorxma,
yanındayam!

**1986**

## GÜNAYIN CAVABI

Ağacları göstərib,
Sual vermişəm ona:
– Niyə bunlar hamısı
Əyilibdir bir yana?

Fikirləşib neçə gün,
Fikirləşib neçə ay.
Axır ki, cavabını
Tapıb balaca Günay.

Üzü gülür gör necə,
Danışmağa tələsir.
Deyir: – Burda küləklər
Çox vaxt bu yana əsir.

**1981**

## GURSELİN TOYUĞU

Bir toyuq alıb
Bazardan ana.
Ayağı bağlı
Atıb balkona.

Balaca Gursel
Baxmır soyuğa,
Balkona çıxıb,
Baxır toyuğa.

Dən səpir, toyuq
Vurmur dilinə.
Gursel jurnalı
Alıb əlinə

Deyir: – Ay toyuq,
Qulaq as mənə.
Bir yaxşı nağıl
Oxuyum sənə…

**1982**

## BUĞDA QOVURANDA

Tərsinə qoyub sacı,
Buğda qovurdu bacı.
Gördü ki, iş xarabdı,
Qovrulacaq istidən;
Tullanıb yerə düşdü
Buğda sacın üstündən…

**1987**

## İKİ BAĞÇA

Uşaqlar bağçaya gedir,
Böyüklər isə işə.
Quzunu bağçaya ötür,
Qoyunları örüşə…

**1987**

## BAĞÇADA QALAN KUKLALAR

Atalar, analar gəlib
Aparırlar uşaqları.
Müəllimlər çıxıb gedir,
Söndürürlər işıqları.

Sən gələndə neçə kukla
Həsrət-həsrət mənə baxdı.
Ana, bəs bu yazıqların
Atası, anası yoxdu?

Hamı gedir, kuklaları
Bağçamızda saxlayırlar.
Yəqin onlar qaranlıqda
Səhərəcən ağlayırlar…

## GÜNAY NİYƏ AĞLAYIR

Nənə işə gedəndə
Günay yatmışdı hələ.
Nənə işdən zəng edib,
Danışdı ana ilə.
Ana çağırdı:
– Qızım!
Günay dilləndi:
– Nədi?
– Tez ol gəl dəstəyi al,
Zəng eləyən nənədi.
Günay dəstəyi aldı,
Üzünü bulud aldı.
Birdən yanaqlarına
Göz yaşı axdı dən-dən.
Ağladı ki, nənə, çıx
Telefonun içindən…

**1983**

## EVƏ QONAQ GƏLƏNDƏ

Sevincimi artırır
Qapının hər döyüşü.
Evə qonaq gələndə
Buynuzlarım geyişir.

Ancaq məndən qorxmayın,
Gedib durmayın gendə.
Buynuzum yarpaq açır
Evə qonaq gələndə.

Hamı məni axtarır
Çəkilsəm də bir küncə.
Geyinib bəzənirəm
Gələnlərin zövqüncə.

Qonaqlar gedən kimi
Qəribsəyirəm yaman.
Darıxmasın neyləsin
Bomboş qalan asılqan?!

**1987**

## ƏKS-SƏDA

Saç-saqqalı ağdı bu,
Dağdan ağır dağdı bu.
Adama söz qaytarır,
Elə bil uşaqdı bu…

**1985**

## GÜNƏŞ NİYƏ BÜTÖVDÜ

– Niyə Ay para olur,
Gün bütövdü həmişə?
– Xırdalanmaq, kiçilmək
Yaraşmır ha Günəşə…

Ona görə bütövdü,
Ona görə uludu.
Şəfəqləri qılınc tək
Parçalayır buludu…

## GECƏ QATARI

Gecə qatar keçəndə
Evimizin yanından,
Bilmir ki, nə eləsin
Adam həyəcanından.

Bina sanki vaqondu,
Kupedi mənzilimiz.
Qatarlara qoşulub,
Sanki yol gedirik biz…

**1986**

## İSTİ QAR

Qovağın budağından
Qopan tozlara baxır,
Gursel deyir: –Uşaqlar,
Ora bıxın, qar yağır...

– Bu istidə qar olar?
Oğlan yenə kirimir.
Deyir: –Bu isti qardı,
Ona görə ərimir…

**1986**

## ÜZƏN KÖRPÜ

Bacarmırsan
Üzməyi sən,
İstəyirsən
Çay keçəsən.

Kirpi lələ,
Kirpi lələ,
Hardan alaq
Körpü, lələ?

Yenə yalvar
Tısbağaya,
Səni keçirsin
O taya.

Yaxşılıq et
Bu dünyada. –
Razılaşdı
Tısbağa da.

Neyləyəcək
Kirpi ona?
Oldu üzən
Körpü ona…

## ZINQIROV

Qulunum hey qaçırdı,
Deyirdi: – Mən də atam!
Bir gün onun boynundan
Zınqırov asdı atam.

Zəng səsindən diksindi,
Ürküb qaçdı qulunum.
Zınqırov zınqıldadı,
Qanad açdı qulunum.

Var gücüylə qaçdı ki,
Uzaqlaşsın bu səsdən.
Ancaq səs kəsilmədi,
O, kəsildi nəfəsdən.

Çəmənliyə çatanda
Dayandı nəfəs dərə.
Zınqırovun səsinə
Nə oldu birdən-birə?

Anasının yanına
Qulun qayıtdı birbaş.
O, zınqıltı səsinə
Öyrəndi yavaş-yavaş.

Dərədən duman qalxdı,
Bürüdü dağı, düzü.
Duman elə qalındır,
Görə bilmir göz gözü.

Qulunum harda qaldı?
Heç belə də iş olar?
Gecə kövşəndə qalıb,
Qurda, quşa tuş olar.

Dağlara düşdü qırov,
Zınqırov, ay zınqırov.
Zınqılda, qulunumun
Yanından qurdları qov!

Mən axtardım kövşənin
Hey sağını, solunu.
Zınqrovun səsinə
Gedib tapdım qulunu...

**1977**

## BABAMIN MİNDİYİ AT

Eh, günlərlə gəzmişəm
Öz kəndimi, obamı.
Atamla çox getmişəm
Qəbri üstə babamın.

Qalır xoş xatirəsi
Köçüb getsə də insan.
Öz əslini, kökünü
Gərək unutmayasan.

Babamın adı düşmür
Adamların dilindən.
Keçib ömrünün çoxu
Köhlənlərin belində.

Dillərdə dastan olub
Sarı ürgənin adı.
Heç kəs minə bilməzmiş
Babam mindiyi atı.

Bilmirəm necə oldu,
Özüm də qalmışam mat. –
Soruşdum ki, durarmu
Babamın mindiyi at? –

Atam güldü, utandım
Verdiyim boş sualdan.
Ancaq ayrılmamışam
Düşüncədən, xəyaldan.

Niyə əbədi deyil
Canlıların həyatı?
Qəbri olsaydı əgər
Babam mindiyi atın,

Apardım üstünə
Bir dəstə çiçək dərib.
Sarı ürgə yollara
Baxmazdı qərib-qərib.

Atam baxır üzümə,
Utanıb pörtmüşəm mən.
Ürəyimdən keçəni
O, duydumu görəsən?!

**1988**

## İKİ BİBƏR

Dərmişəm eyni koldan,
Elə bil cüt bacıdı.
Balaca bibər şirin,
Böyüksə apacıdı.

İrisini yemişəm,
Gözlərim yaşla dolub.
Vaxtında dərməmişik,
Hirsindən acı olub…

**1987**

## DƏLƏDƏN İNCİMƏ, MARAL

Qulaqları yarpaq maral,
Buynuzları budaq maral.
Sən gəl incimə dələdən,
Qaçıb getmə uzaq, maral.

Bil ki, onda günah yoxdu,
Meşələrə payız gəlib.
Başına hoppanan dələ
Buynuzunu budaq bilib…

## DƏLƏ QAÇIR

Dələ qaçır, dələ qaçır,
Baxıb sevinir uşaqlar.
Dələ qaçır, gözlərinə
Görünür uca budaqlar...

Dəmir qəfəs hey fırlanır,
Dələsə düşmür həvəsdən.
Qaçır, uzaqlaşa bilmir
Fırlanan dəmir qəfəsdən.

Qəlbindəki həyat eşqi
Onu döndərib ağ yelə.
Bu da qaçmaq azadlığı:
Qaçır, qaçır, qaçır dələ…

**1988**

## QULAQLI PAPAQ

– Əynini qalın elə,
Hava yaman soyuqdu.
– Qulaqlı papağım var,
Soyuqdan qorxum yoxdu.

Vecimə də almıram
Nə qorxu, nə sazağı.
Qulağımın üstünü
Örtür onun qulağı.

## GECƏ KÖÇÜ

– Qanadlar işə düşüb,
Quşlar düzülüb səfə.
Tələsirlər, onları
Gözləyir uzaq səfər…

– Axı köçəri quşlar
Niyə gecə köçürlər?
Qaranlıqda görəsən
Yolu necə seçirlər?

– Gündüz köçsələr əgər
Düşər nəsil qırğını.
Əlindən qaçmaq olmaz
Çalağanın, qırğının.

Gecə səhərə kimi
Durnalar oyaq olur.
Onların yolu üstdə
Ulduzlar mayak olur…

**1987**

## ÜZƏN YUVA

Anqut yaman sevinir,
Salamat çıxıb qışdan.
Yuva qurub özünə
Su otundan, qamışdan.

O yuvanı tap görüm,
Tələsmə, düşün bir az.
Anqut kolda, ağacda,
Torpaqda yuva qurmaz.

Axtarıram, gəzirəm
Mən onu bir həftədi.
Yuvası bu gün burda,
Sabah o tərəfdədi.

Gəzəyəndi bu yuva,
Qoşulur əsən yelə.
Üzür belədən elə,
Üzür elədən belə…

**1987**

## KÜSƏN HƏRFLƏR, NADİNC HƏRİFLƏR

Məktəbdən qayıdanda
Quzu dönüb şir olub.
Divar yazı taxtası,
Şüşə tabaşir olub.

Ev tikən, suvaq çəkən
Əllər inciyib, küsüb.
Öz nadinc övladından
Ellər inciyib, küsüb.

Əlifba peşimandı:
– Gör kimlə dost olmuşam?!
Az qalıram hönkürüm,
Bulud kimi dolmuşam.

Binalar nə kökdədi,
Suvaqlar cızıq-cızıq.
Hərflər dörd tərəfdən
Boylanır yazıq-yazıq.

Gör nə kökə düşüblər? –
Hamısı əyiş-üyüş.
Divarlarda yazılıb
Ədəbsiz kəlmə, söyüş.

Böyük-kiçik görəndə
Alışırlar, yanırlar.
Yazanın əvəzinə
Hərflər utanırlar…

**1989**

## ƏMİ, SƏN NEYLƏYİRSƏN?

Getdim qardaşımgilə,
Aytən yanıma qaçdı.
Uzaqdan məni görüb,
Sevincdən qanad açdı.

Bu mehriban qızcığaz
Sanki quş olub gəldi.
Qonşunun uşağı da
Ona qoşulub gəldi.

Öpdüm ikisini də,
Aytən hirslə açdı dil:
– Əmi, sən neyləyirsən,
Bu bizim uşaq deyil…

**1992**

## ƏVƏZ-ƏVƏZ

Atımı çapdım, çapdım,
Ondan tər damcıladı.
Gördüm qaçır yavaşca,
Atımı qamçıladım.

Dönüb girdi pöhrəyə,
Şəkləndi qulaqları.
Qamçı tək dəydi mənə
Kolların budaqları.

## AXŞAMDAN

– Kirpiklərin açılmır,
Bu nə işdi, ay Səhər?
Deyəsən heç üzünü
Yumamısan bu səhər.

– Dünən dərsə gecikdim,
Danladılar üzümü.
Ona görə axşamdan
Yumuşam əl-üzümü…

**1987**

## NƏ TAPDIN?

Aysel qaçıb yıxıldı,
Aysel dizini çapdı.
Qoymadıq ağlamağa,
Dedik: – Bacı, nə tapdın?

Ufuldadı yamanca,
Söylədi ki, daş tapdım.
Dizimdə möhkəm ağrı,
Gözlərimdə yaş tapdım…

## SƏS

– Qaranlıq düşən kimi
Söylə görüm, ay Əvəz,
Nəyə görə uzaqdan
Eşidilir asta səs?

– Gecələr qorxusundan
Səs yüyürür uzağa.
Ağızdan çıxan kimi
Qaçıb girir qulağa…

**1987**

## YENƏ DİŞLƏ

Mən Ayseli oxşayıram,
Aysel şirni həvəsində.
Dişləyib bir qulağını
Konfet verdim əvəzində.

Gözləri qalıb cibimdə,
Şirələnib inci dişlər.
Yaxın gəlib deyir: – Əmi,
Qulağımı yenə dişlə!

## BALIĞA DE…

Atıb çəkir qarmağını,
Oğlum yamanca tələsir.
Bir az durub gözləməyə
Gəlmir onun hövsələsi.

Mən balıq tutduqca deyir
Əl qolunu ata-ata:
– Sən balığa de, mənim də
Qarmağıma düşsün, ata!

**1987**

## AKVARİUM

Bir televizorum var,
Bir cüt göz gərək baxa.
Ehtiyac yoxdur onu
Cərəyana qoşmağa.

Elə-belə işləyir,
Gündüz olsun, ya gecə..
Ekrandakı balıqlar
Görün gözəldir necə?!

Dörd tərəfdən görünür,
Hardan baxırsansa bax.
Təkcə balıq göstərir
Bu televizor ancaq…

**1987**

## AVTOBUSDA

Mən avtobusa
Minəndə dünən.
Bir ağsaç əmi
Qalxdı yerindən.

Adam böyüyə
Hörmət eləyər.
O əmi məndən
Kiçikdir məgər?

**1973**

# POEMALAR – NAĞILLAR

## QIRXINCI QAPI

**Afərim nənəmin əziz xatirəsinə**

Qapıların əlçatmazı,
Qapıların ünyetməzi.
Sənə doğru yol gəldikcə
Açıldı bəxtimin üzü…

Nənəm nağıl danışdıqca
Qar yağardı narın-narın.
Söylədiyi nağıllarda
Söz açdığı qapıların

Otuz doqquzu bir yana,
Qırxıncısı bir yanaydı.
Xoş gördük, qırxıncı otaq,
Xoş gördük səni, günaydın!

Sənin qapın açılmasa,
Müəmmalar açılmazdı.
Sənin qapın açılmasa,
Ömrümə nur saçılmazdı.

Ay dolandı, il dolandı,
Uzandı arzumun əli.
Döndü qırxıncı qapıya
Ömrümün qırxıncı ili.

“Açma qırxıncı otağı!” –
Qulağıma bir səs gəldi.
Qollarıma gizli qüvvət,
Ürəyimə həvəs gəldi.

Durdum qapıyla üz-üzə,
Gözlərimdən çay açıldı.
Hönkürdüm, qırxıncı qapı
Birdən taybatay açıldı…

Girdim nağıl dünyasına,
Bir az irəli yeridim.
Ömrüm də bir nağıl oldu,
Nağıl içində əridim…

…Əhmədə bax, Əhmədə bax,
Oxxayın gözündən qaçıb.
Özünü verib irəli,
Qırxıncı qapını açıb.

Qara pərdəyə tutulub
Başdan-başa evin içi.
Otaqda bir qız ağlayır,
Üzü quylu, için-için.

– Ay gözəl, kimsən, nəçisən?
Niyə könül dağlayırsan?
Nədən ötrü qara geyib
Gecə-gündüz ağlayırsan?

– Oğlan, sənə agah olsun,
Mən sehrbazın qızıyam.
Atam olsa da, Oxxayın
İşlərindən narazıyam.

Neçə-neçə başlar kəsib,
Qanlar töküb mənim atam.
Hələ qurtula bilməyib
Tələsindən bircə adam.

Qırır, çatır, gözü doymur,
Daha kişi ağ eləyib
Etiraz etdiyim üçün
Məni də dustaq eləyib.

Sən igidsən, etmisənsə
Qırxıncı otağa səfər.
Bəni-insana açıram
Sirrimi birinci dəfə.

Çoxlu cadu öyrənsən də,
Adicə paltar geyərsən.
Atam səndən nə soruşsa,
Yadımdan çıxıb, – deyərsən…

Bilsə sehrbaz olmusan,
Gözlərini ovar atam.
Əgər səni əfəl sansa,
Məmləkətdən qovar atam.

"Bildim" deyə lovğalanıb,
Ölənlərin sayı çoxdu.
Özünü vur əfəlliyə,
Başqa çıxış yolun yoxdu…

Qoçaq Əhməd qulaq asdı
Deyilənin hamısına.
Qırxıncı otaq onunçün
Döndü nicat qapısına.

Öldürdü qorxunc Oxxayı,
Qızını arvad elədi.
Daşa, quşa dönənləri
Tilsimdən azad elədi…

Yenə nənəm dilə gəldi,
“Ax-vax” nağılı başlandı.
Yenə mənim həsrət gözüm
Uzaq yollara tuşlandı…

Səlim qırxıncı otaqda
Bu dünyanı dərk elədi.
Cavan getdi, qoca kimi
O qapını tərk elədi…

Qırxıncı qapıdan çıxan
Ah elədi, vah elədi.
Qırxıncı qapı dünyanın
Sirrini agah elədi.

Qırxıncı qapıdan heç vaxt
Əskik olmayıb qada, qan.
Can atmışıq ona doğru,
Açmaq olsa da qadağan…

Nağıl dinlədiyim anlar
Ən müqəddəs anım oldu.
Sirdaşım qırx keçə papaq,
Qırx incəbel xanım oldu.

Dost sandığım qəhrəmanlar
Ən ağır yolları seçdi.
Səadətin çətin yolu
Qırxıncı qapıdan keçdi…

…Zaman minib öz atını,
Hey qovur, dördnala çapır.
Mən də onun tərkindəyəm,
Yol üstdə qırxıncı qapı…

Uşaqlığın, cavanlığın
Dizini qatlayıb gəldim.
Qırx arşınlıq hasar kimi
Qırx yaşı adlayıb gəldim.

Dost-tanışın üzü gülür,
Hamının eyni açıqdı.
Açıldı qırxıncı qapı,
İçindən bir ayna çıxdı.

Durub onunla üz-üzə
Öz-özümə salam verdim.
O aynanın qarşısında
Qırx illik ömrümü gördüm…

İllər ötdü, aylar ötdü,
Arzularım yaşa doldu.
Axır ki, qırxıncı qapı
Ömrümün ünvanı oldu…

Qırxıncı qapı – dünyada
Tanınan, seçilən qapı.
Qırxıncı qapı – nağıldan
Həyata açılan qapı…

**1990**

# AĞIL DÖYÜŞÜ

Nağıl – poema

Düşmən qoşunu
Hay-haray salıb,
Üzük qaşı tək
Dövrəyə alıb

Bizim dağları,
Bizim düzləri.
Dolub qızların
Ala gözləri.

Atalar məhzun,
Analar qəmli.
Göllərimzdə
Sonalar qəmli.

Qırılsaq belə
Son nəfərədək,
Düşmən önündə
Sınmayaq gərək.

Bir himə bənddi
Bizim səbrimiz.
"Vətən torpağı
Olsun qəbrimiz!" –

Deyib dartınır
İgidlərimiz.
Gərək dinləyək
Ağsaqqalı biz.

Vuruşmaq üçün
Oğul gərəkdi.
Qələbə üçün
Ağıl gərəkdi.

Ağsaqqal deyər
Sonuncu sözü.
Uzaqgörəndir
Ağsaqqal gözü.

Peşiman olmaz,
İşi olar haqq,
Böyük sözünə
Qulaq asan xalq.

Ön plandadır
Ağıl döyüşü.
Sonrakı işdir
Oğul döyüşü…

Düşmən elçisi
İstehza ilə
Süzərək bizi
Söyləyir belə:

– Sualımıza
Bilicilər tək,
Ya cavab verin,
Ya da döyüşək!

Ya da ki, susun
Yoxsa bir əlac.
Bizim qoşuna
Verin bac-xərac.

…İgidlər ilə
Dolubdur meydan,

Dərin sükuta
Dalıbdır meydan.

İslanmışların
Axı yağışdan
Nədir qorxusu?
Havadan gəlir
Tufan qoxusu.

Hövsələmizə
Düşmən bələddi.
Əsəblərimiz
Bir himə bənddi…

Ancaq susuruq,
Dinən ürəkdi.
Havayı qırğın
Kimə gərəkdi?

Çıxmamalıyıq
Böyük sözündən.
Yoxsa düşərik
Elin gözündən.

…Düşmən elçisi
Qoşuna baxır.
Qırx dəliqanlı
Meydana çıxır.

Elçi danışır:
– Bir gəlin yaxın!
Bu igidlərə
Diqqətlə baxın!

Oğlanı qızdan
Seçə bilsəniz,
Baş əyəcəyik
Qarşınızda biz…

Çaşıb adamlar:
Burda qız hanı?
İndi onları
Oğulsan tanı.

Bərələ qalıb
Bizim gözümüz.
Ağsaqqal gülür:
– Sözdü sözümüz!

Uzaq yollardan
Gəlib qonaqlar.
Əvvəl birlikdə
Edərik nahar.

Sonra seçərik
Qızı, oğlanı…
Ay uşaq, mənim
Şagirdim hanı?

Bir gözəl oğlan
İrəli çıxdı.
Müəlliminin
Üzünə baxdı.

Dərhal anladı
Deyilən sözü.
Qocanın isə
Gülürdü gözü…

– Oğlum, arifsən,
Nə deyim daha?
Get su hazırla
Əl-üz yumağa.

Baş əyib getdi
Ədəblə ordan,

Bir azdan yenə
Qayıtdı oğlan.

Dedi: –Müəllim,
Yaxına gəlin.
Su töküm, yusun
Qonaqlar əlin.

Əvvəl yuyundu
Həmin ağsaqqal,
İşin sehrini
Anladı dərhal.

Sonra da növbə
Çatdı elçiyə.
Oğlan bildi ki,
O, susur niyə.

Su isti idi,
Əli yanırdı.
“Yandım” deməyə
O, utanırdı…

Bu su deyil ki,
Alovdu, közdü.
Bütün oğlanlar
Birtəhər dözdü.

Su töküləndə
Kim ki, əl çəkdi,
Oğlan ayırıb,
Bir yana çəkdi.

Dedi elçiyə:
– Bunlar qızlardı.
Hamı mat qaldı,
Elçi qızardı…

Ağsaqqalınsa
Gülürdü üzü.
Daha elçinin
Qalmadı sözü.

Qayıdıb getdi
Düşmən çar-naçar.
Əriyib itdi
Qara buludlar.

Ancaq keçməmiş
Aradan bir az,
Yenə qayıtdı
Həmin yaramaz.

Dedi: – Bu dəfə
İşiniz pisdi.
Suyunuz olsun
Soyuq, ya isti
Vecimə deyil. –
Verin bac-xərac.
Çörək yemərik,
Deyilik ki, ac?!

Daha yumarıq
Əllərimizi,
Xar eləmərik
Ellərimizi.

Güldü ağsaqqal:
– Sualın nədir?
Elçi əmr etdi
Öz mehtərinə:
– Atları gətir!

Meydana üç at
Gətirdi onlar.

Elçi söylədi:
– Yaş fərqləri var

Bir boy-buxunda
Olan atların.
Gözləri göydə
Qalan atların.

Əgər onların
Bilsəz yaşını,
Geri çəkərik
Biz də qoşunu.

Hamı qaldı mat,
Hamı qaldı çaş.
Yenə gözlərdə
Gilələndi yaş.

Şahə qalxaraq
Kişnədi atlar.
Göydə sıxlaşdı
Qara buludlar.

Bir cavan oğlan
Çıxdı irəli.
Düşmənin gözü
Qaldı bərəli.

Oğlan meydanda
Nə etdi görün?
Əmr etdi: –Mənə
Bir qab süd verin.

Bir qab da arpa
Gətirin, – dedi.
Bir bağ yaş yonca
Yetirin, – dedi.

Hazır olan tək
Süd, arpa, yonca,
Atlar dartındı
Meydan boyunca.

Sonra da oğlan
Onları açdı.
Üçyaşar köhlən
Arpaya qaçdı.

İki yaşlının
Yeməyi yonca.
Bir yaşlı içdi
Süddən doyunca.

Oğlan atların
Yaşını dedi.
Çəkin geriyə
Qoşunu! – dedi.
Çox incitməyin
Qonşunu! – dedi.

Dostlar sevindi,
Düşmən xar oldu.
Tufan çəkildi,
İlk bahar oldu.

Düşmən qayıtdı
Suyu süzülmüş.
Bacdan, xəracdan
Əli üzülmüş.

Dolandı illər,
Dolandı aylar.
Yenə bulandı
Yurdumda çaylar.

Düşmən elçisi
Gəldi yenidən.
Saçlarımıza
Düşdü yeni dən.

Sakit günlərin
Səfi dağıldı.
Coşdu igidlər:
– Bu, lap ağ oldu!

Yenə ağsaqqal
Yetdi haraya.
Dedi: – Gedirsiz
Axı haraya?

Bir sakit olun,
Bir qulaq asın.
Üzü bəridir
Çiçəkli yazın.

Başımızdaykən
Ağlımız hələ,
Niyə vuruşaq
Top-tüfəng ilə?

Sakitləşdilər
Dəliqanlılar.
Elçi söylədi:
– Sualımız var

Yenə də sizə,
Bir gəlin yaxın.
Bu üç almaya
Diqqətlə baxın.

Eyni boydadır,
Eyni rəngdədir

Bunların üçü.
Hünəriniz var
Gəlib onları
Ayırın, seçin…

Bir ayrı igid
Çıxdı meydana.
Hamı diqqətlə
Göz qoydu ona.

Oğlan düşündü,
Daşındı bir az.
Söylədi: – Qıfıl
Açarsız olmaz.

Əmr etdi: – Mənə
Su verin üç qab.
Verim düşmənə
Layiqli cavab.

Üç vedrə dolu
Su gətirdilər.
Adamlar baxıb
Köks ötürdülər.

Gənc, almaları
Tez suya atdı.
Bir alma üzdü,
O biri batdı.

Gah batdı, gah da
Çıxdı üçüncü.
Gah endi, gah da
Qalxdı üçüncü.

Oğlan söylədi:
– Hörmətli cənab,

Vedrələrə bax,
Hazırdır cavab.

Mənim sözümdən
Pərişan olma.
İnişilkidi
Batmayan alma.

Ağır şey suyun
Üzündə qalmaz.
Onunçün batdı
Bu ilki alma.

Bildirki isə
Batıb-çıxandı…
Elçi hirsindən
Alışdı, yandı.

Dedi: –Ta mənim
Sualım yoxdu.
Hər bir kəlməniz
Qılıncdı, oxdu.

Ağılda imiş
Əsl güc-qüvvət.
Qəlbimdə sizə
Yarandı hörmət.

Burda zəkalı
İgid çox imiş.
Bilikli xalqa
Zaval yox imiş…

Düşmən elçisi
Qayıdıb getdi.
Qələbəsini
El bayram etdi.

Hamı sevindi,
Güldü ürəklər.
Qönçə bağladı
Güllər, çiçəklər.

Əsər qalmadı
Daha qoşundan.
Qada sovuşdu
Elin başından.

Kilid vurulmuş
Dillər açıldı.
Güllələr susdu,
Güllər açıldı…

**1990**

## GÜL VƏ BÜLBÜL ƏFSANƏSİ

Bir şah vardı, qəzəbli şah,
Gözünün ağı, qarası
Bircə dənə qızı vardı,
Qız da nə qız, ay parası!

Təbəssümü dörd tərəfə
Nur saçırdı çıraq kimi.
Danışanda, dinləyənlər
Titrəyirdi yarpaq kimi.

Baxışıyla çalınardı
Ürəklərin sarı simi.
Ay buludda gizlənərdi
O gözəli görən kimi.

Qan damardı yanağından,
Nur yağardı gülüşündən.
Cığırlar məst olardılar
O gözəlin yerişindən.

Onun gümüş topuğunu
Çəmən öpərdi ləzzətlə.
Bağban oğlu bü gözələ
Göz qoyardı məhəbbətlə.

Gecələr ay işığında
Dilə gələrdi tütəyi.
Eşidəndə ney səsini
Əsərdi qızın ürəyi.

Aradakı keçilməz sədd
Əriyərdi, puç olardı.
Qəlbindəki arzuların
Qönçələri açılardı.

…O yanıqlı tütək səsi
Qəzəbli şaha da çatdı.
Duydu gəncin niyyətini,
Qəzəbi daha da artdı.

Titrədi əli, ayağı,
Alovlandı, alışdı o.
Çağırıb bağban oğlunu
Hirsli-hirsli soruşdu o:

– Gecə-gündüz hey çalırsan,
Nədir bu yanıqlı hava?
– Şah sağ olsun, məhəbbətdən
Başıma gələcək hava.

Sözlərinə ara verib
Oğlan dərindən ah çəkdi. –
Mənim burda nə təqsirim,
Günahkar sevən ürəkdi.

Şah bir az da qəzəbləndi,
Alov töküldü gözündən.
Dedi: –Yarın, ürəyini
Çıxarın bunun köksündən!

Cəllad çəkdi qılıncını,
Tez işi saldı yoluna.
Şahın qızı bir ah çəkdi,
Döndü qızılgül koluna.

O cavanın qızıl qanı
Çiləndi bu kolun üstə.
Can vermək də səadətdir
Sevdiyinin qolu üstə.

Hardasa lap uzaqlarda
İnləyirdi yetim tütək.
Cəlladın qanlı ovcunda
Çırpınırdı sevən ürək…

Birdən möcüzə yarandı,
Əl uzatcaq padşah ona.
Ürək bülbülə çevrildi,
Uçub qondu gül şaxına.

Onun yanıqlı nəğməsi
Götürdü dərəni, düzü.
Oxşadıqca qızılgülü
Adamların doldu gözü.

Zaman çapdı öz atını,
İllər döndü bir ağ yelə.
O zamandan sirdaş olub
Gül bülbülə, bülbül gülə…

**1988**

## BACADAN YAĞAN QIZIL

Bir kişi otarırdı
Elatın qoyununu.
Bezmişdi çobanlıqdan,
Yormuşdu qoyun onu.

Elə hey deyinirdi:
– Evdən çıxıb o başdan,
Gecəyarı gəlirəm, –
Çörəyim çıxır daşdan.

Bu nə işdir, sürüdən
Gündə bir qoyün itir.
– İtirib sayıqlığı
Deyəsən qoyun iti.

…Bir günorta sürüdən
Bir şişək çıxıb təzdi.
Çoban onun dalınca
Dərəni, dağı gəzdi.

Gördü ki, qoyun qaçıb
Girdi bir mağaraya.
Sanki ona dedilər:
– Sən də gir mağaraya!

Bir kor qurd yaşayırmış
Bu zağada, işə bax.
Durub heyrətlə baxdı
Çoban çiynində çomaq.

Özü öz ayağıyla
Ölümə gəlib davar.
Gəlib ki, ac qalmasın,
Bu qoca, kor canavar.

Çoban baxıb gördü ki,
Xeyli sümük var burda.
Demə gündə bir qoyun
Yem olurmuş kor qurda.

Baxdı qurda, qoyuna
İnanmadı gözünə.
Çoban getdi xəyala,
Düşündü öz özünə:

– Bu sürünün əlindən
Nə vaxt qurtarar yaxam?
Ruzusu haqdan gələn
Kor canavarcan yoxam?

Allah yerə salmasın
Qoy mənim də arzumu.
Bacamızdan göndərsin
Azuqəmi, ruzumu…

Çoban qayıtdı kəndə,
Pənah umdu Allahdan.
Dedi ki, özünüzə
Çoban tapın sabahdan.

Adamlar söylədilər:
– Bir düşün yaxşı-yaxşı.
Tərslik etmə, yerə tök
Ətəyindən bu daşı.

Arvadı da yalvardı,
Yox deyib durdu çoban.
Həyətə də çıxmadı,
Evdə oturdu çoban.

Günlər döndü həftəyə,
Həftə ötdü, ay gəldi.
Nə çoban peşman oldu,
Nə Allahdan pay gəldi…

Qoldan güc, gözdən işıq,
Təknədən un tükəndi.
Bir qalamlıq odun yox,
Buza dönübdür təndir.

Çoban susdu, arvadı
Od götürdü, alışdı.
Daha dözə bilmədi,
Dilə gəldi, danışdı.

Dedi ki, heç olmasa
Get bir az odun gətir.
Təndiri alışdırım,
Bişirim üç-dörd fətir.

Razılaşdı çar-naçar,
Çoban yola düzəldi.
Quşlar verib səs-səsə,
Meşə necə gözəldi!

Baltasını təzəcə
Endirəndə ağaca,
Gördü gövdənin üstdə
Bir deşik var balaca.

Gözünə inanmadı –
Koğuş dolu qızıldı!
Tez onları götürdü,
Ancaq kefi pozuldu.

Dedi: – Kor canavarca
Hörmətim yoxdur yəni?
Allah dövlət dalınca
Çöllərə salıb məni.

Qaytarıb qızılları
Çoban yığdı yerinə.
“Bacamdan tökülməsə
Əl vurmaram birinə!” –

Deyib, qayıtdı kəndə,
Gördüyünü danışdı.
Arvad yandı, yaxıldı,
Alovlandı, alışdı…

Onların söhbətini
Eşitdi bir tamahkar:
– Aha, filan ağacın
Koğuşunda qızıl var!

Yola düşdü o saat,
Minib atını çapdı.
Çoban deyən ağacı
Axır ki, gəlib tapdı.

Gördü bir qızıl ilan
Girdi həmin deşiyə.
Aldadılmağı yaman
Yer elədi kişiyə.

– Bir gör nələr gətirdi
O nadürüst başıma?
Gedib zəhər qataram
Mən də onun aşına.

Tez bir budağı kəsdi,
Haray düşdü meşəyə.
Çiv düzəldib tamahkar
Çaldı həmin deşiyə.

Üç qarış aşağıdan,
Üç qarış yuxarıdan
Ölçüb, ağacı kəsdi.
Qucağına götürüb,
Onu, kəndə tələsdi.

Gəlib çıxdı çobanın
Evinin damı üstə.
Ağacın deşiyindən
Çivi çəkib ahəstə

Silkələdi ki, ilan
Bacadan düşüb yerə
Gedib çobanı çalsın.
İstədi ki, bu yolla
Ondan intiqam alsın.

Qızıllar töküldülər,
İlan koğuşda qaldı.
Qəflətən çıxıb, həmin
Paxıl kişini çaldı.

Bu vaxt çoban arvadı
Qışqırırdı ucadan:
– Ay kişi, gözün aydın,
Qızıl yağır bacadan.

Çoban yaman sevindi,
Qızılları götürdü.
“Allah, sənə min şükür”, –
Deyib, köksün ötürdü.

Axır ki, göndərdin sən
Mənə dövləti, varı…
Sevincdən gözlərinə
Sürtdü o, qızılları.

Arvadı qəhərləndi
Ərinin sözlərindən.
Birdən dünya qaraldı
Çobanın gözlərində.

Onun bəbəklərinə
Sanki qor doldurdular.
Demə, zəhərli imiş
Koğuşdakı qızıllar.

Başdan aşdı var-dövlət,
Çoban olmadı xoşbəxt.

Qızıllar gətirsə də
Şöhrət, yaraşıq ona,
Çoban həsrət yaşadı
Dünyanın işığına…

Yaylaqlar, biçənəklər
Xəyalından ötüşdü.
Bir vaxt həsəd çəkdiyi
O qoca, kor canavar
Gəlib yadına düşdü.

Eh, necə xoş, qayğısız
Gözəl günlər var idi…
Sürünü otaranda
Necə bəxtiyar idi!

Şöhrətdən, var-dövlətdən
İyrənib, bezib daha.
Gecə-gündüz ah çəkib,
O, yalvarır Allaha.

Deyir ki, Pərvərdigar,
Qaytar o sürünü ver.
Qızıllarını apar,
Gözümün nurunu ver…

**19-20. 12. 1981**

## ZAMANIN QATARI

### ÖN SÖZ - PROLOQ

Bu dünyada möcüzəli bir qatar var. Dünya yaranan gündən üzü gələcəyə yol gedir bu qatar. Neçə-neçə sərnişinlər nəsli yola salıb o. Bir nəsil düşəndə başqa bir nəsil əyləşib bu qatara…

Hərənin ömründə bir tale dayanacağı olur. Zamanın qatarı həmin dayanacağa çatanda insanın ömür yolu tükənir. Əbədiyyət qatarı isə dayanmadan yol gedir – keçmişdən üzü gələcəyə…

Hər il bir qatara bənzəyir. Hər fəsil bu qatarın bir vaqonudu: bahar, yay, payız və qış. Hər vaqonun üç kupesi var. Hər ay bir kupedi. Hər kupedə iyirmi səkkiz, ya iyirmi doqquz, otuz, ya otuz bir gün əyləşir. Günlərin içində saatlar, saatların içində dəqiqələr, dəqiqələrin içində saniyələr yol gedir. Zamanın qatarı ayları, illəri çəkib dünyanın bu başından o başına aparır…

Yerində dura bilmir
Yer körpəlik çağından.
Hey yapışıb fırlanır
Günəşin saçağından.

Gah qarlı qışa düşər,
Gah da çiçəkli yaza…
Yaydan qopub ox kimi
Süzər üzü payıza…

Günəşin baxışından
Ləzzət alar, nurlanar.
Yoxdu gecə-gündüzü,
Fırlanar, hey fırlanar…

Gecə-gündüz yol gedər,
Nə dincələr, nə yatar.
Hər fəsil bir vaqondu,
Zaman sehrli qatar…

Gah qarlı dağdan aşar,
Gah da çiçəkli düzdən…
Rahatca üzüb keçər,
Okeandan, dənizdən…

Bir sehrli quşdu o,
Sakitcə qanad açar…
Durna qatarı kimi
Uçar, uçar, hey uçar!

O qatar dinc dayanmaz,
Ömürdən keçib gedər.
Ayları biçib gedər,
İlləri biçib gedər.

Məhəl qoymaz göylərin
Qarına, yağışına…
Dünyanın bu başından,
Şütüyər o başına…

O qatar nəsilləri
Nizama düzüb gedər…
Keçmişdən gələcəyə
Ox kimi süzüb gedər…

## DÖRD QARDAŞ

Yol üstündə dörd qardaş,
Tapdılar dörd karandaş.
Qırmızını Yay seçdi,
Yaşıl rəngi Yaz aldı.
Ağ rəngi Qış götürdü,
Sarı Payıza qaldı…

**1981**

## BİRİNCİ VAQON – BAHAR

Bu vaqonun birinci kupesində Mart, ikinci kupesində Aprel, üçüncü kupesində isə May əyləşib… Qatar getdikcə Bahar vaqonunun sərnişinləri yaz nəğmələri oxuyurlar.

## ŞÜTÜYƏR YAZ QATARI

Martın öz gözəlliyi,
Aprelin öz yeri var.
Mayda şahlıq taxtına
Əyləşər gözəl bahar…

Şütüyər yaz qatarı,
Buludlar köks ötürər.
Qupquru yamacları
Muradına yetirər…

Qış uzunu yatanlar
Hey can atar günəşə!
Deşib qarı, boylanar
Novruzgülü, bənövşə!

Qönçələr gülə dönər,
Tumurcuqlar çiçəyə!
Böcəklər can söyləyər
Əsən isti küləyə!

Baharın gəlişinə
Sevinməsək, ar olar!
Çəməndə bəxtəvərdi
Kəpənəklər, arılar!

Çiçək açar badamlar,
Çiçək açar alçalar.
Şütüyər yaz qatarı,
İldırımlar əl çalar!

Gün qızdırar torpağı,
Çəkilər şaxta, sazaq…
Dağların sinəsində
Şəlalə dönər saza!

Güllərin qoxusundan
Ətirlənər yamaclar.
Yenə verər səs-səsə
Torağaylar, turaclar…

Yaz şehi çiçəklərin
Gözlərində bərq vurar.
Qızılgüllər açılar,
Bülbüllər cəh-cəh vurar…

Çiçəklər çəmənlikdə
Dönər şama-çırağa.
İlk baharın əlində
Lalə dönər bayrağa!

Yamyaşıl dünyamıza
Baxmaqla doymaz gözlər!
Dağlar yolumu gözlər,
Düzlər yolumu gözlər…

Şütüyər yaz qatarı
Ötər bağçadan, bağdan.
Keçər selli dərədən,
Aşar şimşəkli dağdan…

Qoca dünya gəncləşər,
Hamı rahat yaşayar!
Şütüyər yaz qatarı
Hey gül-çiçək daşıyar…

**QOY GƏLSİN BAHAR**

Dağa yağıb qar,
Düzə yağıb qar.
Qoy gəlsin bahar,
Ərisin buzlar.

Dağda da çiçək,
Düzdə də çiçək.
Dərsin sevincək
Oğlanlar, qızlar.

Dağda da yonca,
Düzdə də yonca.
Gəlib doyunca
Yesin quzular.

Dağda da yellər,
Düzdə də yellər.
Qoy gəlsin bahar,
Sevinsin ellər, –
Gülsün arzular!…

## BAHAR GƏLƏNDƏ

Bahar gəlibdir, tez ol,
Tıq-tıq, tıq-tıq.
Evindən eşiyə çıx,
Tıq-tıq, tıq-tıq. –
Xoş xəbəri meşəyə
Deyirdi ağacdələn.
Sanki ağacı deyil,
Baharın qapısını
Döyürdü ağacdələn…

## BAHARIN XALÇASI

Ötdü turac, açdı çiçək, gəldi yaz,
Dur çəməni seyr eləyək, ay Niyaz!

Lalə, bənövşə səpilib hər yana,
Düzlərə bax, azca qalır çöl yana!

Xalça hörürmü görəsən ilk bahar?
Hər ilmədə min çiçəyin rəngi var.

Lalələrin hər biri şeh dolçası,
Gör nə qəşəngdir baharın xalçası!

**1975**

## BU DA BAHAR

Hələ qar əriməyib,
Quzum tapsın ot harda?

Kövşənlərdə ot azdı,
Yağış yağa, ot arta!

– Bu da bahar, quzunu
Apar çöldə otar da!

## YAĞIŞ YAĞANDA

Dağların üzərindən
Bir top bulud ötürdü.
Birdən gurladı şimşək,
Düzənlərə, dağlara
Bahar sevinc gətirdi.
Yağış yağdı inci tək.
Çiçəklərin əlində
Elə bil ki, çətirdi
Göbələk…

## BAHARDA

Şimşəklər buludu
Qamçılar,
Buluddan ayrılar
Damcılar.
Buludlar torpağa
Pay atar,
Torpaqdan çiçəklər
Boy atar…

## YAĞIŞDAN SONRA

İlk bahar yağışıyla
Çimib çöl, çimib çəmən.
Ətrafı seyr edirəm
Öz kiçik pəncərəmdən.

Yağış kəsir, buludlar
Tərk edir göy üzünü.
Çiçəklər, yasəmənlər
Günə verir özünü.

## İKİNCİ VAQON – YAY

Bu vaqonun birinci kupesi İyuna, ikinci kupesi İyula, üçüncü kupesi isə Avqusta məxsusdur. İstidən nəfəs almaq olmur. Ona görə də pəncərələrin hamısı açıqdır… Yay isə ipisti nəğmələr oxuyur…

## YAY QATARI

Yazı qoyduq arxada,
Yay da bizi haqladı…
Şütüyən qatarımız
Sərin yer soraqladı.

Bürkü bizi təntidib,
Aranda bərk isdidi.
Təmiz dağ havasında
Sərinləmək istədim.

Ayaqlar öz-özünə
Gedir bulağa sarı…
Şütüyür yay qatarı
Üzü yaylağa sarı…

Göydən sanki od yağır,
Dözə bilmirəm daha!
Yay arana gələndən
Yaz köçübdür yaylağa…

Qoyun quzu sürüsü
Yamaclara yayılıb…
İsti paltarımızı
Soyunduran yay olub.

Bizi qovuran günəş,
Bir az insafa gəlsin!
Açın pəncərələri
Qoy bir az hava gəlsin!

Şütüyür yay qatarı
Kömək eləyin bizə.
Ürəyimiz can atır
Okeana, dənizə…

Yay gözəllik taxtına
Qalxdısa, iş düzəldi!
Şütüyür yay qatarı,
Dünya necə gözəldi!

## YAY NƏĞMƏSİ

Od tökülür dilimdən,
Yayam, yayam,
yayam mən!
Oxlarım qızmar şüa, –
Bir çəkili yayam mən.
Gərək qoyun-quzunu
Yaylaqlara yayam mən.
Mən gələndə dağlara
Sanki xalı sərilər.
Çiçəkli yamaclara
Bəzək olar sürülər.
Mən olmasam, yanına
Gəlməzsiniz dənizin.
Ləzzətini, dadını
Bilməzsiniz dənizin.
İnsan həniri üçün
Yaylaqlar qəribsəyər.
Meşələr qəribsəyər,
Oylaqlar qəribsəyər.
Bilin mənim qədrimi,
Kef eləyin, dincəlin.
Gözəlliyin önündə
Kobud qəlblər incəlir.
Tanrının göndərdiyi
Sovqatam mən,
payam mən,
Yayam, yayam,
yayam mən…

## YAY YAĞIŞI

Quraqlıqdan torpağımın
Dodaqları olub çat-çat.
Rəngi solğun ağacların,
Çiçəklərin dadına çat!
Yaradanın buludlardan
Göndərdiyi pay yağışım, –
Yay yağışı.

Göz işığı gözləyən tək
Gözləyirik biz yolunu.
Suya həsrət yamaclardan,
Dağlardan sal öz yolunu.
Gözümüzü yolda qoyma,
Darıxmışıq, ay yağışım, –
Yay yağışı.

Dərman kimi, məlhəm kimi
Dərələrə, dağlara yağ.
Kövşənlərə, zəmilərə,
Çəmənlərə, bağlara yağ!
İslanmış torpaq ətrini
Hər tərəfə yay, yağışım, –
Yay yağışı!

## YAY KÜLƏYİ

Ləpələri sahillərə
Çiləyir ki, sərin olsun.
Ağacları yelpik kimi
Yelləyir ki, sərin olsun.

## YAY

Qupqurudur, çat-çat olub dağ-dərə,
Od ələnir sanki günəşdən yerə.

Harda qalıbdır baharın leysanı?
Qorxuda bilməz od-alov insanı.

Göstərəcəkdir el üçün hey hünər,
Od qabağında çalışan fəhlələr.

***

Nə olsun ki, gəlir yay,
Kəndimizdən axır çay.
Heç nə vecimə deyil,
İsti olsa, çimərəm.
Gəl sən də çim, ay oğlan,
Qorxma, evdə demərəm…

Yayda insanlar istidən qorunmaq, dincəlmək üçün yaylaqlara, dağlara üz tuturlar. Yay insanların paltarını əynindən soyundurur. Onlar dəniz sahilində istirahət edir, dalğaların qoynunda çimməkdən ləzzət alırlar… İstirahət bəlkə də isti, rahat sözlərinin birləşməsindən əmələ gəlib...

## GƏLİRƏM, DƏNİZ, GƏLİRƏM

Gen aç dalğa qollarını,
Gəlirəm, dəniz, gəlirəm.
İçimdə bir fırtına var,
Mən səndən ötrü ölürəm.

Dalğalar diş tək ağarır,
Dəniz, gülürsən deyəsən?!
Məni balıq etmək üçün
Sən də ölürsən deyəsən…

## SAHİLDƏ

Əyləşib ləpədöyəndə
Oğlum kəsibdir səsini.
Heyran-heyran dinləyirik
Biz dənizin nəğməsini.

Ağ dalğalar elə bil ki,
Pianonun dilləridi.
Onları çalan küləyin
Görünməyən əlləridi…

## DƏNİZİN NƏBZİ

Gün çıxır, ləpələr
Qızıl don geyinir.
Dalğalar dənizin
Nəbzi tək döyünür…

## QIZIL ŞƏFƏQLƏR ALTINDA

Qızıl şəfəqlər altında
Qızılı qumlar saralır.
Günün fırçası sarıdı,
Niyə belimiz qaralır?!

## ÇİMƏRLİKDƏ

Uzanmışam sahildə,
Kiçik qızım Həlimə
Balıqqulaqlarını
Düzür mənim belimə.
Danışır, qurban olum
Onun şirin dilinə.
Deyir: – Banka salıram
Mən atamın belinə.

## ÜÇÜNCÜ VAQON – PAYIZ

Birinci kupedə Sentyabr, ikinci kupedə Oktyabr, üçüncü kupedə isə Noyabr əyləşib. Qatar getdikcə kövrək payız nəğmələri səslənir…

## PAYIZ QATARI

Günəş qızdıra bilmir
Əzəlki tək torpağı…
Başlayır saralmağa
Ağacların yarpağı…

Yazda, yayda yamyaşıl
Olan budaqlara bax!
Rəngləriylə seçilir
İndi budaqda yarpaq.

Biri narıncı olur,
O birisi saralır.
Bəziləri qızarır,
Görən məəttəl qalır.

Təkcə yarpaqlar deyil,
Meyvələr də fərqlidir! –
Siz bu barlı-bəhərli
Budaqlara baxın bir!

Hər meyvənin öz rəngi,
Öz dadı, öz qoxusu.
Lalıxlayıb tökülür
Budaqlardan çoxusu.

Daha zərif saplaqlar
Tab etmir ağırlığa…
Gərək bağban onları
Vaxtında dərə-yığa…

Baxıram bağ-bağçaya
Köks ötürüb dərindən.
İndi bütün ağaclar
Seçilir bir-birindən…

Düşündükcə, adamın
Birə düşür kürkünə…
Hamı-hamı qayıdır
Öz əslinə-kökünə…

Hələ öyrəşməmişik
Bu çiskinə, yağışa…
Payız gəlir, təbiət
Başlayır yır-yığışa…

Göyə bax, qatarlanıb
Quşlar düzülür səfə…
Baxan tək hiss olunur
Uzağadır bu səfər…

## PAYIZ

Çən yığılıb indi uca dağlara,
Gəldi payız bağçalara, bağlara.

Çöldə çiçəklər saralıb soldular,
Bağda xəzəllər nə qədər boldular!

Yarpağını tökdü ağaclar yerə,
Sapsarı paltar geyinib dağ-dərə…

## NİFTALI

Payız yetişən kimi
Gedir bağa Niftalı.
Səhərdən axşamacan
Yığır ərik, şaftalı.

Gör nə zirək uşaqdır,
Əlini olmur görmək.
O, məhsul yığımına
Ürəkdən edir kömək.

## PAYIZDA

Uşaqların hamısı
Yollandılar meşəyə,
Meyvə yığsınlar deyə.
Əzgil ağacına bax,
Üstündə yox bir yarpaq.
Ancaq budaqlarında
Nə qədər əzgil qalıb.
Hamı dərib payını,
Balaca Yazgül qalıb…

## TƏBİƏTİN RƏNGLƏRİ

Atam deyir ki, payızdı
Fəsillərin qəşəngi, –
Seyr edəndə sevinirsən
Meşələri, bağları.
Ancaq daha təbiətin
Qurtarıb sarı rəngi,
Sabah ağla bəzəyəcək
Düzənləri, dağları…

**1981**

## DÖRDÜNCÜ VAQON – QIŞ

Qatar qarlı düzlərdən keçir. Hava bərk soyuqdu. Ancaq bu nə Dekabrın, nə Yanvarın, nə də Fevralın vecinə deyil… Dördüncü vaqon – qış bəmbəyaz rəngdədi… Qış nəğmələri adama ləzzət eləyir…

## QIŞ QATARI

Qış qatarı yol gedir,
Payızdan üzü qışa…
Dönüb bəyaz nağıla
Təbiət başdan-başa…

Qış qəribə bir quşdu,
Görünməsə də gözə,
O, çırpıb lələyini
Qar səpir çölə-düzə…

Dağlar gedib mürgüyə,
Yuxu görür dərələr…
Gözlərimi üşüdür
Bu qarlı mənzərələr…

Qış qatarı şütüyür
Cığırlar, izlər itir…
Qış yatan təbiətin
Üstünə yorğan örtür…

Zərrəcə fərq qoymur o,
Yatan dosta- düşmənə.
Sakitcə layla çalır
Təbiətə qış nənə…

Qoymur açıq yer qala,
Hər yeri pərdələyir.
Sözə baxmayanları
Çovğunla hədələyir…

Nadinc şəlalələrə
O, gözünü ağardır.
Qapqara dünyamızın
Qış üzünü ağardır…

Bu qatar yorulmadan
Bəmbəyaz qar daşıyır…
Bənövşələr, nərgizlər
Qar altında yaşayır…

Ağ yorğanın altında
Xeyir-bərəkət yatır…
Bu qatar hey şütüyüb,
Çiçəkli yaza çatır…

## QIŞ NƏ VAXT GƏLƏCƏK

– Ata, qar niyə yağmır?
– Oğlum, qışda yağacaq.
Yenə də çöllər, düzlər
Geyinəcək ağappaq.

Qarla oynayacaqsan
Sən də əlində əlcək.
Oğlum deyir: – Ay ata,
Bəs qış nə vaxt gələcək?

## BİR GECƏNİN İÇİNDƏ

Qış dəcəldir yamanca,
Yerə vurur keçəni.
Axşam belə deyildi,
Kim ağardıb küçəni?

Dağlar da ağ geyinib,
Yamaclar da, düzlər də.
Bu gün çoxlu sevinc var
Baxışlarda, üzlərdə…

Məni heyran qoyubdur
Qarlı qışın hünəri.
Bir gecənin içində
Ağardıbdır hər yeri…

## QIŞ QIŞ KİMİ KEÇMƏSƏ

Qışın varı – qarıdı,
Yazın varı – barıdı.
Yelli qış, dumanlı yaz
Olanda üzlər gülər.
Qış qış kimi keçməsə,
Bahar neyləyə bilər?
Ağacların budağı
Qırov tutubsa əgər,
İl bərəkətli gəlir,
Bol olacaq bar-bəhər.
Əyilməsə budaqlar
Qarın ağırlığından,
Payızda əyilərmi
Barın ağırlığından?

## ULDUZ YAĞIŞI

Lopa-lopa qar yağır,
Uşaqlar göyə baxır.
İşıqlanır dağ-dərə,
Çöllər, düzlər ağappaq.
Oğlum deyir: – Ay ata,
Ulduz yağır, göyə bax!

## QAR YAĞANDA

Yağır sahilə,
Yağır dənizə.
Elçin balkondan
Baxır dənizə.

Sahilə yağır,
Sahil ağappaq.
Dənizə yağır,
Əriyir ancaq.

Götür-qoy etdi
Elçin bir qədər:
– Torpaq dənizdən
Soyuqdur məgər?!

## PƏNCƏRƏDƏN BAXIRAM

Pəncərədən baxıram,
Lopa-lopa yağır qar.
Sanki ağ kəpənəklər
Uçub yerə qonurlar…

## NİYƏ YAĞIR, NİYƏ ƏRİYİR?

Qar yağır ki, hər tərəf
Ağ olsun, təmiz olsun.
Əriyir ki, suyundan
Çay dolsun, dəniz dolsun.

Qar yağır ki, sürüşək,
Şənlik edək, gülüşək.
Əriyir ki, yerində
Bitsin əlvan gül-çiçək.

## BUZ

Şaxta şiddət elədi,
Buz çoxaldı, buz artdı.
Qış yağışın yerinə
Qar elədi, buz atdı.
Adamı çırpır yerə,
Elə bil ki, buz atdı!
Çıxdım onun üstünə,
Məni yerə uzatdı…

## QAR YAĞIR

Qar yağır narın-narın,
Qar yağır xırda-xırda.
Ayağımın altında
Başlayır xırthaxırta…

Qar yağır noğul-noğul,
Qar yağır ulduz-ulduz.
Bir qar topu düzəltdim,
Əllərim oldu bumbuz.

Qar yağır inci-inci,
Qar yağır lopa-lopa.
Yağır Şaxta babanın
Saqqalından, üzündən,
Gözündən qopa-qopa.

Qar ələyir Qış nənə,
Dağı, düzü bəzəyir.
Meşədə yolkaları
Onun özü bəzəyir.

Qar yağır ələk-ələk,
Qar yağır xəlbir-xəlbir.
Düzənlərin, dağların
Sən də seyrinə gəl bir!

Bax, çöllər yazılmamış
Varaq kimidir elə.
Təzə il qüdrətini
Göstərməyibdir hələ.

Təzə il dağ qoyacaq
Uca dağın üstünə.
Yazacaq öz sözünü
Ağ varağın üstünə…

## QAR ADAM

Ay qar adam, qar adam,
Gəl incimə Qaradan.
Mən çöldə üşüyürəm,
Əriyirsən evdə sən.
İkimizin dostluğu
Tutmayacaq deyəsən…

## QAR QALMIR ŞƏHƏRDƏ

Buludlar aramsız
Yerə qar səpələr.
Ağ geyib dərələr,
Ağ geyib təpələr.
Maşınlar şütüyür
Belədən beləyə.
Alovlu nəfəslər
Qarı su eləyər.
Yağsa da səhərdən,
Qar qalmır şəhərdə…

## ŞAXTA BABA VƏ ÇAY

O qədər atılıb düşdü ki,
Fasilədə çay istədi
Şaxta baba.
Əgər içsən, əriyərsən,
Çay istidi, Şaxta baba.

## SON SÖZ – EPİLOQ

Zamanın qatarı bir an da olsun dayanmır. Bu qatar ox kimi şütüyərək gah gül-çiçəkli yazın, gah qızmar yayın, gah qızıl pyızın, gah da qarlı-şaxtalı qışın içindən keçir. Fəsillər dəyişdiyi kimi nəsillər də dəyişir, Elə buna görə də dünya gündən-günə təzələnir, gözəlləşir…

## TƏBİƏTİN DÖRD KEŞİKÇİSİ

– Gülləri, çiçəkləri
Niyə qəmgin edirsən?
Səndən ki, doymamışıq,
Bahar, hara gedirsən?

– Gedirəm ki, yay gəlsin,
Qızlar çıxsın yamaca.
Çimərliklər, yaylaqlar
Qəribsəyib yamanca.

Ələnsin çölə, düzə
Günəşin gur işığı.
Buz bağlamış dağların
Açılsın qırışığı.

– Təzə qızıb canımız,
Hara gedirsən, a yay?
– Gedirəm payız gəlsin
Əlində yüz sovqat, pay.

Qızıllansın ağaclar,
Meşə kövrəlsin bir az.
Həmişə deyib-gülmək,
Çalıb-oynamaq olmaz.

– Saralmış yarpaqları
Hey yığıb, yığışdırıb,
Payız, hara gedirsən?
– Astanada qış durub…

Gedirəm ki, o gəlsin,
Hər yana qar ələsin.
Təbiəti ağappaq
Bir örtüklə bələsin.

Torpaq yorulub yaman,
Dincəlməkçün gələn yaz,
Qar yorğanın altında
Yatıb dincəlsin bir az.

– Ay qış, hara gedirsən? –
Soruşub köks ötürdüm.
Gedirəm bahar gəlsin,
Mən növbəmi bitirdim…

Bahar, Yay, Payız və Qış –
Biz dörd qardaş, dörd fəsil,
Keşiyini çəkirik
Təbiətin müddəsil…

# “Daha uşaq deyiləm” kitabından

## QIZLAR, BALACA QIZLAR

### QLOBUS

– Atacan, bu qarpızdır?
– Yox, qızım, qlobusdur.
Bir bax, dənizlər, çaylar…
Qlobusun üstündə
Dünyamızın şəkli var.
– Şəkli varsa dünyanın,
Bizim evimiz hanı?
Bəs toplan,
Bəs məstan?
Yox, atacan, söylə ki,
Mən küsdüm qlobusdan…

### KÖRPƏ

Sən bizim körpəyə bax,
Sanki dil bilir.
Ağlayanla ağlayır,
Gülənlə gülür.
Ona bir şey uzatsan,
Əlini açır.
Su görəndə susayır,
Süd görcək acır…

## BALACA MÜƏLLİMƏ

Hələ getmir məktəbə
Altı yaşlı Gülarə.
Dayəlik eləyir o,
İki yaşlı Gülərə.

Kitab alır əlinə,
Oxuya bilir guya.
Tanımır hərfləri,
Çox vaxt “b” deyir “a”ya.

Hərflərin adını
Nə olsun ki, tərs deyir.
Hamı evdən gedəndə
Bacısına dərs deyir.

## BACIM

Səhərlər istəsəm də
Tez oyanım bacımdan,
Mümkün olmur heç zaman.
Həmişə məndən əvvəl
Yuxudan durur Sevinc.
Əlinə su götürüb,
Üzünə vurur Sevinc
Şeytan evdəkilərdən
Qoçaq bilir özünü.
Axı hamıdan əvvəl
O yuyur əl-üzünü!

## SEVİLİN KUKLASI

Nahar vaxtı yetişib,
Baxırsan hara, kuklam?
Gəl otur yemək yeyək,
Gözləri qara kuklam.
Mən şorba bişirmişəm,
Dadlı çıxıb, pis deyil.
Al, bu da sənin payın,
Necə, azdır, bəs deyil?!
Yenə pay verim sənə?
Bəlkə çay verim sənə?

## SAHİLDƏ

Ana körpə qızını
Bir təhər tutdu dilə.
Nəhayət, anasıyla
Rəna gəldi sahilə.

Dənizdən meh əsirdi,
Yellənirdi söyüdlər.
Elə bil ki, astaca
Dillənirdi söyüdlər.

Qız gah söyüdə baxdı,
Gah qara saçlarına.
Dedi: – Niyə söyüdün
Saçı yaşıldır, ana?!

## TƏRANƏ

Havada gəzir
Toppuş əlləri,
Düşüb alnına
Seyrək telləri.
Gülüşlərindən
Şəfəq tökülür,
Bu şeytan qızın
Gözləri gülür.
Danışa bilmir
Ancaq Təranə,
Onun dilincə
Danışır nənə…

## PƏRVANƏ

Donum var qırçın-qırçın,
Özüm bala sığırçın.
Tanımırsan, ay nənə,
Təranənin bacısı
Pərvanəyəm, Pərvanə.

## ADI PƏRVANƏ, ÖZÜ PƏRVANƏ

İşığın dövrəsində
Hərim-hərim hərlənər,
Balaca pərvanələr.
Nənənin nağılları
Yaman gələr xoşuna.
Pərvanə də fırlanar
Nənəsinin başına…

## BALACA AKTRİSA

Qışqırıb haray saldı:
– Yıxılmışam, ay ana!
Üz-gözümdən qan axır, –
İçini çəkdi Sona.
– Başıma xeyir olsun, –
Ana vurdu dizinə…
Sən demə bu şeytan qız
Gilənarın suyunu
Sürtübmüş üz-gözünə.

## XURAMAN

Özünü böyük sayır
Bizim kiçik Xuraman.
Gəlinciyi bələyir,
Dünən bələkdən çıxan.

## ÇİÇƏYİN BƏHANƏSİ

Yatmaq istəmir
Yenə bu şeytan.
Neçə bəhanə
Tapıb bayaqdan:
– Eh, yuxum qaçdı, –
Əsnəyir Çiçək.
– Gözlərini yum,
Yuxun gələcək.
– Gözümü yumsam,
Anacan, axı
Bəs hardan girər
Gözümə yuxu?!

## GÜLNAR

Ağzında dörd dişi var,
Yaman dəcəldi Gülnar.
Mən onu “maç” elədim,
O məni "qıç" elədi…

## GİLƏ

Gilə hələ uşaqdı,
Bəs niyə başı ağdı?
Tabaşirə bulayıb
O, məktəbdə əlini.
Sonra yadından çıxıb,
Sığallayıb telini.

## TƏRS

Dedim çıxma ağaca,
Çıxdı, yıxıldı Ağca.
Yarasını bağladım,
Kiri dedim, ağladı.
Bu ki tərsin biridi,
Dedim ağla,
Kiridi…

## QARA QIZ

Fikir verin bu qıza,
O qaradır, yoxsa qır?!
Hey yuyur əl-üzünü,
Ağarmır ki, ağarmır.

## SEVİNC KÜSÜB

Quyruğunu bulayır,
Dodağını yalayır.
Hey sürtüşür Sevincə,
Nə olub bu nadincə?
Nə dinir, nə danışır,
Qaradinməz olub çox.
Sevinc məstandan küsüb,
Məstanın xəbəri yox.

## SU, TORPAQ?

Belə bir sual verdi
Bir gün balaca Arzu:
– Atacan, söylə görüm
Torpaq çoxdu, yoxsa su?
Ata dedi: – Su çoxdu…
Qız düşündü bir qədər:
– Nəyin üstündə durur,
Atacan, bəs dənizlər?
– Suların da altında,
Gözəl bala, torpaq var.
– Bəs balaca torpağa
Necə sığışır sular?

## QIZIM-SAZIM

Yerə qoysan oxumaz,
Qucağımda dinər saz.
Qucağımda kiriyər,
Yerdə ağlayar Gülnaz.

## "NƏNƏM-NƏNƏM"

Qəribədir, ay Çiçək,
Süd vermir bizim inək
Onu sağanda nənəm,
Etməsə "nənəm-nənəm"…

## SONA

Südəmərsə də,
Balaca Sona,
Oyuncaqları
Basır ağzına.

Kukla çığırıb,
Kömək istəyir.
Guya qız onu
Yemək istəyir?!

## KABAB

İçində tonqal,
Qızarıb manqal.
Bəs neyləmisən
Bizim şişləri? –
Gətir, manqala
Düzək şişləri.
Balaca Aftab,
İstəyir kabab.

## İKİ KUKLA

Kuklalar arasından
Seçmişəm öz kuklamı.
Anam məni oynadır,
Mən alagöz kuklamı.
Bizi belə görəndə
Güldü qardaşım Xəyyam.
Ona dedim ki, mən də
Anamın kuklasıyam…

## GÜLLÜKDƏ

Anacan, mənə gül dər, –
Dedi balaca Solmaz.
– Hər gələn bir gül dərsə,
Qızım, parkda gül qalmaz…

## ƏKS-SƏDA

Çığırıram, qayalar
Əks eləyir səsimi.
Sanki tutuquşudur,
Təkrar edir sözümü.
Qışqırır qışqıranda,
Oxuyur oxuyanda.
Ancaq buna inanmır
Bizim dəcəl Güləndam.
Deyir: – Dağda adam var,
Yoxsa qaya danışar?

## LƏTAFƏT

Vermir mənə hay Lətafət,
Ay Lətafət, ay Lətafət!
Söylə, harda gizlənmisən?
Sən dağlarda gizlənmisən?
Kimsə tutdu əllərimdən,
Lətafəti tanıdım mən.
Sağ əlində bir qom yarpız,
Qucağıma tullandı qız…

## DİŞ

Mənim dişlərim çıxıb,
Soruşdu ki, Gülsəba, –
Sənin dişlərin nə vaxt
Çıxacaq bəs, ay baba?

## NƏRGİZ

Böyük qardaşı ilə
Gəzməyə çıxdı Nərgiz.
Çiçək yığıb çəməndən
Saçına taxdı Nərgiz.
Onu belə görəndə,
Çaşıb qalmışdı Çiçək.
Sanırdı ki, Nərgizin
Başında bitib çiçək.

## AYDAN VƏ ÇAYDAN

Ana çay dəmləyəndə
Üzü güldü Aydanın.
Dedi: – Ana, bu çaynik
Balasıdı çaydanın?

## AYSU

Gör nə oyundan çıxır,
Aysuya bax, Aysuya.
Sanki qaz balasıdı,
Elə hey cumur suya.

## AZƏRİN

Çiçəklərin içində
Gəzər bizim Azərin.

Nərgizləri çəməndən
Üzər bizim Azərin.

Özü də nərgizlərə
Bənzər bizim Azərin.

Telinə yüz cür çiçək
Düzər bizim Azərin.

Su verməsən güllərə,
Küsər bizim Azərin.

Qönçə dodaqlarını
Büzər bizim Azərin…

## NAĞIL DANIŞ

Evdə bekar durunca,
Nağıl danış Narınca.
Məlikməmməd de, necə
Divi pusdu gizlicə?
Necə endi quyuya?
Div gedəndə yuxuya
Necə aldatdı onu?
Hey danışdım, danışdım,
Gəldi nağılın sonu.
Göydən üç alma düşdü,
Kimə çatır almalar?
Nərgiz dedi: – Atacan,
Bunu bölməyə nə var?
Öz alma payımı da
Sənə bağışlayım mən,
Nə olar, əvəzində
Nağıl danış yenidən…

## AYBƏNİZ

Toyuqları çağırdı
Neçə dəfə Aybəniz.
Qumu yığıb əlinə
Səpdi yerə Aybəniz.
Hamısı dənə cumdu,
Bu ki,  dən deyil, qumdu?
Toyuqlar qayıtdılar,
Gedib hində yatdılar.
Qız yenə də çağırdı:
– Cibba, əlimdə dən var!
Daha onun sözünə
İnanmadı toyuqlar…

**ŞÜA**

Güzgünü tutdum günə,
Saldım onun üzünə.
Qızın gözü qamaşdı,
Kuklanı qoyub qaçdı.
Təzdən çağırdım onu,
Dedim: – Gəl divara bax!
Üstündəki şüanı
Tutarsanmı, ay qoçaq?
Cumdu şüaya sarı,
Şüa qalxdı yuxarı.
İstədi tutsun Pəri,
Boşa çıxdı əlləri.
Ana güldü: – Ay qızım,
Yoruldun, dincəl bir az.
Dostun səni aldadır,
Şüanı tutmaq olmaz.

**SOLMAZ**

Cəciyi atma
Çölə, ay Solmaz.
Adam küçəyə
Zibil tullamaz.
– Yaxşı, bir daha
Tullamaram mən. –
Elə bu zaman
Zibil tökdülər
Üst mərtəbədən.
Kağızlar uçdu
Havada quş tək.
Solmaz dilləndi
Gülümsünərək:

– Ana, bu xala
Utanmır niyə?
Zibil tullayar
Adam küçəyə?

## AYNUR

Pəpə deyir çörəyə,
Bəbə deyir körpəyə.
Divardan tuta-tuta
O yan, bu yana qaçır.
Guya özü böyükdür,
Təzə-təzə dil açır…

## BAĞÇA-BAĞÇA

Bağça-bağça oynayaq
Deyir bizim Həlimə.
Sən uşaq ol, atacan,
Mən də olum müəllimə.
Götür oynat, varımdır
Neçə cürə oyuncaq.
Yatmaq vaxtı gəlibdir,
Səs salmayın, ay uşaq.
İtələdin Süsəni,
Ayıb deyil, ay Solmaz?
Tez əl verib barışın,
Adam dalaşqan olmaz.
…Onu bu əyləncədən
Hünərin var gəl ayır.
Qız evdə olanda da,
Bağçanı unutmayır…

## GÜLSÜM

– Bu sənin harandı?
– Üzümdü.
– Bəs bura harandı?
– Gözümdü.
– Kimindir bu bağça?
– Bizimdi.
– Qız, adın nədi bəs?
– Gülsümdü.
– Tənəkdən sallanan
de nədir?
– Üzümdü.
– Dər apar nə qədər istəsən.
– Bir salxım bəsimdi…

## YALLI

Oğlanlar, qızlar
Tutub əl-ələ,
Rəqs eləyirlər
Çox həvəs ilə.
Yenə mağara
Düşüb hay-haray.
Rəqs eləyənlər
Vurublar halay.
Süzür əmilər,
Süzür xalalar -
Durnalar kimi
Bax, qatar-qatar.
Bu gün bayramdır,
Şənlik edirlər.
Tutub əl-ələ
Yallı gedirlər.

## NİYƏ DÖYÜRSƏN?

Yun çırpırdı bir dəfə
Həyətdə Gülsüm nənə.
Durub ona baxırdı
Bizim balaca Nanə.
Nənəsinin işləri
Çaş-baş qoymuşdu onu.
– Nənəcan, yazıq deyil,
Niyə döyürsən yunu?
Nənə dedi: – Ay qızım,
Sənin canın sağ olsun.
Çırpıram yun həm təmiz,
Həm də ki, yumşaq olsun.
Çox keçmədi aradan,
Birdən gördü ki, nənə
Donunu yerə atıb
Çubuqla çırpır Nanə.
– Neyləmək istəyirsən
Axı, qurbanın olum?
– Döyürəm təmiz olsun,
Nənəcan, çirkli donum…

## SƏNƏM

Öpür onun üzündən,
Öpür onun gözündən.
Balaca gəlinciyi
Çox istəyir özündən.
Əmzik də verir ona
Bizim balaca Sənəm.
Deyir: – Mən çox əmmişəm,
İndi də sən əm, sən əm!

## AYDANIN YUXUSU

Yuxusunda gördü ki,
Bizim balaca Aydan:
Xiyar yemiş boydadır,
Pomidor qarpız boyda.
Gilənar narcan olub,
Zoğal badımcan olub.
Hər şey, hər şey kökəlib,
O özü də yekəlib.
Yuxudan duran zaman
Görün bu qız neylədi? –
Ona nə verdilərsə,
– Balacadır, – söylədi.
Yekə xiyar verdilər,
Dedi: – Yaxın durmaram.
Böyüyünü gətirin,
Bunu yesəm, doymaram.
Yalvarıb yapışdılar,
Onu tutdular dilə.
Dedilər: – Tərslik etmə,
Bu xiyarı ye hələ!
Yenə xiyar verərik
Sənə, əgər doymasan. –
Xiyarın yarısını
Yeyə bilmədi Aydan.

## TELLİNİN BACISI

Tellinin telləri
Tel-teldi.
Tellinin bacısı
Ayseldi.

Ay hara, sel hara?
Bəs necə çıxıbdır
Sel ora?
Gecələr nur olub,
Səpilib ay seli.
Aydanmı süzülüb
Ayselim?!

**DARAQ**

Darağımın, ay Gülnar,
Gör nə qədər dişi var?
Ancaq qorxmuram, onu
Götürürəm əlimə.
Dişləriylə dişləmir,
Sığal çəkir telimə.

**ATA İŞDƏN GƏLƏNDƏ**

Ata yazı yazanda
Qələm istəyir Arzu.
Deyir: – Bəsdi, atacan,
Qoy bir az da mən yazım!

Götürəndə əlinə
Ata qəzet-jurnalı,
İmkan vermir oxuya,
Dartıb əlindən alır.

– Qoymursan bir iş görəm,
Ağıllı ol, sözə bax!
– İşdən indi gəlmisən,
Gəl mənimlə oynayaq!

## LEYLA

Baba işdən gələndə
Deyir balaca Leyla:
– Uzan dincəl, babacan,
Mən sənə çalım layla.

## BALIQLAR

Qəribədir, ay Fidan,
Balıqlar çıxmır sudan.
Nə isti demir onlar,
Nə soyuq demir onlar.
Həmişə çimir onlar.

## İSTƏYİRƏM Kİ…

Tikiş maşını
Alıbdır xalam.
İstəyirəm ki,
Mən dərzi olam.
Tikəm xalama
Bir qəşəng paltar.
Borclu qalmasın
Xalaya Gülnar.

## HEÇ BİR İL YATMAQ OLAR?

– Atacan, bir qulaq as,
Belə deyir Ehtiram:
Mən köhnə ildə yatıb,
Təzə ildə duraram.
Olarmı yatmaq bir il?

– Qızım, bu çətin deyil.
Bax, indi köhnə ildir,
Sabah təzə il gəlir.
Bu axşam yatıb, sabah
Durmaq çətin deyildir.

## ŞƏHƏRDƏ ŞƏHƏR

Deyirsən Sumqayıt
Yerləşir Bakıda.
Düz deyil, ay Ülkər.
Şəhərin içində
Olarmı heç şəhər?

## GÜLYAZ

Təzə-təzə dil açır,
Bir şeirdir hər sözü.
Mənə yazmaq öyrədir,
Yaza da bilmir özü.

Alan kimi qələmi
Sevinir dəcəl Gülyaz.
Qaralayıb dəftəri
Deyir: – Sən də belə yaz!

## BACIM DEYİR

– Bacım deyir gələn il
Heç un üyünməyəcək.
Un olmasa, nənəcan,
Bəs hardan olar çörək?

– Bacın düz deyir, bala,
Ancaq qorxma heç nədən.
Dəyirmançı əmilər
Üyüdəcək çoxlu dən.

– Un elə üyünübdür,
Şaqqanaq çəkdi Gözəl. –
Üyünmüşün nəyini
Üyütsünlər, ay dəcəl?

## ALA İNƏK, QARA DÜYƏ

Balası olmayacaq,
Ala inək qısırdı.
Gülsüm nənə nahaqdan
Ürəyini qısırdı.
Pis günün ömrü azdı,
Qara düyə boğazdı.
Bu gün-sabah doğacaq,
Nənə onu sağacaq.
Süd dolacaq sərincə,
Bulama bişirəcək
Gülsüm nənə Sevincə…

## ŞİRİN

Şirin şirin baladı,
Evdə şirni qalmadı.
Gileyləndi anası:
– Yox qızım, bu olmadı! –
Şirnini neyləyirsən,
Ay mənim Şirin balam?
– Ana, şirni yeyirəm,
Daha da şirin olam…

## BAĞÇANIN ÇİÇƏKLƏRİ

Çoxlu dostum var
Mənim bağçada.
Nədənsə burda
Darıxmır adam.

Şeir deyirik,
Rəqs edirik biz.
Sevinclə dolur
Kiçik qəlbimiz.

– Əcəb bağçadır,
Çiçəyi hanı?
– Çiçəkləri də
Bizik bağçanın.

## GÜLBƏNIZ

Dağları seyr edəndə
Belə dedi Gülbəniz:
Sanki dağlar gəmidir,
Düzlərsə yaşıl dəniz.

## HEÇ

Qarışıbdır üstümdə
Ot gülə, gül də ota.
Heç sənin paltarında
Gül yoxdur, ay Gülbuta!

## GÜLLÜ DON

Uşaqlar, gəlin baxın
Bizim kiçik Güllərə.
Arı qonub donunun
Üstündəki güllərə.

Güllər istəyir qaça,
Vurnuxur sola, sağa.
Arı sancmaq istəmir,
İstəyir ki, bal yığa!

## QUZU VƏ ARZU

Bu gün anadan olub,
Gəzir balaca quzu.
Anacan, bir yaşı var,
Niyə yerimir Arzu?

## GÜLNAZ

İstəyir ki, süpürsün
Gülnaz evi, eşiyi.
Hələ o, balacadır,
İş görəndə töyşüyür.
Toz bürüdü hər yanı,
Ay qızım, belə olmaz.
Süpürgəni istədim,
Küsdü, ağladı Gülnaz.
– Yaxşı, bəsdir, ağlama,
Evimizi süpür gəl!
Özündən də böyükdür
Əlindəki süpürgə…

## TƏNBƏL KİMDİR

Tez qaçdılar mətbəxə
Arzu ilə Dürdanə.
Anası qoğal verdi
Hərəsinə bir dənə.
– Kim tez yeyəcək görək?
– Bu nədi ki?
– Qoğaldı.
– Ana, Arzu tənbəldi,
Mən qurtardım, o qaldı…

## ELƏDİRMİ?

Deyirlər ki, Şəlalə
Dəcəl qızdır, a Lalə!
Evdə salır hay-həşir,
Bacısıyla güləşir.
Elədirmi, a Lalə?
Bacın deyil Şəlalə?

## "SUMQAYIT"

– Anam "Sumqayıt" aldı
Mağazadan bu səhər.
Niyə çaşıb qalmısan,
İnanmırsan, ay Mənzər?

– Şəhəri almaq olar? –
Gülməlisən, gülməli!
– Bu ki, yuyucu tozdu,
Şəhər nədi, ay dəli?!

Paltar tər-təmiz olur
Onunla yuyulanda.
Sevimli şəhərimin
Adı gəzir hər yanda.

## GÜZGÜ QABAĞINDA

Durub güzgü qabağında,
Nəğmə qopur dodağından.
Hey oxuyur, dinləyirik
Biz balaca Yasəməni.
Deyir: – Görün televizor
Nə qəşəng göstərir məni?!

## BƏYİM

– Döyülməyin gəlibdir
Bəlkə yenə, ay Bəyim?
– Yox, mən sözə baxanam,
Gəlməyib döyülməyim.

## BİRDƏN AY BATAR

Atasıyla sahildə
Gəzişirdi Ənisə.
Söylədi ki, ay ata,
Ay düşübdür dənizə.

Onun gəlişi ilə
Sular qərq olub nura.
Birdən batar dənizdə, –
Gör üzüb gedib hara?!

## QIRXILAN SAÇLAR

Dəllək mənim saçımı
Qırxdı, mən də kuklanın.
Mənim başım türləndi,
Kuklamın saçı hanı?

## ÖZÜDURAN KUKLA

Özüduran kuklanı
İstəyir yıxsın külək.
Əyilsə də, düzəlir
Yenə də əvvəlki tək.

## GÜLGƏZİN ÇƏKMƏLƏRİ

Çəkmə almışam
Kiçik Gülgəzə.
Çəkmə, nə çəkmə,
Qəşəng, təptəzə!

Görün neyləyir
Qız yatan zaman.
Çıxartmır onu
Heç ayağından.

Deyir: – Çəkməmi
Çıxartsam əgər,
Onu bəbələr
Götürüb geyər…

## AYTƏN

Mən qəzet oxuyanda
Hey firlanır başıma.
Aytənin dəcəlliyi
Gəlir mənim xoşuma.
Deyir: – Ata, səninlə
Dostluğumu kəsərəm.
Di ver mən də oxuyum,
Yoxsa səndən küsərəm…

## LEYLA

Gəlinciyinə
Yer salıb Leyla.
Üstünü örtüb,
Hey çalır layla.

Bir görün necə
Qaşını çatıb?
Deyir: – Ay ana,
Sus, uşaq yatıb…

## ŞAPALAQ İSTƏYƏN QIZ

Nə qəribə qızdı bu,
Məətdəl qalmışam mən.
"Şapalaq istəyirəm" –
Ağlayır ki, səhərdən.
Şillə vurdum yavaşca,
Dedim kiriyə bəlkə.
Ağladı gözlərindən
İncilər tökə-tökə.

Görün mənə nə dedi
Gözü yaşlı Gülbuta:
– Şapalaq istəyirəm,
Məni döymə, ay ata!
Di gəl bunu başa düş,
Onun könlünə dəymə.
Həm şapalaq istəyir,
Həm deyir məni döymə.
– Bəs qız nə istəyirmiş?
– Desəm, gülməyin tutar.
Şapalaq yox, şabalıd
İstəyirmiş Gülbuta.

## RUHİYYƏ

Qəşəng qızdı Ruhiyyə,
Göz qara, qaş çatmadı.
Anası layla çaldı,
Yatmadı ki, yatmadı.
Tez durdu yatağından,
Oyuncağı oynatdı.
Kuklaya layla çalıb,
Qardaşını oyatdı.

## AYNUR KİMDİ

Aynur kimdi?
Ay işığı,
Evimizin
Yaraşığı.
Aydan arı,
Sudan duru.

Hamı çox sevir
Aynuru.
Gül kimidir
Üstü-başı,
Pintilərdən
Gəlməz xoşu.

## İŞIĞA UZANAN ƏLLƏR

Əl uzadır
Aya qızım.
Ala gözlü
Maya qızım.
Elə bilir
Çatar əli,
İşıqdan çox
Xoşu gəlir.

## SUZANNA

Qaz almışam mən ona
Oyuncaq dükanından.
Sevinir, bircə addım
Kənar getmir yanından.
Gündə bir yol Suzanna,
Onu basır qazana.
Aldığım oyuncaqdan
“Dadlı yemək bişirir”,
Sonra qonaq çağırır
Qardaşı Cavanşiri.

## BİRDƏN

Dəyərək dağa, daşa,
Çay gəlir daşa-daşa.
Bizim balaca Gülər
Niyə düşüb təlaşa?
– Söndür televizoru!
– Nə olub ki, ay Gülər?
– Atacan, birdən bu çay
Daşıb evə tökülər…

## GÜLƏR BALA

Təzə ayaq açıbdır
Gül balam, Gülər balam.
Danışa bilməsə də,
Doyunca gülər balam.
Gəlinciyin saçını
Darayar, hörər balam.
Qoyun görsə mələyər,
İt görsə hürər balam…

## GÜLƏR

Gülərə bax, gücü çatmır
Ayağını qaldırmağa.
Çəkməsinin hər bir tayı
Elə bil ki, dönüb dağa.
Gülər bala şeytan qızdır,
Axşamacan deyib gülər.
Atasının çəkməsini
Ayağına geyib Gülər.

## GÜLƏNDAM

Açır albomu
Hər səhər-axşam.
Hey öz şəklinə
Baxır Güləndam.
Deyir: – Balamın
Saçı uzundu.
Atacan, bu da
Mənim qızımdı.

## ÜLKƏR

Durub baxıram
Bizim Ülkərə.
Üç addım atıb,
Yıxılır yerə.

Qalxır, yenidən
Getmək istəyir.
Təranəni də
Ötmək istəyir.

Ayaq açıbdır
Təzə-təzə o.
Sanki dünyanı
Verib bizə o.

## SÜSƏN

Nənə düyü qaynadıb,
Boşaltdı aşsüzənə.
Düyünü dəmə vurub,
Aş bişirdi Süsənə.

Yaddan çıxdı gəlincik,
Yaddan çıxdı oyuncaq.
Bir qab həlim də içdi
Aş bişincə bu qoçaq.

**MƏN OLMASAM**

– Səni evdən qovuram,
Tez ol dur get, Gülyana!
– Mən olmasam, aldığın
Südü kim içər, ana?
Sənin balan kim olar,
Konfetləri kim yeyər?
“Ay pipiyi qan xoruz”
Şeirini bəs kim deyər?

**QARANLIQDAN QORXAN QIZ**

İşıq sönəndə qorxur,
O da yumur gözünü.
Üstəlik əlləriylə
Bərk-bərk örtür üzünü.

O, dayanır beləcə,
Əgər yanmasa işıq.
Deyir ki, gözlərimə
Qoy dolmasın qaranlıq.

Gülmək tutur məni də,
Deyirəm ki, ay Ülkər,
Gözlərini yumanda
Qaranlıq olmur məgər?

## DODAĞI QAÇDI

Dedim Lalənin
Qaçdı dodağı.
Güldü sözümə
Qardaşım Nağı.
Dedi: – Ay Solmaz,
Belə şey olmaz!
Dedim ki, bunu
Bilir çox uşaq.
Gülmək deməkdir
Dodağı qaçmaq.

## RƏFİQƏLƏR

Lalə, Qərənfil,
Nərgiz, Bənövşə
Birgə çıxırlar
Dərsdən həmişə.
Adları qəşəng,
Özləri qəşəng.
Baş-başa verib,
Olurlar çələng.
Dostluq yaraşır
Bizim güllərə.
Evə dönürlər
Gül dərə-dərə.
Kənddə uşaqlar
Onları birgə
Görür həmişə.
Bənövşə lalə,
Lalə Qərənfil,
Nərgiz bənövşə
Dərir həmişə…

## AYDAN

Aldatmaq mümkün deyil
Bizim kiçik Aydanı.
Deyə-deyə öyrənib
Ağacların adını.

Baxa-baxa tanıyıb,
Çiçəklərin rəngini.
Seçir skripkadan
Kamanın ahəngini.

Dada-dada bilibdir
Meyvələrin adını.
Ağzına şirin dəyib,
Mürəbbəyə dadanıb.

**1981**

## MƏN BALACA DEYİLƏM

Atam niyə deyir ki,
Balacadır Xuraman?
Stolun üstə çıxıb,
Böyük oldum xalamdan.

## GÖY QURŞAĞI

Yağış kəsilən kimi
Göründü göy qurşağı.
Günəş çölə səslədi
Yenə oğul-uşağı.

Hamı qaçdı həyətə,
Görək Günel neylədi?
Baxıb göy qurşağına,
Mənə belə söylədi:

– Ay əmi, lentlərə bax,
Enli, uzun, rəngbərəng.
Biri-birindən gözəl,
Biri-birindən qəşəng.

Qaçıb xəbər verincə
Qardaşıma, bacıma,
Sən o lentləri gətir,
Bağla mənim saçıma.

**SU NİYƏ TÜKƏNMİR?**

Buluda bax, buluda,
Yağışı var, qarı var.
Dağların sinəsində
Sanki su anbarı var.

Mən bu çayın işinə
Mat qalmışam, ay Gülgəz,
Elə hey axır, axır,
Tükənməyir suyu bəs?

**GÜLSABAH**

Ad günündür, Gülsabah,
Sevin sabah, gül sabah!
Təbrik üçün gələcək
Çiçək sabah, gül sabah…

## GÖYÇƏK

Bir qızım var gözəl, göyçək.
Özü göyçək, adı Göyçək!
Karandaşı gətirib ki,
Mənə yer çək, mənə göy çək!

## SƏMƏNGÜL

Boynumu qucaqlayıb,
Deyir Səməngül balam:
– Ata, mən ana olum,
Sən də mənim gül balam!

## GÖR NƏ QƏŞƏNG…

Ata, ata, anam deyir
İşıqlı ulduz olmuşam.
Bax, yumuşam əl-üzümü,
Gör nə qəşəng qız olmuşam…

## BAĞÇA YOLUNDA

Bağçaya aparıram
Mən qızımı hər səhər.
Heç yerimək istəmir,
O, tənbəldi bir qədər.

Deyir ki, ayaqlarım
Bərk ağrıyır, ay ata!
Məni al qucağına,
Necə gedim piyada?

Qucağıma götürüb,
Deyirəm ki, ay Çiçək,
Ayağının ağrısı
Bəs nə zaman kəsəcək?

Öpüb mənim üzümdən
Söyləyir ki, bu şeytan:
– Ata, bilmirsən məgər? –
Bağçaya çatan zaman.

## BU NƏ YAXŞI QOYUNDU

– Ata, ata, gəl qaçaq,
Qoyun məni yeyəcək.
– Qoyun adam yemir ki…
– Bəs nə yeyir?
– Ot, çiçək.
– Ot gətirsəm yeyərmi?
– Niyə yemir, ay Səlmi.
– Ot uzatsam qoyuna,
Dişləməz bəs əlimi?
– Qorxma, otu qoyunun
Qabağına qoy indi.
– Heç əlimi dişləmir,
Bu nə yaxşı qoyundu…

## ƏNİSƏ

Ay Ənisə, Ənisə,
Tanımadın məni sən?
Yadındamı, keçən il
Bir getmişdik dənizə?

Mən qumdan ev tikmişdim,
Uçurmuşdun sən isə…
Yadındamı, Ənisə?

## SİNİFDƏ QALACAQSAN

Gündə "2" alırsan,
Bu nə işdi, ay Ülkər?
Sinifdə qalacaqsan
Belə oxusan əgər.
– Qalmaq nədir, müəllim,
Demə ki, fağıram mən.
Əlaçılardan qabaq
Sinifdən çıxıram mən…

## AYNUR

Kərgədanı, pələngi,
Fili, xallı ayını,
Yığaraq bir kisəyə
Çiyninə atdı Aynur.
Demə belə şey olmaz,
İnanmırsan, özün bax!
Torbasının içində
Var nə qədər oyuncaq…

## GÖZÜMÜ YUMSAM

Gözümü yumsam, –
Deyir Bənövşə, –
Yox olar dağlar,
Yox olar meşə…

## GÜLYANAQ

Gülyanaq, ay Gülyanaq,
Gül yanağın allanıb.
A gülyanaq Gülyanaq,
Gül dodağın ballanıb.
A gülyanaq, Gülyanaq,
Gül bağından gül itib.
A gülyanaq Gülyanaq,
Yanağında gül bitib.
A gülyanaq Gülyanaq,
Gül yandırır deyirlər
Gül yanağın həvəsi.
A gülyanaq Gülyanaq,
Gül, yanağın titrəsin!
A Gülyanaq, Gülyanaq,
Gül balamsan, gülümsən.
A gülyanaq Gülyanaq,
Dodaq büzmə, gülümsə!

## AYGÜN

Yanaqları
bir cüt nardı,
Gülöyşə.
Gecə aydır,
gündüz dönür
Günəşə.
Günəş gündüz
sevimlidir,
Ay gecə.
Aygün balam
sevimlidir
Gör necə! –

Fərqi nədir,
gündüz olsun,
Ya gecə…

## ÇİYƏLƏK

Televizorda çayı
Görən kimi Çiyələk.
Soyunur ki, atacan,
Gedib çim-çim eləyək!

## "DIZ-DIZ"

Dız-dıza bax, dız-dıza,
Dodaqları büzülür.
Bir söz söyləyən kimi
Gözündən yaş süzülür.

O ağlayır, uşaqlar
Cırnadırlar Xatını.
Qardaşı bu şeytanın
"Dız-dız" qoyub adını.

Soruşuram: – Nə üçün
Ağlayırsan?
Qız deyir:
– Axı uşaqlar mənə
Nə üçün "dız-dız" deyir?

Onun yaşlı gözündən
Öpürəm dönə-dönə.
Ağlağan qız olmasan,
"Dız-dız" deməzlər sənə.

## BƏH-BƏH

Şərbət istəyir
Balaca Fərəh.
Bir qurtum içib,
Söyləyir: – Bəh-bəh!

## YAĞIŞ KÖMƏK ELƏMİR

Eşidib ki, yağışda
Qalxır çiçəklər, güllər.
Düşüb durur həyətdə
Yağış yağanda Güllər.
Deyir mən də böyüyüm,
Deyir mən də boy atım!
Ancaq nədənsə onun
Boyunda olmur artım.
Qalxır çiçəklər, otlar,
Qalxır çayır, vələmir.
Nə insafsız yağışdı,
Mənə kömək eləmir…

## SƏNƏMƏ BAX…

Başını qoyub sinəmə,
Sənəmə bax, Sənəmə.
Deyir: – Qulaq as, ata,
Nağıl deyim sənə mən.

Nağıla bax, nağıla,
Ata qəlbi dağ olar.
Səsimi çıxarmıram,
Birdən fikri dağılar.

## PİŞİYƏ BAX

Pişik miyoldayanda
Balaca Rima deyir:
– Pişiyə bax, pişiyə,
Nənəyə “mama” deyir.

## NİYƏ BAXMIRSAN

Mürgülüsən, nənəcan,
Xəbərin yox xəbərdən.
Çarşabına bürünüb,
Oynayıram səhərdən. –
Mənə niyə baxmırsan?

Gözlüyünü xəlvətcə
Gözlərimə salmışam.
Uzun sözün qısası,
Mən də nənə olmuşam,
Nənə, niyə baxmırsan?!

## BAŞMAĞI İTƏN QIZ

İtmişdi Təranənin
Başmağının bir tayı.
Götürmüşdü otağı
Onun hayı, harayı.

“Hanı mənim başmağım?” –
Deyib ağlayırdı o.
Gümanı gələn yeri
Töküb yoxlayırdı o.

– Budur tapdım, ay bacı, –
Sevincək dindi Aydan.
Başmaq tapıldı, ancaq
Sevinmədi bu şeytan.

Bacısını danlayıb,
Mızıldandı bir qədər:
– Sən niyə tapdın, özüm
Tapa bilmirdim məgər?

**1978**

**OKEAN ÜSTÜNDƏ EV**

Uşaqlara deyir ki,
Bizim kiçik Aybəniz:
Okeanın üstündə
Yaşayır ailəmiz.
İnanmırlar sözünə:
– Yaman gopçusan, ay qız!
Onda belə çıxır ki,
Gəmidə yaşayırsız!
– Yox, gəmidə nə üçün,
Nə gəlib evimizə?
İnanmırsınız gedək,
Onu göstərim sizə.
– Okeanda balıq var? –
Soruşdu lağla Həsən.
Gülümsündü Aybəniz:
– Balıq nə qədər desən!
Bu da bizim "Okean",
Bax, ay Həsən, ay İbiş…
Gülüşdülər uşaqlar:
– Bu ki mağaza imiş!…

## GÜLNAZ

Sözə baxmadı, qaçdı
Yıxıldı Gülnaz bala.
Durub dedi: – Ay ata,
Yıxılmışdım az qala.

## ATLAS

Gəlinciklə danışır,
Bir dinləyin Atlası.
Deyir: – Sənin bacınam,
Anamınsa balası.

## BALACA DƏRZİ

Deyir kiçik Mərziyə:
– Dərziyəm, mən dərziyəm.
Mən parçanı ölçərəm,
Üstünə xətt çəkərəm.
Qayçı ilə biçərəm,
İynə ilə tikərəm.

## KONSERT

Vedrəni döyəcləyir,
Sənəmə bax, Sənəmə.
Söyləyir ki, qulaq as,
Konsert verim sənə mən!

Gülməkdən uğunuram,
Baxanda gülür o da.
Deyir: – Gülməyim gəlir,
Mənə gülmə, ay ata!

## SƏNİN BALANAM

Bir gecə it hürəndə
Mələk qalxdı yuxudan.
Bilmədi ki, neyləsin,
Tir-tir əsdi qorxudan.
Demədi ki, qorxuram,
Qorxaq deyərlər ona.
Söylədi ki, acmışam,
Çörək gətir, ay ana.
Anası yuxuluydu,
Dedi: – Şəkərim, duzum.
Bu vaxt çörək yeyərlər,
Hələ tezdi, yat, qızım!
İndi də atasını
Oyadıb dedi Mələk:
– Ata, sənin balanam,
Gəl bir az söhbət edək.

**1978**

## SƏRGİYƏ GEDƏCƏYİK

Gedəcəyik sərgiyə
Dedim kiçik bacıma.
Dedi ki, lentlərimi
Gətir bağla saçıma.

Görənlər söyləsinlər
Yaraşıqlı qızam mən.
Ulduzların içində
Desinlər ulduzam mən.

Saçına lent bağladım,
Gülümsündü Şərqiyə.
Dedi: – Bacı, məni də
Qoyacaqlar sərgiyə?!

## GƏLİNCİYƏ BAXIN BİR

Gəlinciyə baxın bir,
Ölmüş necə qəşəngdi!
Yanaqları allanıb,
Elə bil çiyələkdi.

Heç bilmirəm nə gəlir,
Nə gəlməyir xoşuna?!
Elə həmişə susur,
Danışmır boş-boşuna.

Çimdikləyirəm hərdən
Məgər o, ağrı bilmir?
Ağlamaqla işi yox,
Gülür, həmişə gülür…

## SƏHƏRGÜL

Sağ əlində var susəpən,
Baxın bizim Səhərgülə.
Düşüb gedir bağçaya o,
Su səpir hər səhər gülə.

Bu qız axşamlar yatanda,
Yuxuda görür gül-çiçək.
Səhər açır gözlərini
Səhərgül səhər gülü tək.

Səhərgül kimin balası?
– Anasının, atasının.
Səhərgülün yanaqları
Andırır gül butasını…

**AĞLAMA**

Yaman ağlağan idi
Körpə vaxtı Süsəni.
Bir dəfə ağlayanda
Yazdım onun səsini.
O vaxtdan xeyli keçib,
Qızım dil açıb indi.
Qurdum maqnitafonu,
Köhnə lent yenə dindi.
Yaxın gəldi Süsəni,
Məni görmədi amma.
Dinləyib öz səsini,
Dedi ki, can, ağlama!

**KONSERT**

Kuklasını oynatdı
Səhərdən axşamacan.
Heç özü də bilmədi
Yetişdi axşam haçan.
Diktor tək elan etdi:
– Oxuyur Kukla indi.
Qanad açdı nəğmələr,
Elə ki, Kukla "dindi"…
Çəmənlərin ətri var
Elə bil nəfəsində.
Günel özü oxuyur,
Kuklanın əvəzində…

## BALACA XALA

Cəldlikdə elə bil ki,
Bir pişikdi Dilarə.
Birincidə oxuyur,
Sonbeşikdi Dilarə.
Ancaq bu gün nədənsə
Allanıb yanaqları.
O, susdurmaq istəyir
Sinifdə uşaqları.
Heç kəs sözünə baxmır,
Deyir: – Neynim indi mən?
Əkiz oğlu olubmuş
Bacısının sən demə!
Cırnadırlar bu qızı,
Qara gözləri dolub.
Uşaqlar qışqırırlar:
– Dilarə xala olub!...

**1980**

## YUXUDAN DURMUSANMI

Yerdən qalxmaq istəmir
Bu şeytan oyanan tək.
Soruşuram: – Yuxudan
Durmusanmı, ay Çiçək?

Bərk-bərk yumub gözünü,
Durub baxıram ona.
“Yox, hələ durmamışam”, –
Deyib, çevrilir yana.

**1981**

## "KONFETİMİZ" QURTARDI

Bu gün konsert qurtardı
Radionu açan tək.
Diktorun sözlərini
Eşidən kimi Çiçək
Büzdü dodaqlarını,
Gözündəki yaş idi.
Bu şeytan atasına
Nə söyləsə yaxşıdı?!
– Bir az tez açsa idin,
Mənə də pay çatardı.
Gördün, radio deyir ki,
Konfetimiz qurtardı…

## BAŞMAQDAN ŞİKAYƏT

Hey axtardıq sağı, solu,
Gileyləndi yenə Süsən:
– Mən tapıram, o tapılmır,
Ata, başmağı görürsən!

## YUXUDA ŞEİR GÖRƏN QIZ

Bir şeir dedi
Qızım bu səhər.
Soruşdum ondan:
– Söylə, ay Səhər,
Kim öyrədibdir
Sənə bu şeiri?
Baxıb üzümə

Düşündü xeyli.
Dedi ki, heç kəs,
Yumulub gözüm.
Onu yuxuda
Görmüşəm özüm…

## ZOOPARKDA

İstiyə bax, istiyə,
Gör nə qədər bürkü var.
Yayın bu qızmarında
Ayıların kürkü var.
Bu nə işdi, qalın kürk
Çaşıb qalmışdı Günay:
Ayıların əynindən
Çıxmayır nə qış, nə yay?

## AYGÜN

Evimizdəkilər üçün
Gecə ayam, gündüz günəm.
Adımı nənə qoyubdur,
Tanış olaq mən Aygünəm…

## BÜRÜNÜB Kİ…

Külək qəzet parçasını
Dolaşdırıb ağaca.
Onu görcək gülümsünüb,
Deyir balaca Ağca:
– Ata, ata, ağaca bax,
Bürünüb ki, kağıza,
Bu soyuqda üşüməsin,
Əli dönməsin buza…

## RƏQS

Qarmonun səsi
Ucalır yenə.
Çiçək balalar
Əl çalır yenə.
Baxın ortada
Süzən Aydana.
Deyir: – Tez olun,
Girin meydana.
Elə atılıb
Düşür Kəmalə,
Lap sümüyünə
Düşür "Kəmalə".
Boş dayanmasın,
Deyin Aydana,
Qoy durub o da
Girsin meydana.

**1980**

## GÜNEL

Televizora
Baxır, hey baxır,
Doymayır Günel.
Rəqs olan kimi
Yerindən qalxır,
Oynayır Günel…

## XAL

Baxıb xalanın
Üzündə xala,
Günel soruşur:
– Bu nədi, xala?

Sayır xalları
O, dönə-dönə.
Deyir: – Bunları
Kim qoyub sənə?

## NƏ GÜLMƏLİ BƏBƏDİ

Yaman şeytan baladı
Bizim kiçik Rəbiyyə.
Deyir ki, gəlin baxın
Güzgüdəki bəbəyə.

Tərpədirəm əlimi,
O, əlini tərpədir.
Mənim ağzımı əyir,
Nə gülməli bəbədi?!

## MEHRİ

Görənlər heyran qalır
Bizim kiçik Mehrini.
Çiçəklərə salıbdır
Əzəl gündən mehrini.
Babasından öyrənib,
Gül əkməyin sehrini…

## ƏLİFBA TEATRI

Televizoru açdım,
Yaxın gəldi Gülsabah,
"Əlifba teatrı" başlandı,
Qızım güldü:

– Üçüncüyə gedirəm,
Ata, mən bu gün, sabah,
“Əlifba”nı öyrənir
Tənbəl Div neçə ildi…

## AYDAN

Evcik-evcik oynayaq
Deyir balaca Aydan.
Atacan, sən bəbə ol,
Mən isə sənin anan…

## TƏBRİZƏNİN GÜNAHI

– Oğlum, niyə vurmusan,
Neyləyib ki, Təbrizə?
– Nağıl danışan zaman
Qulaq asmır o bizə.

## GÜL YUVASI

Evdəki çiçəklərə
Gülzar qulluq eləyir.
Bu şeytan qız dibçəyə
Gül yuvası söyləyir…

## DAHA UŞAQ DEYİLƏM

Paltarlarımı
Özüm geyirəm,
Axı mən daha
Uşaq deyiləm!

# DƏCƏLLƏR

## AXŞAM, SƏHƏR

Axşam hava qaralır,
Gözümü yuxu alır.
Günəş öpür üzümdən,
Yuxu qaçır gözümdən.

## AYDAGƏZƏN

Ata aldı oğluna
Bir dənə aydagəzən.
Oğul dedi: – Ay da al,
Yoxsa istəmirəm mən.
– Ayı almaq olarmı
Ağıllı balam mənim?
– Ay yoxsa harda gəzsin
Mənim aydagəzənim?
Onda mənə raket al.
– Raketi neyləyirsən?
– Aya göndərəcəyəm
Aydagəzənimi mən.

## HƏSƏN

Böyük bacısı Şəfəq
Sual verdi Həsənə.
Onun üstə on gəlsən,
Neçə edər, desənə?

Saydı barmaqlarını
Bir neçə dəfə Həsən.
Suala cavab tapmaq
Çətin oldu deyəsən.
Fikirləşdi bir qədər,
Lap kəsildi əlacı.
Dedi ki, barmaqlarım
Elə ondu, ay bacı!

**RAMİZİN CAVABI**

Sual verdi Ramizə
Böyük qardaşı Baxış:
– De görüm bu dünyada
Eniş çoxdu, ya yoxuş?
Ramiz getdi xəyala,
Fikirləşdi bir qədər.
Sonra dedi sevincək:
– Tapmışam, ikisi də
Bərabərdir, bərabər…

**DAYIM ƏSGƏRDİR**

Əsgərdir mənim dayım,
Qulluq edir Vətənə.
Bir həftə bundan qabaq
Şəkil göndərib mənə.

Papağında ulduz var,
Çiynindəsə paqonu.
O qədər dəyişib ki,
Tanımadım heç onu.

Tankı da var dayımın,
Yopyoğundu lüləsi.
Düşmənləri öldürər
Onun iri gülləsi.

Yazmışdım o paltardan
Alıb mənə də göndər.
Dayımsa yazıb mənə:
– Heç darıxma, ay Zəfər!

Satılmayır bu paltar,
Nə vaxt ki, oldun əsgər,
Mənim geyindiyimdən
Sənə də verəcəklər.

## XƏBƏRÇİ QOZ

Gedəndə qoz bağına
Rəhim dedi Vüqara.
Dünən burda qoz yedim,
Əlim oldu qapqara.

Dodağıma bax hələ,
Gülür Ələsgər baba.
Deyir ki, oğul, sanki
Ağzın batıb doşaba.

Nə olsun yetişməyib,
Gör nə dəcəl qozdu bu!
Gizli gördüyüm işi
Dodağıma yazdı bu!

## ÇANTA

– Elşən, çantamda nə var? –
Əgər oğulsansa, tap.
– Nə var bunu bilməyə,
Karandaş, dəftər, kitab…
– Yox, tapmadın konfet var,
Yanılırsan həmişə.
– Xəbərin yoxdur sənin,
Mən onları yemişəm…

## KİTABXANADA

Bizim kitabxanada
Nə kitab istəsən var.
Boş keçirmə vaxtını,
Gəl sən də kitab apar.
Maraqlıdır hamısı,
Oxumaqla doymazsan.
Bir səhifə oxusan,
Heç əlindən qoymazsan.
Öyrənməli vaxtındır,
Körpə deyilsən daha.
Gəl sənə kitab verim,
Ancaq cırmayasan, ha!

## ÖPÜM, SAĞALSIN

Qapının arasında
Qaldı barmağı.
Ufuldayıb ağrıdan
Ağladı Nağı.
Barmağını göstərib,
Dedi: – Uf oldu!

Hamısını eləyən
Bu Rauf oldu.
Ana min nəvazişlə
Öpdü “yaranı”.
Tənzif üçün göndərdi
Qızı Saranı.
Raufsa ağlayırdı
Hey xısın-xısın.
Deyirdi: – Gəl əlini
Öpüm, sağalsın.

**DİL PƏHLƏVANI**

Bir dəcəl oğlan
Tanıyıram mən.
Ən asan iş də
Gəlməz əlindən.
Deyir dənizdir, –
Görsə bir damla.
Söz güləşdirir
Elə adamla.
Ona görə də
Hamı Elxanı
Belə çağırır:
– Dil pəhləvanı!

**QARIŞIQ DÜŞƏR**

Verib şəklini
Fotoqraf əmi
Dedi: – Bu sənsən,
Oğlum, eləmi?

Baxıb əksinə
Güldü Zülqədər,
Şəkli götürüb,
Evə gəldilər.
Sevincək dedi
Bacısı Fatma.
Şəkilləri ver
Qoyum alboma.
Razı olmadı
Oğlan bu işə.
Qorxdu ki, şəkli
Qarışıq düşə.

## TÜSTÜLÜ OCAQ

Getmə balama sarı,
A tüstü!
Getdin balama sarı,
O küsdü.
Dedim oda yaxın dur,
Ol isti.
Dedi: – Ata, gəl gedək,
Bu pisdi.

## RƏFI

Bizim balaca Rəfi,
Düzəltdi kitab rəfi.
O, sevinə-sevinə
Kitab qoyanda rəfə,
Rəf uçdu, taxtaları
Dağıldı dörd tərəfə.

## ƏKİZLƏR

Əkiz qardaşdır
Mahir, Məzahir.
Hünərin varsa
Onları ayır?
Hansı Mahirdi,
Hansı Məzahir?

## AT MİNƏN OĞLAN

– Ay xala, xəbərin var,
Ata minmişdim bu gün.
Dedim: – Gəl min tərkimə,
Qorxdu, minmədi Aygün.

Mən elə çapırdım ki,
Çatmazdı bizə yel də.
– Harda minmişdin ata?
– Xalacan, karuseldə.

## PAPAQ

Görmürsənmi yağır qar,
Hanı papağın, İlqar?
Ananın sözünə bax,
Get başına qoy papaq.
Lovğalanma, di bəsdi,
Öyünməyin əbəsdi.
Qazan qapaqsız olmaz,
İgid papaqsız olmaz…

## BALACA DƏMİRÇİ

Dəmirçidir bu oğlan,
Bu çəkic, bu da zindan.
Ay bala, dincəl bir az,
Səndən dəmirçi olar,
Qazandan zindan olmaz,
Çömçədən çəkic olmaz.

## FAMİL

Bizim balaca Famil
Qucağına alıb fil.
Çiynində bir şələ var,
Sağ əlində dələ var.
Görürsən nə güclüdür,
Bu igid oğlana bax.
Qucağına götürüb
Yeddi-səkkiz oyuncaq…

## BALACA SUVAQÇI

Suvaqçının yanına
Getdi balaca Rövşən.
Söylədi ki, əmican,
Qoy suvaq eyləyim mən.
Tez götürüb palçığı
Vedrənin üstə çıxdı.
Bir az divara yaxdı,
Bir az üstünə yaxdı.
Balaca suvaqçıya
Usta baxıb qımışdı.
Rövşən divarı deyil,
Üstünü suvamışdı.

## SÖHBƏTİN SƏBƏTİ

Meşədən yığmışdı göbələk,
Geriyə dönürdü sevincək.
Yol boyu qızışdı söhbətə,
Göbələk qalmadı səbətdə.
Xəbəri olmayıb Söhbətin,
Deşiyi var imiş səbətin…

## "TOP-TOP"

– Atacan, göydən
Səpilən yağış,
Yerdə qalacaq? –
Soruşdu Baxış.
– Yox, buxarlanıb,
Göyə qalxacaq.
– Top-top oynayır
Buludla torpaq?

## VAĞZAL

Mən vağzala gəlmişəm,
Oy, nə qədər adam var!
İşıqlı vaqonlara
Doluşdular adamlar.
Qatar getdi, azaldı, –
Dedim: – Bir qatar adam.
Başımı sığallayıb,
Tələsmə, – dedi atam.
Elə bu vaxt bir qatar
Yaxınlaşdı perrona.

Gör nə çox adam düşür,
Bir fikir ver, ay ana!
Gələnlərə baxırdı
Kənarda durub hamı.
Elə bu vaxt qatardan
Düşən gördüm xalamı.
Yüyürüb qucaqladım,
Xalam öpdü üzümdən.
Dedim: – Sağ ol, xalacan,
Çıxmamısan sözümdən,
Qonaq gəlmisən bizə.
Ana, yorğundur xalam,
Tez gedək evimizə…

## ƏZİZ

Palto aldılar
Yayda Əzizə,
Geydi əyninə,
Baxmadı sözə.

Əzizi görcək
Güldü uşaqlar,
Onun yanına
Gəldi uşaqlar.

Həyətdə hamı
Danladı onu,
Dedilər: – Qışa
Saxla paltonu!

## TOY

Həyətdə toy çaldılar,
Səs götürdü aləmi.
Xalamın toyu oldu,
Apardılar xalamı.
Zurnaçılar zurnanı
Yenə dilə gətğirdi.
Dayımın toyu oldu,
Təzə xala gətirdi…

## ƏYYUB VƏ ELÇİN

Mıxı tərsinə qoyub,
Çəkiclə vurdu Əyyub.
Yoruldu bu avara,
Mıx getmədi divara.

Belə də iş görərlər,
Əyyuba güldü Elçin:
– Bu mıxı düzəldiblər
O biri divar üçün…

## ARXDAN HOPPANAN OĞLAN

Axı kim bələd deyil
Bu oğlanın gücünə? –
Arxdan hoppandı, ancaq
Düşdü suyun içinə…

## SALMAN

Alma verdim, almadı,
Danlayanda Salmanı,
Dedi: – Qaldırın göyə,
Özüm dərim almanı.

## POLAD

Kim tanımır Poladı,
Şirin-şəkər baladı.
Anasını incitmir,
O, çox üzüyoladı.

## HADİ

– Niyə çox su içirsən? –
Belə olmaz, ay qoçaq!
– Atacan, istəyirəm
Boyum olsun çox uca!

– Onda çoxlu çörək ye! –
Bəhanə tapdı Hadı:
– Çinar təkcə su içir,
Gör neçə mən boydadı?!

## SƏNƏKDƏKİ QARPIZ

– Sənəkdəki qarpızı
Gətir kəsək, ay İlqar.
– Nə əcəb bilməmişəm,
Sənkdə qarpızmı var?!

Ay can, yəqin bu qarpız
Bumbuz olar sənəkdə.
Hamı güldü: – Ay dəcəl,
Qarpız olar sənəkdə?

Dedi: – Aldadırsınız,
Bilmirəm məni niyə?
Balaca bir deşikdən
Qarpız girər sənəyə?

## BALACA BALIQÇI

Hey öyünürdü
Balaca Xalıq:
– Bu gün tor atıb,
Tutmuşam balıq.

Belə işlərdə
Məharətim var.
Həsədlə ona
Baxdı uşaqlar:

– Hardan tutmusan,
Gizləmə bizdən?
Çaydan tutmusan,
Yoxsa dənizdən?

– Eh, balıq tutmaq
Deyilmiş asan.
Güclə tutmuşam
Akvariumdan.

## BELƏ DƏ XALA OLAR

– Gəl xalaya salam ver,
Mənim ağıllı balam.
– Axı bizə gəlməyib,
Anacan, hanı xalam?
– Bəs bu kimdi, ay bala?
Mızıldandı Etibar:
– Heç mənə konfet vermir,
Belə də xala olar?

## TƏNBƏL

Dedim ki, get su gətir,
Səpək çiçəyə, gülə.
– Nə yeyib ki, bu güllər
Su içirlər bir belə?

## VÜQAR

Hayandadır bu futbol?
Kimsə qışqırır: – Qol, qol!
Sındırdılar lampanı,
Mətbəxdə söndü işıq.
ÇiliklƏndi şüşələr,
Cingildədi qab-qaşıq.
Pəncərədən düşəndə
Topumu tanıdım mən.
O, qurtardı canını
Qardaşımın əlindən.
Bu nə işdir, ay Vüqar,
Evdə top oynayarlar?
Yaman utandı Vüqar,

Ağladı acı-acı:
– Bir də top oynamaram
Evimizdə, ay bacı!
– Hər yanı dağıtmısan,
Belə şey olmaz axı!
Kömək et yığışdıraq
Yerdəki qab-qacağı.
Vüqar işə başladı,
Yaşı sildi gözündən.
O, bir daha çıxmadı
Bacısının sözündən.

## CIRTDAN

Nənəm danışır hərdən
Cırtdanın nağılını.
Tərifləyir həmişə
O, Cırtdanın ağlını.
Qoşulub uşaqlara
Meşəyə gedən zaman
Yolu itirir onlar,
Çarə axtarır Cırtdan.
Bir yanda itlər hürür,
İşıq gəlir bir yandan.
Hara gedək, qardaşlar? –
Soruşur qoçaq Cırtdan.
– Biz qorxuruq, ay Cırtdan,
Yazığın gəlsin barı.
Ora getsək it tutar,
Gedək işığa sarı.
Demə işıq gələn yer
Olur bir divin evi.
Cırtdan qoçaq tərpənib
Aldadır nəhəng divi.

…Elxan məndən böyükdür,
Yaman özünü öyür.
Balacayam, həmişə
O, mənə Cırtdan deyir.
Qorxutmaq istəyir o,
Məni bir xortdan kimi.
Qorxmuram, ağıllıyam
Axı mən Cırtdan kimi…

**ELŞƏNIN ATI**

Elşən minəndə ata
Ayağı yerə çatar.
Deyirsən: – Belə olmaz,
Axı Elşən uşaqdı.
– Bu düzdür, ancaq onun
Atı da oyuncaqdı.

**MƏN YUXUDAN DURANDA**

Axşam yetişən kimi
Ay yerə şölə salır.
Gecələr səhərəcən
Ulduzlar oyaq qalır.

Dağların arxasından
Gün çıxanda, ay batır.
Mən yuxudan duranda,
Ulduzlar gedib yatır…

## DAŞ VƏ HƏSƏN

Ayağına daş dəydi,
Hirsləndi, daşı döydü.
Daha da bərk ağrıdı,
Görən bu nə ağrıdı?
Daş heç uf da demədi,
O, neyləsin bəs indi?
Döyən də Həsən idi,
Ağlayan da Həsəndi…

## TOPUM

Yerə düşdün əlimdən,
Qaçdın, çata bilmədim.
Mən neyləyim bəs indi,
Səni tuta bilmədim?
Ay mənim dəcəl topum,
De, səni hardan tapım?
Günah özümdə olsa,
Axtarardım, tapardım.
Dedim düşmə əlimdən,
Düşdün, külək apardı…

## ŞAR VƏ YAŞAR

Belə söylədi Yaşar:
– Öyünmə, a şar, a şar!
Ac idin, üfürmüşəm,
Qarnın havayla dolub.
Səni göyə qaldıran
Mənim nəfəsim olub…

## HƏSƏN BALA

Həsən bala, Həsən bala,
Anasından küsən bala.
Di ağlama, apararam
Səni hara desən, bala!
Kiriмədi Həsən bala,
Süsən gedə, Həsən qala?

## VÜSALIN XAHİŞİ

Avtobusa minəndə
Xahiş elədi Vüsal:
– Ay ata, sən bacının
Kuklasına bilet al!

## YOD

Barmağımı kəsəndə
Anam sürtdü bir dərman.
Bilmədim ki, neyləyim
Yaramın ağrısından.
Adını da soruşdum,
Anam dedi ki, yoddu.
Barmağımı yandırdı,
Bu ki, yod deyil, oddu?!

## MÜBARƏK VƏ ƏYRİPƏNCƏ

Ay əyripəncə,
Gücüm yox səncə?!
Dur gəl güləşək,
Dedi Mübarək.

Evi götürdü
Onun şən səsi.
Sındı ayının
Əyri pəncəsi.

– Niyə mənimlə
Güləşdin, ayı?
Axı deyildim
Mən sənin tayın?

**MAĞAZADA**

Bir gün Vüsal atasıyla
Getdi "Uşaq aləmi"nə.
Ata dedi: – Bir yaxşı bax,
De, nə alım, oğlum, sənə?

Dillənmədi heç bu oğlan,
Tərpənmədi də yerindən.
Gör nə qədər oyuncaq var! –
Keçmək olmur heç birindən.

Fikirləşdi, fikirləşdi,
Birdən belə dedi Vüsal:
– Ata, elə istəyirsən
Mağazanın özünü al!

**SÜLEYMAN**

Kuklalar pəhləvandır,
Xalçanın üstü meydan.
Səhərdən "güləşdirir"
Kuklaları bu şeytan.

Tənginəfəs olubdur,
Tər axır yanağından.
Güləşən kuklalardı,
Əldən düşən Süleyman.

## BÖYÜKKİŞİ

Təzəcə tamam olub
Qardaşımın bir yaşı.
Yerimək istəyəndə
Ayaqları dolaşır.

Anam deyir:
– Boy atıb,
Olasan böyük kişi!
Özü bir balacadı,
Adısa Böyükkişi…

## BAĞA GEDƏNDƏ

Dincəlməyə gedirik,
Səfalıdır bizim bağ.
Mənim maşınımı da
Qoy maşına aparaq.

Bağımızda gəzəndə
Bəs nə minim, ay ata?
Özünüz fikirləşin,
Necə gəzim piyada?

## BİZİM EVDƏ

Sən gəl bizim evə bax,
Var nə qədər oyuncaq.
Tülküylə toyuq-cücə
Mehribandılar necə?
Canavarla quzu da
Yatır burda mehriban.
İtlə pişik dalaşmır
Evimizdə heç zaman.

## ŞƏHƏRDƏN GƏLƏN OĞLAN

İnəyi əmir buzov,
Qışqırır ki, Dağbəyi:
– Nənəcan, tez gəl bir az
Buzov yedi inəyi…

## BALACA BOKSÇU

Televizorda
Boks olan zaman,
Diqqətlə baxır
Balaca Orxan.

Yumruqlaşmağı
O, çox xoşlayır.
Yarış qurtarır,
Orxan başlayır.

Döyür toplanı,
Döyür ayını.
Oyuncaqların
Verir payını.

## İGİDƏ BAX, İGİDƏ

Ələsgər qozu-qozu,
Ağzına saldı qozu.
Bir gör necə güclüyəm,
Söylədi ki, Rəşidə.
Qozu sındırdı, ancaq
Sındı onun dişi də…

## GIZLƏNPAÇ

– Gözlərimi açıram,
Tez ol gizlən, ay Kərim.
– Pərdənin dalındayam,
Ata, məni tap görüm.

## YELLƏNCƏK

Yelləncəyə mindirdi
Məni qardaşım Aslan.
Yelli-yelli yelləndi
Yelləncəyim bir azdan.
Quş kimi qanad açdı,
O yan, bu yana uçdu.
Mən də ona qoşuldum,
Elə bil ki, quş oldum.
Uçdum o yan, bu yana,
Əl elədim Aslana.

## BALACA RƏSSAM

Yaşıl rəngi yarpaqdan,
Qara rəngi torpaqdan,
Qırmızını lalədən,
Ağ rəngi qarlı düzdən,
Göyü geniş göylərdən,
Mavi rəngi dənizdən,
Sarı rəngi günəşdən
Alıb balaca Rövşən,
Yaşıl çəkdi yarpağı,
Qara çəkdi torpağı.
Lalələri qızartdı,
Qarlı düzü ağartdı.
Dənizi mavi çəkdi,
Göyü səmavi çəkdi.
Bir az çətinə düşdü
Kiçik rəssamın işi.
Təkcə sarı rəng ilə
Necə çəksin günəşi?!

## ƏLİ

Soruşdum: – Adın nədir?
Belə bir cavab aldım:
– Əllidən bir "L" çıxsan
Qalacaq mənim adım.

Ay uşaqlar, bu oğlan,
Doğrudan, gülməlidir.
Fikirləşib tapdım ki,
Onun adı Əlidir.

## ZƏFƏR

Stolun üstə çıxma,
Söylədim ki, Zəfərə.
Çıxdı, bir az keçməmiş
Yz üstə dəydi yerə.

Qucaqlayıb boynumu
Öpdü mənim üzümdən.
Dedi: – Əmi, çıxmaram
Bir də sənin sözündən!

## QAPIÇI

Siz də baxın bu
Dəcəl oğlana.
İki stulu
Qoyub yan-yana.
Qapı düzəldib,
Qapı, nə qapı!
Bir qapıçı da
Axtarıb tapıb.
Qapıda duran
Göygöz kukladı.
Məşhurlaşmayıb
Hələlik adı.
Vurulan toplar
Keçir qapıdan.
Saxlaya bilmir
Bircə topu da…

## BALIQ VƏ XALIQ

Xalıq deyir: – Üzəydim
Kaş suda balıq kimi.
Balıq deyir: – Gəzəydim
Quruda Xalıq kimi.

## DƏMİR PAPAQ

Təvəkkülə baxın bir,
Tanıdınız siz onu? –
Keçiribdir başına
Balaca bir qazanı.

Deyir ki, böyümüşəm,
Ana, qoçaq olmuşam.
Görürsən, mən özümə
Dəmir papaq almışam.

## SEYRAN

Kiçiçk Seyranı
İzləyirəm mən.
Bürüyüb evi
Meyvənin ətri.
Demir ki, alma
İstəyirəm mən,
Deyir: – Acmışam
Almadan ötrü…

## MİLÇƏKDƏN QORXAN OĞLAN

Çəməndəki arını
Tutmaq istədi Aslan.
Arı sancdı, oğlanın
Alnı şişdi bir azdan.

İndi arı görəndə
Qaçıb gendən baxır o.
Arı bir yana qalsın,
Milçəkdən də qorxur o.

## OĞULSAN KİRİT

Yenə dəcəllik etdi,
Atılıb düşdü Samir.
Səbinənin şarını
Axır ki, deşdi Samir.
Dili yanmış Dilavər,
O saat verdi xəbər.
Hələ biri susmamış,
Dözmədi, biri dindi.
Ağlayan Səbinəni
Oğulsan kirit indi!

## KÜLƏKLİ HAVADA

Tufana bax, tufana,
Çalxalayır dənizi.
Gəlin tutaq əl-ələ,
Kömək olsun əl ələ,
Yıxmasın külək bizi.

## TƏHSİN

Yağış yağır,
Deyir Təhsin:
– Girək evə,
Yağış kəssin!

## YAZIQ DEYİLMİ

Dəftər-kitabı
Yığıb önünə,
Fikirləşirdi
Atam, ay nənə.
Anama dedi
Eşitdim ki, mən:
“Baş sındırıram
Evdə səhərdən.”
Yazıq deyilmi,
Nənə, o adam?
Kimin başını
Sındırıb atam?

## ZİYADA BAX, ZİYADA

Ziyada bax, Ziyada,
Qoruqçudu qoruğa.
Ziyada bax, Ziyada,
Yeyir isti qovurğa.
Ziyada bax, Ziyada,
Birdən mindi küy ata.
Küy at Ziyadı yıxdı,
Ziyad qaldı piyada…

## TƏNBƏLƏ SÖZÜM

Müəllim dərs soruşur,
Niyə qaldırmırsan əl?
Şeiri öyrənməmisən,
Bu nə işdi, ay tənbəl?
Gör nə gözəl nəğmədir,
Ətri gəlir gül kimi.
Onu əzbər söyləyir
Dostların bülbül kimi.
Müəllimlər danlayır
Tənbəlləri həmişə.
Çalışsan bizim kimi,
Həsrət qalmazsan "beş"ə…

## DƏRSƏ GECİKƏN OĞLAN

Həmişə dərsə
Gecikdi Həsən.
Bəhanə tapdı
Nə qədər desən.
"Yatmışdı saat,
Bilmədim vaxtı."
"Yolda maşının
Təkəri çıxdı."
"Gec oyanmışam
Bu gün yuxudan…"
– Bir belə yalan
Olmaz, ay oğlan! –
Danladı onu
Təranə, İlqar.
"Yatağan" deyə
Güldü uşaqlar.

Söz təsir etdi
Ona deyəsən.
Daha dərslərə
Gecikmir Həsən.

**ŞƏNLİKDƏN QAYIDANDA**

Şənlikdən qayıdanda
Dedi balaca Aslan:
– Mən yekəlib olanda,
Ata, şaxta babacan,
Yekə ağac alarsan,
Götürərəm əlimə.
Uzun dolaq alarsan,
Dolayaram belimə.
Mənə aldığın papaq
Ulduzlu papaq olsun.
Uzun saqqal alarsan,
Özü də dümağ olsun!
Unutmuşdum az qala,
Sözüm qurtarmayıb ha!
Çoxlu konfet alarsan,
Verərəm uşaqlara…

**ƏYRİ MIX**

Bir dənə əyri
Mıx tapdı Musa.
Bir şey çıxmadı,
Hara vurdusa.
Sınadı min yol
Çəkici, daşı.

Gülüb söylədi
Böyük qardaşı:
– Düzəltməliyik
Onu biz hələ.
Mıxın əyrisi
Taxtaya getməz,
Gərək düzələ…

## HƏŞİM

Ata işdən gələndə
Deyir balaca Həşim:
– Uzan yerə, ay ata,
Kürəyində əyləşim.
Kitab oxuyum bir az,
Sənsə mənə qulaq as!

## BİR DOSTU VAR

Bir dostu var Qaraşın,
Nərmənazik, qaraşın.
Oynayırlar çəməndə
Səhərdən axşamacan.
Gah enirlər dərəyə,
Gah qalxırlar yamaca.
Paqqıldayır dərədə
Soyuq bulaq, buz bulaq.
Quzular yonca yeyir,
Onlar yemlik, qüzqulaq.
Hamı bir yerdə görür
Qaraş ilə Rövşəni.
Qoşulub quzulara
Dolaşırlar kövşəni…

## GƏL GÜLƏŞƏK

Onsuz da var yerdə döşək,
Ata, ata, gəl güləşək!
Otur yerə, ayaq üstə
Axı sənə çatmır boyum.
Bir dəqiqənin içində
Kürəyini yerə qoyum.
Anama bax, anama bax,
Nə üçün kənardan baxır?
Gəlib qaldırsın əlimi,
Mən səni yıxmışam axı!

## ÇƏRPƏLƏNG

Çömçəquyruq deyərdim, –
Göydədi, suda deyil.
Sən də bax çərpələngə,
Paraşütdü elə bil.
Başından külək "tutub",
Ayağından Səmail.

## HEYBƏT

Sizə kimdən danışım,
Dəcəl bala Heybətdən:
Oynayır axşamacan,
Evə gəlmir həyətdən.
Tabaşirlə asfaltın
Üstünə şəkil çəkir.
Keçir o yan, bu yana,
Dovşan çəkir, fil çəkir.
Baş aça bilmirəm heç
Bu dəcəlin işindən.

Böyüklərlə oynayır,
Gen gəzir tay-tuşundan.
Elə bil ki, göbəyi
Kəsilibdir küçədə.
Qaranlıqdan qorxmasa,
Evə gəlməz gecə də…

**QUZUYA OXŞAMIRAM**

Mən quzunu sevirəm,
Tükü zərif, yumşaqdı.
Atam deyir ki, Elnur
Quzu kimi uşaqdı.
Hey baxıram güzgüyə,
Gəl sən də bax, ay Ziya.
Heç mən bircə tikə də
Oxşamıram quzuya…

**RƏŞAD**

Kim tanımır Rəşadı?
Vardır onun beş atı.
Biri birindən qoçaq,
Biri səkil, biri ağ.
Biri kürən, biri boz.
Qara at götürüldü,
Tutdu yeri, göyü toz.
Danladılar Rəşadı,
Neyləyirsən beş atı?
Birini ver Həsənə,
Birini ver Süsənə.
Birini ver Elşənə,
Birini ver Rövşənə.

Diqqətlə qulaq asdı
Atasının sözünə.
Payladı atları o,
Biri qaldı özünə.
Dalaşanlar barışdı,
Ağlayanlar kiridi.
Rəşad bikefləmişdi,
Daha atı bir idi…

## ÇAY İÇIB YATAN OĞLAN

Çayını gec gətirsən,
Yorğanı yerə atır.
Çayı içir, sonra da
Fincanı qucub yatır.

## İVANA BAX

Topu alıb əlimdən,
Eldar, tez ol, qaç deyir.
Ata, İvana bax e,
Topuma "myaç" deyir…

## MURAD

Almaya da alma deyir,
Heyvaya da, nara da.
Alma verdim götürmədi,
Bəs nə verim Murada?
Nar heyvadan ləzzətlidi,
Alma nardan yeməli.
Heyvanı da götürmədi,
Nar istəyir deməli…

## AĞA

Əcəb oğlandır Ağa,
Qara söyləyir ağa.
Dəcəl oğlandır Ağa,
Dırmanır daşa, dağa.
İşlək oğlandır Ağa,
Tez-tez yollanır bağa.
Quş tək oğlandır Ağa,
Qalxır uca budağa.
Tənbəlləri bəyənmir,
Zirək oğlandır Ağa.
Bir az dəymədüşərdi,
Kövrək oğlandı Ağa.
Acıqlansan üstünə,
Başlayar ağlamağa.

## ÇALAN KİMDİR

Bir səs gəlir, çalan kimdir,
Hərdən "tarzən" olur Ağa.
Dodaqları sanki simdir,
Barmağıyla çalır Ağa…

## HANSI AĞRIYIR

Gecə Kərəm ağladı,
Dedi: – Ağrıyır qolum!
– Hansı qolun ağrıyır,
Bala, qurbanın olum?
Qısılıb anasına
Dedi balaca Kərəm:
– İşığı yandır, deyim,
Qaranlıqdı, görmürəm…

## HƏ

Sual ver, gör nə deyir,
Nə soruşsan, "hə" deyir.
– Dənizə getmişdin?
– Hə.
– Yıxılıb suya düşdün?
– Hə.
– Su səni dondurdumu?
– Hə.
– Su səni yandırdımı?
– Hə.
– Doğru sözündür, Həsən?
– Hə.
– Bəlkə yalan deyirsən?
– Hə…

## SUQUŞU

Su görəndə üzü gülür,
Su görəndə gözü gülür.
Axşam-səhər deyir:
– Çim-çim!
Suquşudur sanki Elçin…

## A CUMBULU

A cumbulu, cumbulu,
Yıxammazsan gumbulu.
O ki səndən güclüdü,
O ki səndən ağırdı.
Farağat dur yerində,
Nə olsun ki, fağırdı!

## QARDAŞIM

Üç ay qalıb rayonda
Nənəmizin yanında.
Geri dönüb, gümrahlıq
Hiss edirik biz onda.

Elnur yaman dəyişib,
Deyirəm öz-özümə.
Boyu bir qırıq idi,
İnanmıram gözümə.

Boy atıb üççə aya,
Həm də kökəlib gəlib.
Qardaşım gedib kəndə,
Xeyli yekəlib gəlib…

## İKİ QARDAŞ

Kiçik qardaş deyir ki,
Ay Ələsgər, görürsən, –
Bircə ilə böyüyüb,
Ötəcəyəm səni mən.
Ələsgərsə öyünür:
– Məndən kiçiksən hələ.
Sonra da qardaşına
Söyləyir gülə-gülə:
– Qardaş, sən böyüyəndə
Duracağam mən məgər?
Yenə də səndən böyük
Olacağam, ay Əsgər!

## İNAMIN ANASI

İnam məktəbə getdi
Anasıyla bir dəfə.
Maraqla baxırdı o
Boylanıb dörd tərəfə.
Uşaqlar anasına
Müəllimə deyirdi.
Nədənsə bu, oğlanın
Çox xətrinə dəyirdi.
"Niyə müəllim deyir
bu uşaqlar anama?" –
Söz ağzından çıxan tək
Hamı güldü İnama.
Dedilər: – Sözümüzdən
Gəl incimə, ay oğlan!
Evdə ana, məktəbdə
Müəllimədir anan.

## ORXAN

Balamın adı Orxandı,
Köməkçimdi, arxamdı.
İt hürəndə ağlayır,
Niyə belə qorxandı?

## BALACA XANƏNDƏ

Mikrafonu əlinə
Alcaq sevinir yaman.
Başlayır oxumağa:
– Aman, aman, ay aman!

## "İNQƏ"

Uşaqlanır Elnur hərdən,
Dil-boğaza qoyur bəyəm?
İməkləyə-iməkləyə
Deyir: – İnqə, mən bəbəyəm!

## AZAD

Tənbəllikdə az adam,
Çata bilər Azada.
Deyir ki, buyurmayın,
Mən hər işdən azadam.
Çoxu yeyə bilməyir,
Yiyə durmur aza da.
Onun bu işlərinə
Gülür Nərgiz, Azadə…

## DİL BİLƏN QUZU

Elçin babası ilə
Gedəndə Gürcüstana,
Maraq ilə baxırdı
Hər tərəfə, hər yana.
Seyr edirdi çölləri,
Hər yan güldü, çiçəkdi.
Bax, çəməndə otlayan
Quzular nə qəşəngdi!
Quzular mələşəndə
Elçin çatdı qaşını.
Babası sığalladı
Nəvəsinin başını.
– Babacan, mat qalmışam,
Məni başa salın bir:

Gürcülərin quzusu
Bizim dili nə bilir?
– Bu nə sözdü? – Nəvəyə
Baba baxdı çəpəki.
– Bunlar da mələyirlər
Bizim quzular təki.
Baba güldü doyunca,
Ona qoşuldu nəvə.
Gülüşlər kəsilmədi
Gəlib çatınca evə…

**1978**

## NƏ QƏDƏR İSTƏYİRSƏN

Yaxına gəl, gül bala,
Yaxına gəl, ay Həsən.
Söylə görüm dayını
Nə qədər istəyirsən?

Həsən gəlib yaxına,
Söylədi ki, dayıcan,
Bu gün mənə aldığın
Konfetlərin sayıcan…

## YAXŞI ÇƏKMƏ

Mağazaya apardı
Bir gün ata Əhmədi.
Uşaq bir cüt çəkmədən
Gözlərini çəkmədi.
Dedi: – Bunu mənə al,
Gör nə yaxşı çəkmədi!

– Bu boydana çəkməni,
Bala, neynirsən axı?
Bir tayına yerləşər
Sənin iki ayağın.
Yenə Əhməd yalvardı,
Atadan əl çəkmədi:
– Böyüyəndə geyərəm,
Al, bu yaxşı çəkmədi!

**1978**

## MƏZƏLİ OĞLAN

İstiyə soyuq deyir,
Anlamıram Səlimi.
Deyir ki, su soyuqdur,
Yandıracaq əlimi.

## HƏKİMDİR ANAM

Belə söyləyir İnam:
– Həkimdir mənim anam.
Qorunmazdım küləyin
Buz kimi nəfəsindən,
Qorxmasaydım anamın
Ucu küt iynəsindən!

## RƏVAN

– Bu oğlan kimdi görəsən?
– Bizim balaca Rəvandı.
Şeir desin, dinlə onu,
Sözü adı tək rəvandı.

Başı qarışıb oyuna,
Dəcəllik düşüb payına,
Baxma balaca boyuna,
Seçə bilir tərs-avandı.

Qoymur qəmlənə adamı,
Onsuz xörəyin nə tamı?
Bir gün baxıb görər hamı
Rəvan igid bir cavandı.

**1981**

## TİKİBLƏR Kİ…

– Nə yaxşı kəndimizdə
Usta var.
– Bu körpünü kim tikib?
– Ustalar.
Gör nə yaxşı görünür,
Ay Elçin!
– Tikiblər ki, üstündən
Mən keçim…

## QƏDİR

Hey soruşur, soruşur,
Yorulmaq bilmir Qədir.
– Bu oğlan kimdir, ana?
Bu qızın adı nədir?

Bu kimin atasıdı?
Bu kimin anasıdı?
Elnur bunun hansıdı,
Aynur bunun hansıdı?

Elə hey sual verir
Kiçik Qədir anaya.
İstəyir ki, hamını
Bircə-bircə tanıya.

## BADALAQ

Ayağı daşa ilişdi,
Tural üz üstə düşdü.
Dedi: – Əmi, daşa bax,
Mənə vurur badalaq…

## SƏNİN BALAN OLARAM

Mən atamın qızıyam,
Şəkəriyəm, duzuyam.
Heç darıxma, anacan,
Deyir kiçik Dilaram.
Ata işə gedəndə
Sənin balan olaram.

## BAĞÇA UŞAQLARI

Bağça uşaqlarıyıq,
Hələ deyilik böyük.
Biz hərəmiz bir evin
Çiçəyiyik, gülüyük.

Bir yerə toplaşanda
Daha qəşəng oluruq.
Tər güllərdən hörülmüş
Əlvan çələng oluruq…

**1981**

## DİLİN CƏZASI

Qışqırdım, qulağımdan
Atam yapışıb çəkdi.
Dilimin cəzasını
Yazıq qulağım çəkdi.

## BÖYÜMÜŞƏM

Doğrusu, bu işlərdən
Baş açmıram özüm də.
Keçən ilki şalvarım,
Bu il qalır dizimdə.

Ayaqqabım kiçilib,
Əlimə girmir əlcək.
Daralıb köynəyim də,
Əynimə gəlmir pencək.

Nənəm gülür sözümə,
Söyləyir ki, ay Həsən,
Paltarın kiçilməyib,
Sən özün böyümüsən.

## YADİGAR ADLAR

Tural, Günay, Gursel, Günel
Bir babanın nəvəsiyik.
Bu dünyadan köçüb getmiş
İgidlərin əvəziyik.

Ürəyimiz ayrı deyil
Elimizdən, obamızdan.
Adlarımız yadigardı
Bizə Qorqud babamızdan.

Biz getsək də, onlar qalıb
Əsrlərlə yaşayacaq.
Babaların, nənələrin adlarını
Nəvələri daşıyacaq.

**1979**

## ƏLİ

Çıxır bir anda
Neçə oyundan,
Qulaq tutulur
Hay-harayından.
Qaçır o yana,
Qaçır bu yana.
Hamı sakitcə
Göz qoyur ona.
Adı yamanca
Xoşuna gəlir.
Özü özünü
Çağırır:
– Ə-li!…

**1979**

## RÜFƏT

Ayaqqabıya aqqa,
Konfetə deyir: qaqqa.
Geyə bilmir aqqanı,
Yeyə bilir qaqqanı…

***

Rüfətə bax, Rüfətə,
Balacadı Əlidən.
Ancaq hər şeyi alır
O, Əlinin əlindən.
Hirsləndimi balaca,
Əl uzadır ağaca!

# YİYƏ, DÜLGƏR VƏ ƏLİ

Dülgər döşəmə vurur
Əligilin evinə.
Durub baxır kənardan
O, sevinə-sevinə.
Yamsılayır ustanı,
Gülməlidir, gülməli.
Dülgər yerə nə qoysa,
Əlinə alır Əli.
Bu rəndədi, bu mişar,
Bu çəkicdi, bu mismar.
Rəndənin işi yonmaq,
Mişarın işi kəsmək.
Çəkiclə mıx vuranda
Lazım deyil tələsmək.
– Bəs bu nədir, ay usta? –
Usta süzdü qoçağı.
Dedi: – Bu da yiyədi,
İtiləyir bıçağı.
Dur kənarda, ay qoçaq,
Bax mənə yaxşı-yaxşı.
Bir az keçdi, dülgərin
İşə qarışdı başı.
Elə bildi ki, oğlan
Baxır onun işinə.
Gördü alıb yiyəni
Əli sürtür dişinə.
– Neyləyirsən, ay dəcəl? –
Soruşdu gülə-gülə.
Yoxsa itiləyirsən
Dişini yiyə ilə?

**1981**

## MƏN AYIDAN KÜSMÜŞƏM

Bir pencəyində ayı,
Birində fil şəkli var.
Gah onu, gah da bunu
Geyir əyninə Vüqar.

Səhər durub yuxudan
Öz-özünə deyinir:
– Mən ayıdan küsmüşəm,
Fili verin geyinim…

## AD GÜNÜ

Gəlibdir Maralgölə,
Bax balaca Rüstəmə.
İstəyir su çiləsin
Qardaşının üstünə.
Fəqansa çiçək yığır,
Gülür, sevincək yığır.
Deyir ki, bu güllərdən
Tutacağam dəstə mən.
Neyləyirsən bu gülü?
Balaca Fəqan gülür.
Dolanır bu çölləri,
Dolub toppuş əlləri.
Deyir ki, bu gülləri
Verəcəyəm Rüstəmə.
Ad günüdür Rüstəmin,
Şad günüdür Rüstəmin…

## AÇIN TELEVİZORU

– Açın televizoru,
İndi “multik” olacaq.
Düyməsini basmışam,
Ekran açılmır ancaq.
Ata gülür oğluna:
– Özünü yorma əbəs.
İşıq yanmırsa əgər,
Televizor işləməz.
Fikirləşib bir qədər
Belə söylədi Təhsin:
– Onda şamı yandırın,
Televizor işləsin…

## QAYMAQ, YOXSA QARMAQ

Belə söyləyir
Bizim Ehtiram:
– Qaymağı atıb,
Balıq tutuyam.
Onun sözünə
Gülür uşaqlar:
– Qaymaqla balıq
Tutmaqmı olar?
…Baxın tutduğu
İri balığa.
Siz bu uşağı
Qoymayın lağa.
Yanaşın ona
Ehtiram ilə.
“R” deyə bilmir
Ehtiram hələ.

## ÖZ-ÖZÜNƏ UZANIR

Ay-ay-ya, dırnağa bax!
Utanmırsan, ay uşaq!
Oğlan baxıb qadına,
Belə söylədi ona:
– Öz-özünə uzanır,
Mən neyləyim, ay ana!

## BİZDƏN QABAQ

Sumqayıtdan ayrılıb,
Lənkərana üz tutduq.
Çay kollarını görcək,
Biz hər şeyi unutduq.
Seyr eləyir dörd yanı
Hamı gözündə maraq.
Lənkəran qarşımızda
Açılır varaq-varaq.
Öndərin heykəlini
Görüb sevindi Ilkin:
-Bıy, Heydər baba bura
Bizdən qabaq gəlib ki!…

## SƏS

– Qaranlıq düşən kimi
Söylə görüm, ay Əvəz,
Nəyə görə uzaqdan
Eşidilir asta səs.
– Gecələr qorxusundan
Səs yüyürür uzağa.
Ağızdan çıxan kimi
Çıxıb girir qulağa.

## ÜZÜM HANI?

Danladım ki,
Arzumanı
Üzümə bax.
Soruşdu ki,
Üzüm hanı?

## PİONERƏ KEÇMİŞİK

Kim baxsa üzümüzə
Gülür, dodağı qaçır.
Sinfimizdə elə bil
Lalələr çiçək açıb.

Rəhbərin abidəsi
Önündə and içmişik.
Dünən bizim hamımız
Pionerə keçmişik.

Sinfimiz dan yeridi,
Sanki od tutub yanır.
Boynumzda qırmızı
Qalstuk dalğalanır.

## KAMAN

– Nəğmə coşur, çağlayır,
Kaman niyə ağlayır?
– Ağlamasın neyləsin, –
Yazığım gəlir ona.
Kəmanəni mişar tək
Sürtürlər boğazına…

# Biri Gülzar, biri Gündüz, biri Gursel

## ÜÇ NƏĞMƏDİ

Üç nəğmədi
Bir bulağın dodağında.
Üç almadı
Bir ağacın budağında:
Biri Gülzar, biri Gündüz,
biri Gursel.
Üç arzudu
Bir ananın gözlərində,
Üç çiçəkdi
Vətənimin düzlərində:
Biri Gülzar, biri Gündüz,
biri Gursel.
Üç ümiddi
Bir atanın ürəyində
Üç ulduzdu
Vətənimin göylərində:
Biri Gülzar, biri Gündüz,
biri Gursel.
Neçə ildi
Göz qoyuram
mən üç yerə.
Bir ürəkdi, bölünübdür
Tən üç yerə:
Biri Gülzar, biri Gündüz,
biri Gursel.

## GÜLZAR

Babasının
həm nəvəsi,
Həm anası.
Nənəsinin
qaynanası.
Canım, gözüm,
Bircə dənəm.
Gülzar qızım,
Gülzar nənəm.

## ÇİNAR VƏ GÜLZAR

Çinara baxıb Gülzar
Dedi: – Belə iş olar?
Onun boyu ucadır,
Mənim boyum balaca.
Qibtə ilə baxırdı
Bu şeytan qız ağaca.
Birdən gözləri güldü,
Belə dedi sevincək:
– Nə olsun ki, çinar da
Gəzə bilmir mənim tək.

## QIZIM

Qızımın əlləri qəşəngdi,
Qızımın telləri çələngdi.
Gözləri elə bil bulaqdı,
Ən kiçik, ən qəşəng uşaqdı…

***

Başını qoyur dizimə,
Gözünü dikir gözümə.
Qulaq asır diqqətlə
Söhbətimə, sözümə.
Söylədiyim nağıllar
Əgər gəlsə xoşuna,
Mən evdə olmayanda
Danışır qardaşına.

## AĞLAYAN QIZ

– Nə olub sənə,
Qızım, de görək!
Gözlərindən yaş
Yağır yağış tək.

– Gilas yeyəndə
Uddum çəyirdək.
Yəqin qarnımda
Ağac bitəcək…

## SÜD

Gör nə qədər ağdı süd,
Qatıqdı süd, yağdı süd.
Hələ onun içində
Ayran da var, şor da var.
Südü yaman çox sevir
Bizim balaca Gülzar.
Üzündə dadlı qaymaq,
Süddən olarmı doymaq?

## XƏZƏR

Gülzar qonaq çağırdı
Sumqayıta Sevinci.
Aşıb daşdı Sevincin
Ürəyində sevinci.
Gülzar dedi: – Atacan,
Bizi dənizə apar.
Sevinc dedi: – Ay əmi,
Sumqayıtda dəniz var?
– Var, ay qızım, Xəzərin
Sahili çox gözəldir.
– Əmi, burdakı dəniz
Bakıdakı Xəzərdir?

## GÜLZARIN TOPU

Oyuncağı çox sevir
Bizim balaca Gülzar.
Onun qırmızı rəngli
Balaca bir topu var.
Əlindən alsan əgər,
Evdə hay-həşir qopur.
Elə bilir almadır,
Ağzına basır topu…

## ƏL ÇALIR

Dəcəl pişiyə
Baxır bu şeytan,
Neçə oyundan
Çıxır bu şeytan.
Sanki uçacaq,
Qol-qanad açır.

Həm aktyordur,
Həm tamaşaçı.
Əvvəl qatığı
Sürtür üzünə,
Sonra əl çalır
Özü özünə…

***

Gizlətsəm də,
Gedib tapır qəzetləri.
Siçan kimi
Xışıldadır qəzetləri.

## GÜLLÜ DON

Suya salıb islatdı
Gülzar güllü donunu.
– Qızım, belə iş olar? –
Ana danladı onu.
Dodağını büzdü qız,
Sonra dedi sevincək:
– Su verirəm böyüsün,
Donumdakı gül-çiçək…

## GİLAS

Yaxasına iki qotaz
Gilas taxmışdı Rəna.
Kiçik Gülzar maraqla
Dayanıb baxdı ona.

Gülzar hardan biləydi
Bu gilas plastmasdı,
Eləməyib tənbəllik
Onu ağzına basdı…

## GÜLZAR VƏ TƏYYARƏ

Bizim kiçik Gülzarın
Donunda təyyarə var.
Hər baxanda üstünə,
Sevinər, qanadlanar.

Gülzar güllü çəməndə
Gülə-gülə hey qaçar.
Təyyarə də bu qızın
Mavi donunda uçar.

Bu şeytanın sevinci
Sığışmaz göyə, yerə.
Minib onun donuna
Uçar, uçar təyyarə.

Qız deyir: – Gör təyyarəm
Necə gəzdirir məni?
Əslində o özüdür
Gəzdirən təyyarəni…

## GÜLZARIN İNƏYİ

Bizim kiçik Gülzarın
Çoxlu oyuncağı var:
İnək, buzov, araba,
Neçə cürə kuklalar…

Ot yolub göy çəməndən
Arabaya yükləyir.
Aparım bu yoncanı
İnəyim yesin, – deyir…

Xətrinəmi dəyən var,
Gülzar kefsizdir yaman.
İnək dilinə vurmur
O gətirən yoncadan…

## GÜLZAR GEDİR BAZARA

Budur, gedir bazara,
Gülzara bax, Gülzara.
Əlində yekə zənbil,
Hələ o, dolu deyil.
Güclə aparır Gülzar,
Yeriyir tənginəfəs.
Zənbili dolduranda
Necə götürəcək bəs?

## GÜLZARIN SUALI

Hay gəldi keçdi,
Huy gəldi keçdi.
Bizim qapıdan
Toy gəldi keçdi.

Nə vaxt oynayaq
Söylə, atacan?
Bizim qapıda
Toy olar haçan?

## DİNCƏLMƏYƏ GƏLƏN AĞACLAR

Bir gün gəzməyə çıxdı
Atası ilə Gülzar.
Dənizin sahilinə
Enib gəldilər onlar.
– Ayaqların yoruldu,
Bu qədər gəzmək olmaz.
Gəl kölgədə əyləşib,
Qızım, dincələk bir az.
Söyüdlər tellərini
Bax, nə qəşəng səriblər.
– Atacan, ağaclar da
Dincəlməyə gəliblər?

## GÜNDÜZÜN BACISI

Gülzar uşaqlar ilə
Çəməndə gül yığırdı.
Yaşıllıqda otlayan
Qulun ona baxırdı.
Gülzar dedi quluna:
– Gəl yalına gül düzüm!
Tanımadın sən məni? –
Bacısıyam Gündüzün…

## RƏQS

Televizorda
Rəqs olan zaman,
Gəlinciyi də
Çıxır yadından.

Sanki sevincdən
Quş olur Gülzar.
Rəqqasələrə
Qoşulur Gülzar.

Yorulub durmur
Bu qız bir an da.
Kefsizləyir o,
Rəqs qurtaranda.

Deyir: – Bacılar
Getdilər hara?
Az qalır girə
Televizora…

## GÜLZAR KÜSƏNDƏ

Qalxır yerindən
Səhər tezdən o.
Hərdən inciyib,
Küsür bizdən o.
Bərkdən ağlayıb
Deyir ki, Gülzar:
– Ay Yaşar dayı,
Gəl məni apar!

## BARIŞIQ

Evin içinə
Dağıdıb unu.
Tanımaq olmur
Kənardan onu.
Üst-başına bax,

Sanki yağıb qar.
Dəyirmançıdır
Elə bil Gülzar.
Deyir: – Mən gərək,
Bişirim çörək!
Eləyib evi
O, ələk-vələk.
Ananın hələ
Yoxdu xəbəri,
Kitab oxuyur
Səhərdən bəri.
Taqqıltı gəldi
Mətbəxdə birdən.
Ana tələsik
Qalxdı yerindən.
Mətbəxə keçib
Nə gördü ana?
Un səpələnib
Burda hər yana.
– Ay səni şeytan,
Belə iş olar? –
Acıqlandı o,
Ağladı Gülzar.
Mətbəx bənzəyir
Bir dəyirmana.
Baxıb Gülzara
Qımışır ana.
Elə bilirsən
Yağıb qar yerə.
Adam heç unu
Dağıdar yerə?
Üst-başına bax,
Olub ağappaq.
Bəsdir ağladın,

Di gəl barışaq.
Çırpdı üstünü,
Kiridi Gülzar.
Anaya sarı
Yeridi Gülzar.
Toppuş əliylə
Sildi gözünü.
İsti qucağa
Atdı özünü…

**GÜLZARIN YUXUSU**

Gətirməyə gedəndə
Gül balamı bağçadan,
Boynumu qucaqlayıb,
Belə dedi ucadan:

– Atacan, bilirdim ki,
Yaxındasan, yaxında.
Mən bağçada yatanda,
Səni gördüm yuxumda…

**BALDI, BALDI**

Gün yerə şölə
Saldı, saldı.
Zirvədə qartal
Xaldı, xaldı.
Dağı çən-çisək
Aldı, aldı,
Duman elə bil
Şaldı, şaldı.
Almanı dərmə,
Kaldı, kaldı.

Zoğalın üzü
Aldı, aldı.
Öpdüm balamı
Baldı, baldı…

## ATASINDAN KÜSƏN QIZ

– Adam bərkdən danışmaz,
Axı ağrıyır başım!
– Mən atadan küsmüşəm,
Maç eləsin, barışım…

## MAQNİTAFONDAKI QIZ

Basdım maqnitafonun
Qırmızı düyməsini.
Qızım mahnı oxudu,
Yazdım onun səsini.

Bir az keçdi aradan,
Yorulub susdu qızım.
Qurdum maqnitafonu
Mahnıya qulaq asım.

Təəccüblə üzümə
Baxdı balaca Gülzar:
– Ata, maqnitafonun
İçində də Gülzar var.

## İKİ GƏLİNCİK

İki gəlincik alıb
Oqtay əmi Gülzara.
Birinin saçı sarı,
Birininki qapqara.
Öpür onun üzündən,
Öpür bunun gözündən.
Gülzar gəlincikləri
Çox istəyir özündən.
Biri sağında yatır,
Biri solunda yatır.
Yuxudan duran kimi
Qız gəlinciklərini
Öpə-öpə "oyadır"…

## ÖCƏŞMƏ

– Qızım, bir şeir de görüm.
– Gündüz desin, mən də deyim.
– Yaxşı, gəl ye xörəyini.
– Gündüz yesin, mən də yeyim.
– Əlindəki torpağı at.
– Gündüz atsın, mən də atım.
– Yatmaq vaxtı gəldi, dur yat.
– Gündüz yatsın, mən də yatım.

## MƏNİM BALAM

Qucaqlayıb boynumu
Nə deyəcək gör indi?!
Mənim balam bal deyil
Baldan bir az şirindi.

Hey öpürəm, doymuram,
Mən neyləyim bəs indi?
Deyir: – Ata, yoruldun,
Bir az öpdün, bəsindi…

**BU BAĞÇA TİKİLƏNDƏ**

Yeri qazıb, özülə
Beton tökür əmilər.
Evimizin yanında
Bağça tikir əmilər.

Gülzar baxıb onlara,
Belə deyir Sevincə:
Mən məktəbə gedəcəm
Bu bağça tikilincə…

**MƏKTƏBƏ HAZIRLIQ**

Gülzar məktəbə
Getməyir hələ.
Ancaq dost olub
– "Əlifba" ilə.
Şəkli yüz yerə
Yoza bilir o.
Öz adını da
Yaza bilir o.
Günləri sayır,
Dözməyir qızım.
Sentyabrı
Gözləyir qızım.

Gah ata yazır,
Gah ana yazır.
Deyir: – Məktəbə
Hazıram, hazır…

## BALACA RƏSSAM

Gül sözünü yaza bilmir,
Gül çəkməyi bacarır o.
Rəngə batmış əllərilə
Əl çəkməyi bacarır o.

Yarpaq çəkir, ağac çəkir,
Hərəsinə bir rəng seçir.
Xəyalından neçə-neçə
Mənzərələr gəlib keçir.

Hamımızı unudaraq
Bir də gördün gəlib dilə,
Söhbət edir şirin-şirin
Çəkdiyi şəkillər ilə.

Hər rəngin öz çalarını
Öyrənir o, asta-asta.
Özü kimi şəkil çəkir
Qızımın çəkdiyi qız da…

**1979**

## GÜLZARIN ANASINA DEDİKLƏRİNDƏN

“Məndən artıqsan?” – demə,
mən bir dan ulduzuyam,
Ana,  məndən incimə,
yaxşı olar kirisən. –
Axı mən bir kişinin
bircə dənə qızıyam,
Sən isə bir kişinin
üç qızından birisən.

**1995**

## TƏLƏSİK SUALA TƏLƏSİK CAVAB

Qardaşım qızı qaçıb
Gəldi qonşu həyətdən.
Onun qara gözləri
Bərəlmişdi heyrətdən.

Soruşdum ki, nə olub,
Qız bir azca toxdadı.
– Orda bir eşşək gördüm,
Bilirsən nə boydadı?

– Belə de, nə boydadı? –
Səncən olarmı, Gülzar?
– Yox, məndən çox yekədi,
Əmi, sən boyda olar…

**1988**

## ƏMİ ÜZÜNÜ QIRXANDA

Qırxmaq istəyir əmim,
Sabunlayır üzünü.
Bacım onun əlinə
Zilləyibdir gözünü.
Elə diqqətlə baxır,
Gülzar çaşıb qalıbdır.
Deyir: – Əmimə baxın,
Şaxta baba olubdur…

**1977**

## DİŞ NİYƏ BİTMİR

Düşən dişini
Atıb siçana,
Qız gülə-gülə
Söylədi ona:
"Balta dişimi
Verirəm sənə.
Qızıl dişini
Verərsən mənə."
Keçdi neçə gün
Bu qayda ilə.
Niyə bitməyib
Qızıl diş hələ?
Gülzar tələsir,
Gülzar darıxır.
Gündə neçə yol
Güzgüyə baxır.
Deyir: – Bəs dişim
Bitəcək haçan?
Yəqin qızıl diş
Tapmayıb siçan.

**SALATIN ULDUZU**

Xiyardan, pomidordan
Anam salat düzəldib
Bir cüt göz gərək baxa,
Görün necə gözəldi?!

Pomidor dilimləri
Ulduz kimi sayrışır.
Balaca qardaşlarım
Bir-biriylə yarışır.

Dilimləri duzlayıb,
Biz ləzzətlə yeyirdik.
Bir ağızdan anama
Sağ ol, sağ ol deyirdik.

Sonuncu pomidoru
Niyə götürmür heç kəs?
Atam mənə göz vurdu,
– Gülzar, dayanma, tələs!

Götürdüm pomidoru,
Gursel bizi güldürdü.
Dedi: – Bacım salatın
Ulduzunu söndürdü…

## GÜNDÜZ VƏ SƏRÇƏ

Bağçaya gəldi Gündüz,
Yaman dəcəldi Gündüz.
Sap bağlayıb buğdaya
Sərçələrə atdı o.
Sərçə uddu buğdanı,
Sapdan tutub dartdı o.
Uşaqlar gülüşürlər,
Qəribə işdir necə?
Gündüz sapı çəkdikcə
Dalınca gedir sərçə.

## GÜNDÜZƏ BAX

Gündüzə bax, Gündüzə,
Gülzar yatıb, o yatmır.
Özü təkcə oynayır,
Bacısını oyatmır.

Danışır öz-özünə,
Yumanda gözünü də.
Başa düşə bilmirəm
Heç bircə sözünü də…

## ŞƏKIL

Gündüz şəkil çəkirdi
Qarşısında ağ varaq.
Dedi: – Balıq çəkirdim,
Kişi oldu, şəklə bax!

## GƏL BÖLƏK

Gəl bölək almaları,
Bu mənim, bu da sənin.
İstəmirsən özün bil,
Payı qalmaz küsənin.

Sanki Gündüz deyirdi:
– Bacı, küsmərəm daha.
Gülzar yedi almanı,
O qaldı baxa-baxa.

## ÇAPAN ÇALANDA

Gündüz çapan çalanda
Evdə hamı uğundu.
– Ata, Gündüzə bax e,
Elə bil ki, meymundu. –
Deyib gülürdü Gülzar,
Lap yaşarmışdı gözü.
O, təkrar eləyirdi
Atasının iki gün
Əvvəl dediyi sözü…

## BALACA DÜLGƏR

Uzanmışam divanda,
Gündüz yan otaqdadır.
Guya ki, taxta yonur,
Rəndəsi də taxtadır.

Dedim bəlkə oğluma
Dəydi bir az köməyim.

Getdim onun yanına,
Baxdım, gəldi gülməyim.

Məndən xəbəri yoxdu,
Yaman qarışıb başı.
Qulağının dalına
Qoyubdur karandaşı…

## BİR TƏYYARƏ DÜZƏLTDİM

Bir təyyarə düzəltdim
Bircə vərəq kağızdan.
Mənə əhsən dedilər
Dostlarım bir ağızdan.

Qanadının üstünə
Ulduz şəkli də çəkdim.
Təyyarəm uçsa idi
Gülüb sevinəcəkdim.

Atdım göyə, şığıdı
Etdi başımı uca.
Ancaq yerə enmədi,
Gedib qondu ağaca.

## CİCÇ…

Gündüzə bax, Gündüzə,
Gedib giribdir hara?
Pərdənin arxasından
Çıxararaq başını
"Cicç" eləyir Gülzara.

## BAĞÇADAN QAYIDANDA

Gündüzə bax, Gündüzə,
Bağçadan gələn zaman
Dartınır yerə düşsün
Atanın qucağından.

İstəyir ki, getsin o,
Bacısıyla yanaşı.
Yeriyə bilmir ancaq,
Ayaqları dolaşır.

Az qalır ki, yıxıla,
Qınamayın siz onu.
Gücü çatmır apara
Əynindəki paltonu.

## ULDUZ SÖNDÜRƏN OĞLAN

Atanın qucağında
Gündüz balkona çıxdı.
Yoxdur bir çəngə bulud,
Göyün üzü açıqdı.

Ulduzlar xırda-xırda,
Ulduzlar parlaq, sarı.
Gündüz "üf, üf!" eləyib,
Dartınır göyə sarı.

Ağlı şama gedibdir,
Boylanaraq hündürə,
İstəyir ki, üfürüb,
Ulduzları söndürə…

## ŞEŞ

Gündüz dördə beş deyir,
Gündüz vurur baş-ayaq.
Gündüz nərdə "şeş" deyir, –
Ata, gəl "şeş" oynayaq!

Atır zəri ovcundan
Nərtaxtanın içinə.
Neçə düşsə, fərqi yox,
Heç almayır vecinə.

Ya dörd düşsün ya da beş,
Ya bir, ya iki, ya üç.
Hamısına "şeş" deyir,
Saymağı da bilmir heç…

## OĞLUM VƏ MƏN

Oğlum dedi sevincək:
– Ata, mənə dəniz çək!
Karandaşı, kağızı
Mənə verdi əlbəəl.
Mən ona dəniz çəkdim,
O, məndən çəkmədi əl.
Söylədi ki, ay ata,
Dənizdə bir gəmi çək.
Çəkdim.
Dedi: – İndi də
Gəmidə bir əmi çək.

## DƏNİZ DALĞASIZ OLANDA

Dalğa yoxdu dənizdə,
Ləpə yoxdu dənizdə.
Durub sahilə getdik
Oğlumla səhər tezdən.

Ayna kimi sulara
Baxdı, baxdı bu qoçaq.
Dənizin üstü ilə, – dedi, –
Ata, gəl qaçaq!

O, sahildən dənizin
Üstünə addım atdı.
İstədi ki, yeriyə,
Dizəcən suya batdı.

***

Axşam gün bathabatda
İt hürdü, Gündüz qorxdu.
Qulaqlarını tutub,
Dedi ki, "ham-ham" yoxdu…

## XALÇANIN ÜSTÜNDƏ

Bizim güllü xalçaya
Oğlum baxır, hey baxır.
O güllərin içiylə
Bir balaca "çay axır".

– Çaydan keçir ki, bu yol? –
Birdən boğularam mən.
Ata, uzan körpü ol,
Keçim sənin üstündən…

## BÖYÜDÜ

Oğlum sısqa suya
Kəhriz deyirdi.
Kiçik gölməçəyə
Dəniz deyirdi.
Böyüdü, gördü ki,
Sısqa bulaqlar
Kəhriz deyilmiş.
Böyüdü, gördü ki,
Bu gölməçələr
Dəniz deyilmiş.

## BALACA ŞAXTA BABA

Örtüyü dolayıb belinə,
Oxlovu götürüb əlinə.

Pambıqdan bığ qoyub özünə,
Papağı basıbdır gözünə.

Şirniyyat götürüb bir kisə,
Nə üçün paylamır heç kəsə.

Qışqırır, özünü öyür o,
Mən şaxta babayam, – deyir o.

**1978**

## YATIRAM Kİ…

Bacısı rayondadır,
Onsuz darıxır Gündüz.
Gülzar sözü dilindən
Düşməyir gecə-gündüz.

Bu axşam o, yatanda
Bacısından söz saldı:
– Atacan, niyə gəlmir,
Bəs Gülzar harda qaldı?

Qoy gəlsin, incimərəm,
Lap yolsa da saçımı.
Yatıram ki, yuxumda
Yenə görüm bacımı.

## MOTOSKLET

Təkəri gözəl,
Özü təptəzə,
Bir motosklet
Aldım Gündüzə.
Ona yat demək
Hədərdir, hədər.
Göz yummayıbdır
Səhərə qədər.
Alatoranda
Qalxıb yerindən,
Necə qoçağam, –
Deyir, – görün mən?!
Minib üstünə
Motoskletin.
Özüm sürərəm, –
Deyir, – siz gedin!
Sürür o yana,
Sürür bu yana.
Sanki dünyanı
Veriblər ona…

**1978**

## NƏ YAXŞI Kİ…

Pişik motoskleti
Gördüm ki, minib qaçır.
Elə bil qanadı var,
Motoskletim uçur.
Ha qışqırdım ki, saxla,
Eşitmədi sözümü.
Təkərlərin altına
Qaçıb atdım özümü.
Çevrildi motosklet,
Pişik yerə yıxıldı.
Mən oyandım yuxudan,
Birdən hər şey yox oldu.
Motoskletə baxdım
Yatağımdan boylanıb.
Gördüm ki, çarpayımın
Qarşısında dayanıb.
Sevindim, evimizdə
Oğru pişik yox imiş.
Mənim danışdıqlarım
Nə yaxşı yuxu imiş…

**1978**

## BARIŞIQ

Divara dəydi
Gündüzün başı,
Yanaqlarına
Axdı göz yaşı.
Billur damlalar
Necə iridi…
Öpdüm gözündən,
Balam kiridi.
Bir az toxdadı,
Gəldi özünə.

Gülməyim tutdu
Onun sözünə.
Dedi ki, daha
Ağrımır başım.
Burax, divarla
Gedib barışım.

**1979**

## QAÇ GƏL

Mən o qədər böyümüşəm,
Heç babam məni tanımaz.
Məktub yazıb mənə dünən,
Deyir ki, qaç gəl yanıma!

Bir velosiped almışam,
Durub yolunu gözləyir.
Nənən ona "nəvəm" deyib,
Axşam-səhər əzizləyir.

Atam işdə, anam işdə,
Yolu tanımıram mən də.
Ayaqlarım yorulmazmı,
Necə qaçıb gedim kəndə?

O qədər yolu piyada
Getmək axı deyil asan.
Aldığı velosipedi
Göndərəydi heç olmasa.

Minəydim onun üstünə,
Aparaydı kəndə məni.
Babam, nənəm, əmim, dayım
Görəydilər gündə məni…

**1980**

## HESABLAMA ÇÖPLƏRİ

Hesablama çöpləri
Almışam oğlum üçün.
– Neçə eləyər gəlsək
İkinin üstə üçü?
Fikirləşir bir qədər,
Sonra da o ahəstə,
İki çöp sayıb qoyur
Üç dənə çöpün üstə.
Deyir: – Cavab hazırdı,
Beş edər üçlə iki…
Bir çöp alıb əlinə,
Onu götürüb fikir.
– Bir bax, o birilərdən
Bu çöp iridi, ata.
Deyəsən bu, onların
Komandiridi, ata!

**1981**

## YERİNDƏDİ

Qardaşım itirmişdi
Dominonun daşını.
Guya ki, utanırdı,
Qaldırmırdı başını.

Soruşanda daş hanı?
O, mənə belə dedi:
– Yəqin düz yığmamısan,
Hamısı yerindədi…

## GÜNAH KİMDƏDİR

Gündüz qaçırdı,
Birdən yıxıldı.
Oyuncaqları
Yerə dağıldı.
Gözləri yaşlı
Yanıma qaçdı.
Gileylənərək
Oğlum dil açdı.
Dedi: – Paltarım
Olub toz-torpaq.
Ata, günahkar
Deyiləm ancaq.
Bütün günahlar
Yerdədi, yerdə.
Onu döy, məni
Yıxmasın bir də.

## ƏGƏR BALACAYAMSA

Gülzarın çantası var,
Gündüz töküb qaş-qabaq.
Deyir: – Məktəbə gedir
O, niyə məndən qabaq?
İncimişəm babadan,
İncimişəm nənədən.
Yekə oğlan olmuşam,
Çanta alın mənə də.
Ana deyir: –Gündüzüm,
Ay mənim canım, gözüm.
Balacasan sən hələ,

Nə qalıb gələn ilə?
O vaxtacan böyüyüb
Boy atarsan, Gündüzüm.
Onda səni məktəbə
Apararam mən özüm.
Qaş-qabağı tökülü
Dönüb Gülzara baxır.
Deyir: – Balacayamsa,
Bu niyə məndən qorxur?!

**SÖZÜ SƏHV YAZANDA**

Təzə mövzu tapdım bu gün,
Kağız üstə qələm səkdi.
Bəyənmədim yazdığımı,
Üstündən bir qələm çəkdim.

Gündüz gəldi mənə yaxın,
Əl-qolunu ata-ata.
Dedi: – Niyə qaraladın,
Yazdığında səhv var, ata?

Gülüb tərpətdim başımı,
Üzümə dikdi gözünü:
– Ata, səhvin varsa əgər
Niyə döymürsən özünü?

– Bu nə deməkdi, ay oğul,
Danış görüm nə deyirsən?
– Bacım sözü səhv yazanda
Bəs onu niyə döyürsən?

**1981**

## GÜNDÜZ DEYİR

Nənəm demiş, o, baxmır
Heç ağına, bozuna.
Döşəmədə nə tapsa,
Alıb qoyur ağzına.

Qaraçıdır, əlindən
Şey almaq mümkün deyil.
Gündüz deyir ki, Gursel
Tozsorandır elə bil.

**1980**

## SEVİNİR

Sevib televizoru
Lap balaca çağından.
Gündüz uzaq getməyir
Ekranın qabağından.

Onu günorta üstü
Yatıra bilməzsən sən,
"Gündüz verilişlərimiz
Qurtardı", – deyilməsə.

– Gündüz, verilişlərimiz
Qurtardı, – deyir xala.
Qanadı yoxdur uçsun,
Sevinir Gündüz bala.

O, təəccüblə mənim
Üzümə baxıb gülür.
Deyir: – Bu xala mənim
Adımı hardan bilir?

**1980**

## QƏRİBƏ SUAL

Toya apardım
Bir gün Gündüzü,
Bərk sevinirdi,
Gülürdü üzü.

Birdən o mənə
Dedi: – Atacan,
Bəs sənin toyun
Olacaq haçan?

**1981**

## GÜNDÜZ VƏ MƏSTAN

Gündüz gələndən
Məstan həsrətdi
Evə, eşiyə.
Bu dəcəl oğlan
"Ham-ham" eləyib,
Cumur pişiyə.

**1977**

## İŞIQLI GÜLLƏR

Gülzar gecə göyə baxır
Gözlərində sevinc, maraq.
Ulduzları göstərərək
Deyir: – Gündüz, güllərə bax.
İstəyirsən dərim sənə,
Hamısını verim sənə.
Gündüz gülür: – Heç bilirsən
Necə uzaqdı ulduzlar?
Göydə güllər açılsa da,
Dərə bilməz onu qızlar…

## BİR QOCA VAR

Bir qoca var həyətdə,
Saqqalı ağ, saçı ağ.
Ona sarı boylanır
Gündüz gözündə maraq.
Bu ki, Şaxta babadı, –
Yaxın gəlir Süsən də.
– Şaxta baba nə gəzir
Yayın bu istisində?
Tanıyıram mən onu,
Babasıdır Arazın.
– Bəs o nədir əlində?
Torpağı niyə qazır?
– Məgər bel görməmisən? –
Gülməlisən yamanca.
Baba torpağı qazır,
Qulluq edir ağaca.
Yumşaldır diblərini,
Su verəcək bir azdan.
İnanmırsansa əgər
Gedib soruş Arazdan!

**1978**

## BALACA HÜCUMÇU

Top indi Gündüzdədi,
Elnur onu izlədi.
Gündüz baxdı sağına,
Gündüz baxdı soluna.
Tez Elnuru aldadıb,
Davam etdi yoluna.
Birdən çıxdı bu qoçaq
Qapıçıyla təkbətək.

Ancaq vurduğu topu
Geri qaytardı dirək.
Gündüzün zərbəsindən
Az qaldı qapı sına.
Bir azdan top vurdular
Onların qapısına.
Gündüz özü-özünü
Danladı dönə-dönə.
Top atıldı meydana,
Oyun qızışdı yenə.
Komanda yoldaşları
Ona atdılar topu.
Gündüz bərk zərbə vurdu,
Uzaq olsa da qapı.
Qışqırdılar uşaqlar,
Top keçmişdi qapıdan.
Onun əlini sıxdı
Yoldaşları, kapitan.
Hücum etdi yenidən
Bizim rəqib komanda.
Topu geri qaytardı
Müdafiəçi Kamandar.
Gündüz yanaşı qaçır
Oyunçu yoldaşıyla.
İlkin topu qaldırdı,
Gündüz vurdu başıyla.
Hesab iki bir oldu,
Oyun qurtardı belə.
Gündüzgil meydançadan
Çıxdılar gülə-gülə…

## GURSEL

Balacadır, bilməsə də
O, hər şeyin mənasını,
Tox olanda məni sevir,
Ac olanda anasını.

## HÜNƏRİN VAR

Gündüz dedi Gurselə,
Hünərin var gir selə.
Çırmalayıb şalvarı,
Gursel girdi gur selə.
Aşıb daşsa da gur sel,
Ondan qorxmadı Gursel…

## OĞLUM

Hələ olmayıb
Onun bir yaşı.
Çox şey öyrədib
Böyük qardaşı.

Alma verəndə
Basır ağzına.
Güzgü verəndə
Baxır özünə.

Başına çəkir
Daraq verəndə.
Qələm istəyir
Varaq verəndə.

## ALMAMI VER

Alma verdi oğlum mənə,
Dişlərimə çəkib yedim.
Əvəzində yanağından
Öpüb ona sağ ol dedim.

Onun qəribə sözünə
Evimizdə güldü hamı.
Gursel ağlaya-ağlaya
Söylədi ki, ver almamı!

**1980**

## DƏRSİNİ OXU

Bacısı dərs oxuyanda
Kitabını tutub alır.
Hünəri varsa, verməsin,
O, qışqırır, haray salır.

Bacısı yazı yazanda
Qələmi çəkir əlindən.
Yazıq qız bu cumbulunun
Gör nələr çəkir əlindən.

Təhərini tapıb Gülzar,
İşi bir az olub asan.
Dərslərini hazırlayır
Gursel gəlincə bağçadan.

Yenə əl çəkmir Gülzardan,
Gursel ona gəlib yaxın,
Çantasını dartışdırır,
Deyir: – Aç dərsini oxu!

## ATA, SƏN KİMSƏN?

– Ata, söylə, sən kimsən?
– Oğlum, sənin atanam.
– Yox, ata, sən ayısan,
Mən də sənin potanam…

## KÖÇÜRÜRƏM

Kubiklərdən ev tikdim,
Oğlum baxıb sevindi.
Dedi: – Atacan, bu ev
Nənəgilin evidi.
Birdən sökdü onları,
Götürüb qucağına,
Taxtaları apardı
Gursel öz otağına.
Deyirəm: – Niyə sökdün? –
O, baxıb mənə gülür.
Deyir ki, köçürürəm
Yanıma nənəgili…

## AY ATA, QORXMA, MƏNƏM

Kirpiklərim qapandı
Uzancaq divanda mən.
Qulağım cingildədi,
Dik atıldım yerimdən.

Bu nə səsdi görəsən,
Səksəndim, əsdi çənəm.
Oğlum güldü üzümə,
Ay ata, qorxma, mənəm.

Əyilib qulağıma
Canavar tək uladı…
Evdəkilər güldülər,
Mən başımı buladım…

## YUXUDA NƏ GÖRMÜSƏN?

Ovuşdurma gözünü,
Yanağı çiçək balam.
Nə görmüsən yuxuda,
Ay mənim göyçək balam?

Xəbərim də olmayıb,
Oyanmısan bəs haçan?
– Heç bilirsən, yuxuda
Kino gördüm, anacan!

## GÖYDƏN ÜÇ ALMA DÜŞDÜ

Göydən üç alma düşdü,
Hər alma bir xoş dilək.
Göydən üç alma düşdü,
Nağıl qurtardı demək.

Bu düşən almalardan
Hər kim yesə, qocalmaz.
Nağılların sonunda
Üç nöqtədi üç alma…

Gursel deyir: – Ay ata,
Alma istəmirəm mən.
Elə nağıl danış ki,
Qurtaranda alma yox,
Üç armud düşsün göydən…

## YENƏ SƏNİ KİM İNCİDİB?

Yenə səni kim incidib,
Niyə ağlayırsan, oğlum?
– Ata, bacını görürsən,
Qoymur ki, pioner olum.

Yenə də məni ağladır,
Deyir ki, dərsə az qalır.
Qoymur boynuma bağlayım,
Qalstuku tutub alır…

## OYUNCAQ ŞİR

Gursel bir vaxt oynatdığı
Oyuncağa nəzər salıb,
Deyir ki, mən böyümüşəm,
Şir elə o boyda qalıb.

Mən oxuyub yazan zaman
Qəzəblə məni izləyir.
Şir oturub intizarla
Təzə bir uşaq gözləyir.

**1997**

## ANA, QORXMA

Deyirlər əldən yerə
Düşərsə çəngəl, bıçaq,
Demək həmin gün mütləq
Evə gələcək qonaq.

Çəngəl düşəndə tutub
Bic-bic gülür bu uşaq.
Deyir ki, ana, qorxma,
Geri qayıtdı qonaq.

**1988**

## HƏYƏT QƏDƏR

Palçıq ilə oynayıb,
Gursel sözə baxmayıb.
Ana hirslənib, onu
Həyətə buraxmayıb.

Oxşayır anasını,
Oğlanı boğur qəhər.
Deyir ki, mən anamı
Sevirəm həyət qədər.

Ana gülür, dünyanı
Bağışlayır uşağa.
Ana gülür, bu gülüş
Dönür yaşıl işığa.

Gurselin yanağında
Təbəssüm çiçək açır.
O, sevinə-sevinə
Durub həyətə qaçır.

**1988**

## YUXUDA GÖRMÜŞƏM Kİ

Gündüzdən əl götürmür,
Gursel lap gerçəkləyib.
– Yuxumda görmüşəm ki,
Bığ yerin çiçəkləyib…

## GURSELİN KAĞIZLARI

Kağızlarına əl vursaq,
Yamanca hirslənir ata.
Ona görə ayırmışıq
Biz ona ayrıca otaq.

Gurselin kağız-kuğuzu
Heç nəyi almır vecinə,
Gedib qarışır atanın
Kağızlarının içinə…

## KRESLONUN ÜSTÜNDƏ

Oğlum məktəbdən gəldi,
Dedim: – Yat, dincəl bir az!
Dedi: – Dərs öyrənməmiş
Gözümə yuxu dolmaz.

Bir də baxıb gördüm ki,
Dərs oxuya-oxuya,
Kreslonun üstündə
Gedib şirin yuxuya.

Əyilib öpən zaman
Onun pırpız telindən,
Gördüm nağıl kitabı
Yerə düşüb əlindən.

Səhifələr titrəyir,
Vərəqlər açıq qalıb.
Sonacan oxumayıb,
Nağıl yarımçıq qalıb.

Arabir sayıqlayır,
Qıvrılır, dartınır o.
Yuxuda görür yəqin
Nağılın ardını o.

**1990**

## NECƏ DEYİM

Gurselə bax, Gurselə,
Budaqdan meyvə dərir.
Ancaq yemir, onunçün
Bir sümükdü, bir dəri.
Bağçada xörək gəlir,
Deyir: – Evdə yemişəm.
Evdə deyir: – Bağçada
Möhkəm yeyib gəlmişəm.
Bu gün istirahətdi,
Bu gün bağça bağlıdı.
Xörək verdik yemədi,
Acıqlandıq, ağladı:
– Bilmirəm məni niyə
Danlayırsız həmişə?
Toxam, axı yuxuda
Cücə-plov yemişəm!

## SƏN DEMƏ

“Kim aparsın bağçaya
Səhər-səhər Gurseli?” –
Gülzar deyir: – Sən apar!
Gündüz deyir: – Sən apar!
Boğur qəhər Gurseli.
Dolur balamın gözü,
Deyir: – Gedərəm özüm!…
Yenə Gülzarla Gündüz
Evdə haray qoparıb.
Cupbulunu bağçaya
O deyir mən aparım,
Bu deyir mən aparım.
“Bunlardan çıxmayan iş?”–
Təəccübləndi ana.
Pəncərədən baxanda
İş aydın oldu ona.
Sən demə qar yağıbmış,
Özü də birinci qar.
Qartopu oynamaqçın
Tələsirmiş uşaqlar…

## ANA HİRSLƏNƏR AXI

Gurseldən çıxmayan iş
Qaçmır o baş, bu başa.
Həminki adam deyil
Elə bil heç bu uşaq.
Axtarsa da, tapmayıb
Başmağının tayını.
Xalçanın bir küncündə
Xoflu-xoflu dayanıb.

Döşəkçənin altında
Ayağını gizləyib.
Anasının otaqdan
Çıxmasını gözləyir.
Dayanıb maddım-maddım
Qapıya sarı baxır.
Ayaqyalın gəzəndə
Ana hirslənir axı?!

## GURSEL NİYƏ GİZLƏNİB

– Oğlum, mən mağazadan
Alıb gəlincə çörək,
De görüm evimizdə
Qala bilərsənmi tək?
– Qalaram.
– Qoçaq balam,
İstəyirsən, uzan yat!
Ya da oyna, şəkil çək,
Qayıdıram bu saat…
Ana geri dönəndə
